XXI ƏSRİN FƏLSƏFİ ANTOLOGİYASI

MÜSLÜM MAHİR HİKMƏT

# SOSİAL HƏYATIN ENSİKLOPEDİYASI

ELM VƏ TƏRƏQQİ NƏŞRİYYATI
BAKI - 2008

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

REDAKTOR VƏ ÖN SÖZÜN MÜƏLLİFİ

AĞAYAR ŞÜKÜROV
Fəlsəfə elmləri doktoru, professor

## ANOTASİYA

Hörmətli oxucularımın diqqətinə layiq bilinən fəlsəfi düşüncələr və qənaətlər bu kitabda cəm edilmişdir.

Təqdim olunan əsərlər öz əhatəliyi ilə bir növ sosial həyatımızın ensiklopediyasıdır və bu birinci kitabdan sonra arzu edən oxucular daha iki kitabla tanış olmaq imkanı qazanacaqlar. Kitab daha çox intellektual oxucular üçün nəzərdə tutulmuşdur.

© MÜSLÜM MAHİR HİKMƏT
© ELM VƏ TƏRƏQQİ NƏŞRİYYATI



## Müslüm Mahir Hikmətin «Sosial həyatın ensiklopediyası» adlı kitabı haqqında bir neçə söz

Oxuculara təqdim edilən bu kitab müəllifin hazırladığı fəlsəfi mövzuya dair üç kitabından birincisidir. Birinci kitabında şair-filosof Müslüm Mahir Hikmət daha çox mətbuatda dərc olunan əsərlərini cəm etmişdir. Onun «Fəlsəfə və poeziya» və «Axar sular» əsərləri «Xəzər – xəbər» jurnalında, «Fəlsəfə və poeziya» və «Təbiət və poeziya» əsərləri «Ulduz» jurnalında, «Ədalət və hüquq fəlsəfəsi» əsəri «Qanun» jurnalının ardıcıl olaraq on bir nömrəsində geniş oxucu kütləsinin nəzərinə çatdırılmışdır. Bundan başqa «Yeni iqtisadiyyat» jurnalında «İqtisadiyyatın fəlsəfəsi», «Audirt və iqtisadiyyat» və «Vergi xəbərləri» jurnallarında «Verginin, uçotun və mühasibatın fəlsəfəsindən fraqmentlər» əsərləri ilə oxucular tanış olmuşlar. «Kredo», «Milli birlik», «Vicdanın səsi», «Palitra»qəzelərində də M.M.Hikmət öz fəlsəfi əsərləri ilə çıxış etmişdir.

Şair-filosof Müslüm Mahir Hikmət Azərbaycan yazıçılar birliyinin üzvüdür, yəni o, əslində həm də bədii söz ustasıdır. Məhz buna görə o, təbii olaraq öz fikirlərini aforistika formasında ifadə etsə də, onları bədii və obrazlı ifadə edir və bu da onun yazıçılıq istedadının və manerasının ən gözəl ifadəsidir. O, aforistikanın sərt tələblərini nəzərə alaraq fikirlərini az sözlə ifadə edir, onun lakonik və yığcam olmasına xüsusi diqqət edir.

Müəllifin öz fəlsəfi yaradıcılığında istifadə etdiyi aforistik İfadə forması ən qədim dövlərdən başlayaraq – qədim «Hindistan aforizmləri», «Epiktetin aforizmləri» məşhurdur, sonrakı dövrdə Esxil, Lukian, Tit Liviy

ölməz ifadələrini yaratmışdır. Sonralar belə İfadə forması Misirdə və Şərqdə, qədim Çində belə abidələr yaradılmışdır. Daha sonra qədim Yunanıstanda bu janr xüsusilə İnkişaf etmişdir. XVI – XIX əsrlərdə bu janr əvvəl Fransada, sonra İngiltərədə inkişaf etdi və bu ənənə Almaniyada və digər dövlətlərdə davam etdirildi. Qeyd edilməlidir ki, qədim aforistika ilə bu günki aforistika arasında heç bir forma və məzmun fərqi yoxdur.

Sadəcə olaraq elmin və svilizasiyanın yüksək inkişafına müvafiq olaraq yeni mövzular əlavə olunmuşdur. Məsələn, müəllifin «Verginin, uçotun və mühasibatın fəlsəfəsindən fraqmentlər», «Rabitə və informasiya texnologiyaları fəlsəfəsi» bu qəbildəndir. M.M.Hikmətin əsərlərini janr ehtibarı ilə esse də adlandırmaq olar, Çünki esse çox gözəl ədəbi janr kimi aforistikaya çox yaxındır. Bu janrda müəllif öz düşüncələrini sərbəst ifadə edir, aforistikada olduğu kimi düşüncələrini, ifadələrini sistemləşdirməyə ehtiyac duymur. Bu gün Platonun «Dialoqlar»ı da esse kimi dəyərləndirilir. Müslüm Mahir Hikmətin mövzu dairəsi də genişdir. O, sosial həyatın bütün sahələrinə toxunur, onu düşündürən hər şey barədə yazır, elmin, biliyin, mədəniyyətin, incəsənətin və ümumiyyətlə bütün svilizasiya onun mövzu dairəsinin coğrafiyasıdır.

Mən əminəm ki, müəllif öz yaradıcılıq uğurlarını genişləndirəcək və öz intellektual oxucuları ilə daima yaradıcılıq təmasında olacaqdır.

A.M.ŞÜKÜROV
Fəlsəfə elmləri doktoru, professor



## FƏLSƏFƏ VƏ POEZİYA

1. Fəlsəfə də poeziyadır, fərq ondadır ki, poeziyada şair həyat hadisələrini, təbiət gözəlliklərini emosional şəkildə dərk edir, bəzən hətta fanatikcəsinə sevərək yazır.Filosoflar isə yuxarıda deyilənlərə daha çox müdrikcəsinə, həkim soyuqqanlığı ilə yanaşır, hamının gördüyü, lakin lazımınca dərk edə bilmədiyi içtimai – siyasi hadisələrin mahiyyətinə varır, onun həm astarını, həm də üzünü göstərir.
2. Poeziyada şair daha çox gözəlliyin, emosiyaların əsiridir, filosof isə öz düşüncələrində əsirlikdən daha çox hakim rolunda özünü hiss edir.
3. Fəlsəfəsiz sənət - müalicə vasitəsi olmayan təbibə bənzəyir.
4. Aristoteli oxuduqda bu qənaətə gəlirəm ki, fəlsəfi irs elə gözəl, əvəzsiz və mahiyyətcə elə zəngin mənəvi sərvətdir ki, onu yalnız özünün mənəvi sələfi olan, onun cövhərindən boy atan və ona intellektual bazis rolu oynamış olan klassik \floklor\ poeziyadan başqa, bəşəriyyətin əldə etdiyi heç bir maddi – mənəvi nemət, dəyər onu əvəz etməyə qabil deyil.
5. Filosofların həyatı qəhrəmanların həyatına bənzəyir, onlar döyüşdə qarşısına heç də qəhrəman olmaq niyyəti qoymadıqları kimi, filosoflar da həyatın bütün məhrumiyyətlərinə və məşəqqətlərinə dözərək öz tədqiqatları və mühakimələri ilə bəşəriyyətin İntellektual təkamülünə - həyatın əsrarəngsiz gözəlliklərinin sirlərinə vaqif olmağa cəhd edərək, mühakimənin poeziyasını \fəlsəfəsini\ yaradırlar.
6. Böyük maddi məhrumiyyətlərlə üzləşən şair və filosoflfar ürəklərinin yağı ilə zülmətdə məşələ

dönmüşlər və dönə-dönə öz iradələri ilə sübut etmişlər ki, həyatın poeziyasını mənəvi sarsıntılar heç də azaltmır.
7. K.Marks \Annekovaya məktubunda\ - geoloqların yeraltı qatları tədqiq edib əməli nəticələr əldə etdikləri kimi, insan idrakının açılmamış qatlarında ictimai həyatın təşəkkül inikasının təkamülünü də hakim filosof kimi sox düzgün göstərmişdir, necə ki, şairlər insanın mənəvi aləminin qatlarının poetikasını açmışlar.
8. Filosof cəmiyyətin ideal təsəvvürlərinin ifadəçisidirsə, şair cəmiyyətin ideal təsəvvürlərinin tərənnümçüsüdür.
9. Filosof təbii - tarixi proseslərin tədqiqi izahında insanların əldə etdikləri və edə biləcəkləri əqli nəticələrin mahiyyətini göstərməklə yanaşı, svilizasiyanın gələcəyini nişan verməlidir, şair isə təbii – tarixi proseslərdə insanların mənəvi dünyasını, ruhi qidasını axtarıb tapmalıdır.
10. Filosof yaradıcı ziyalılar içərisində lider kimi irəli getməli – simfonik orkestdə çalğıçı yox, dirijor olmağı bacarmalıdır, şair isə cəmiyyətdə - xorda oxuyan dəstənin bir üzvü kimi deyil, solonun mahir ifaçısı kimi tanınmalıdır.
11. Fikir və söz – fikir yanan işıqdır, söz onun çıraqbanıdır, fikir və söz birləşəndə fikir hikmətləşir, söz mahiyyətləşir, zəka nisbi kamilliyə çatır, sanki gözəl qız gəlin paltarı geyərək daha da gözəlləşir.
12. Poeziya ürəyimdir, fəlsəfə ağaran başımdır.
13. Şair ürəyi hazır, işlək musiqi aləti kimidir, onu nizamladıqda, oradan həmişə gözəl musiqi eşitmək mümkündür.





14. Şairın ürəyi gül bağına bənzəyir, ona diqqət yetirdikdə o, fəsil bilmədən düymələnir, qönçələnir və nahayət, açılışı ilə həmişəlik yaddaşlarda qalan təbiətin sanki bədii obrazını yaradır, öz təravəti və təzəliyi ilə qəlbləri rövnəqləndirir, onları riqqətə gətirir, mənəvi qida bəxş edir.
15. Poeziya və fəlsəfənin sintezi - peyvənd edilmiş meyvə ağacının barı kimi gözəl, xoşagələn, könül açan, estetik və duyğularımızın ruhi qidasına çevrilən amil olur.
16. Söz, kəlam cəmiyyətə, ictimai həyat hadisələrinə uyarlı olmalı, \onda\ baş verən hadisələri, prosesləri sintez şəklində ya təsdiqləməli, ya da rədd etməlidir, əks halda o, insanlara heç nə verməz.
17. Təbiət hadisələri ilə cəmiyyət hadisələri arasınıda həmişə bir müvafiqlik var. Mütəfəkkirin, filosofurn və sənətkarın vəzifəsi onları obrazlı şəkildə görüb, üzə çıxarmaq, bədii sənət əsərləri kimi əks etdirərək svilizasiyaya xidmət etməkdir.
18. Sənətkar fantaziyası çox şeyə qadirdir, az-çox fantaziyaya malik sənət adamları geoloqlar kimi, kosmos tədqiqatçıları kimi gərgin işlədikdə romantikadan reallığa keçid ərəfəsində olurlar.
19. Filosoflar bəzən ədəbi peyğəmbərlərə bənzəyirlər, onlar dünya problemlərini, təbiətin və cəmiyyətin sirlərinə vaqif olaraq insanlara çatdırmaqdan mənəvi zövq duyurlar.
20. Yaradıcı ziyalılar içərisində həqiqətə ən çox yaxın olan və ona daha çox can atan filosoflardır, onlar həqiqət nurunun billur, təbii işıqlarıdır.

21. Filosoflar ümumdünya fikir mədəniyyətinin memarlarıdır.
22. Fəlsəfəsiz bədii yaradıcılıq - arxitekturasız bina kimidir.
23. Bir dəfə bağda təbiətin gözəl \kontrastlı\ təzadlı bir mənzərəsini müşahidə etdim, - axşam çağı günəş batmaq üzrə idi, yüksək səmada böyük ağ bulud layları günəşin axşam şəfəqləri altında süd kimi ağarırdı, sanki hərəkətsiz idilər, lakin əslində bu nisbi hərəkətsizliklə çox mənalı görünürdülər və daim diqqətdə idilər. Aşağıda isə tüstü kimi küləyin qarşısına salıb qovduğu qara buludların pərakəndəliyi adi laqeyidlik yaradırdı. Fəlsəfi və müdrik sözlərin də mahiyyəti yüksək səmada ziyasını uzun zaman itirməyən ağ buludlara bənzəyir, pərakəndə buludlar isə məntiqsiz və ötəri danışıqları xatırladırdı.
24. Poeziya – çay axarı hərəkətdir, zümrüd suların xəfif şırıltısı altında, üzü aşağı kiçik qayıqla hərəkətdir. Fəlsəfə – çay yuxarı hərəkətdir, həm də sənin qayığında yükün var.Sənin üzü yuxarı üzməkdə böyük məqsədin var, bu daha böyük güc və səriştə tələb edir, burada sanki fiziki güc ilə intellektual güc vəhdət təşkil edir. Əks halda nə qədər etsək də qabağa bircə avar ağacı uzunluğunda getmək mümkün olmaz.
25. Fəlsəfə müdriklik elmidir və müdriklər üçün elmdir.
26. Filosof – bütün elmlərin mənəvi atasıdır.Şair bədii söz yaradıcılığının mənəvi atasıdır, hər ikisi idraki təkamülün tərbiyəçisidir.
27. Əxlaqa zidd və mənəviyyatsız müdriklik olmur.
28. Əsl poeziya fəlsəfi düşüncənin nəqarətıdır. Roeziyada fəlsəfə həmişə arxa planda olmalıdır.Fikir sözün gözəlliyi və ahəngi ilə bəzənməlidir.Lakin bəzən





şairlər əksinə cəhd edirlər və bu halda həm fəlsəfi fikrin təsiri azalır, həm də şeir oxucu rəğbəti qazana bilmir.
29. Dəvə daşıdığı maddi yükü ilə dəyərlidirsə, yaradıcı insanlar malik olduğu mənəvi yükü ilə dəyərli və ləyaqətlidirlər.
30. Arılar əsarəngsiz təbiətin hər tərəfini gəzib minlərlə gül, çiçəkdən böyük zəhmətlə topladıqları şirələri nəhayət bala çevirdikləri kimi, filosoflar da illərlə böyük intellektual zəhmət bahasına əldə etdikləri qənaətləri, həqiqətləri \təfəkkür süzgəcindən keçirərək\hikmətə çevirirlər ki, insanlar onlardan birbaşa və səmərəli faydalana bilsinlər.
31. Şair, yazıçı, filosof düşünəndə nə qədər çox bədii təhlildən istifadə edirsə, yazanda isə bir o qədər də çox ümumiləşdirmədən istifadə etməlidirlər, çünki gözəl əsər- qollu-budaqlı bir ağacdır.
32. Dəni arıtlayıb, xəlbirləyib, ən safları seçildiyi kimi, şair, yazıçı və filosoflar da həyat hadisələrini təfəkkürdən və təxəyyüldən keçirərək insanlar üçün nümunə və meyar ola biləcək ən faydalı cəhətləri götürməli, sənətləşdirməli, yəni onu bədii sənət səviyyəsinə yüksəldərək təqdim etməlidirlər.
33. Şair, yazıçı və filosof həyat hadisələrinə hakim prizmasından baxmalı, yazdıqlarının təsir dərəcəsini nəzərə alaraq doğru, dürüst və təsvirlərin reallığına görə cəmiyyət qarşısında məsuliyyət daşımalıdırlar
34. Filosof düşünərək həyat hadisələrinin elmi, bədii, publisistik panoramasını və idraki təhlilin son qənaətini verir.Filosof dünyanı və cəmiyyəti dərk etməyə səy edərək onun təbii qanunauyğunluqlarını öyrənir, təhlil edir və proseslərin məntiqi əsaslarını müəyyə.. edərək, səbəb və nəticələrin yekun mahiyyətini açıqlayır. Şair

qəlbi ilə həyatın düyğular aləminin karvanıdır, o, duyğularla zəngindir, o, bu zənginlik içərisindən daha emosional və daha poetik olanı bədii lövhələrlə stilistikanın bütün gücündən istifadə edərək göstərir, əks tərəfi özünə tərafdar etməyə səy edir, o, sözsərkərdəsidir, o, sözün qüdrətinə arxalanıb, ruhlar dünyasının gözəlliklərini – mənəvi aləmi bütün əlvanlığı ilə göstərir, yağışdan sonra göy qurşağının əsarəngsizliyi bizi valeh etdiyi kimi, şair də bizləri təbiətə və cəmiyyətə onun poetik dünyasından baxmağa inandırır, mənəvi dünyamızı təcəssümlər vasitəsi ilə, varlığın ro-
mantikası ilə ruhlandırır və tərbiyə edir. Su, yağış təbiəti daim təravətli saxladığı kimi, poeziya da bizim qəlbimizin kövrəkliyini, gəncliyini, emosionallığını, eşqin ruhi qidası kimi qoruyub saxlayır.

35. Poeziya zamanın tələbi, ictimai şəraitin mənəvi məhsuludur.Zamandan kənarda nə poeziya, nə də fəlsəfə ola bilməz.

Fəlsəfə intellektin ən yüksək inkişaf pilləsidir, poeziya billur bulaqdır, fəlsəfə ləngərli, dərin axan çaydır.Fəlsəfə bütün incəsənətin arxitekturasıdır, insan zəkasının intibah mərhələsidir, idrakın mütləqliyə keçid dövrüdür.Fəlsəfə və poeziya bir xalqın, bir millətin ictimai tarixidir.Hər hansı bir xalqdan gələn poeziyada həmən xalqın ruhunu, sevincini, kədərini, göz yaşlarını görmək mümkün deyilmi? Zamansız, zamanı özündə ehtiva etməyən poeziya hətta kiçik kometalar kimi yanıb, parlaya bilər, lakin onun yanması, parıldaması heç bir xüsusi mənaya malik olmayan qeyri-substionallıqdır, belə poeziya özünəvurğunluqdur, özündən razılıqdır, boşluqdur, ilk günəş şüasından əriyəcək duman qatıdır, heç bir mənəvi tələbatı ödəməyən ritorikadır.Şair xalqa məxsusdur, millidir.Millilikdən kənarda əsl mədəniyyət olmur.Uşağı ana doğan kimi, mədəniyyəti də konkret bir xalq yaradır.Əsl mədəniyyət, mədəni irs xalqın qanından gələn varislikdir.Xalqdan kənarda yaranan mədəniyyət, konkret xalq ruhuna uyğun gəlməyən sənət nümunəsi bic doğulan uşağa bənzəyir.Bütün milli mədəniyyətlər milli köklər üstə köklənməlidir.Yalnız bu zaman dünya mədəniyyətinin bir qolu, budağı olmaqla ora daxil olmaq olar, yəni ümumbəşəri svilizasiyada öz adınla, öz kodunla, öz ünvanınla qəbul edilə bilərsən.

36. Poeziya mənim qəlbimin güzgüsüdür. Mən hətta sevgilimə deyə bilmədiklərimi, dostuma söyləmədiklərimi poeziyanın şirin və parlaq dili ilə ifadə edirəm, poeziya ilə qəlbimin bütün coşqunluğunu qaynayan billur bulaq kimi insanlara ərmağan edi rəm, dünyanın – yerin və göyün mələklərinin salamına gedirəm, onlar isə mənim könlümün məlhəmi olurlar.

37. Şair və filosof dövrünün ədəbi, bədii, fəlsəfi düşüncələrinin və duyğularının əks-sədasıdır.

38. Filosof sözü – haqqın, həqiqətin və ədalətin rəmzidir, insan zəkasının və intellektinin mütləq kamilliyə yüksəlmə mərhələsidir və bütün intensiv intellektual fəaliyyətlərin hakimidir.

39. Zəlzələ, təbii olaraq, vaxtı keçmiş, nöqsanlı binaları uçurduğu kimi, filosof da təbii təfəkkürü ilə cəmiyyətin real yaşayış tərzinə, intellektual səviyyəsinə, svilizasiyanın normalarına və mahiyyətinə uyğun gəlməyən qeyri-real, mühafizəkar münasibətlərə qarşı haqq sözünü deyən müdrikdir,şair isə bunları içində çəkən,

içində yanan və nəhayət haqq sözünü məşəl edən vülkan kimidir.
40. Mənim idrakım və təfəkkürüm dünya sirlərinə vaqif olur, dünya gözəlliklərini dərk edərək qəlbimin hissi süzgəcindən keçirir və orada poeziya ilə fəlsəfənin sintezindən sənət yaradır.
41. Fəlsəfə mənim idrakımın, mənim təfəkkürümün güzgüsüdür, mənim qəbul etdiyim həqiqətlərin inikasıdır, mənim düşüncələrimin mahiyyətidir, poeziya təbiətin və cəmiyyətin poetik məqamlarıdır, təsəvvür və təəssüratların sözlə sənət səviyyəsinə yüksəldilməsidir.
42. Poeziyada mən ruhların və mələklərin səltənətindəyəmsə, fəlsəfədə onlar mənim sənətimin hüdudlarındadırlar.
43. Şairin düşüncələri – sanki təbiətin çiçəkləridir, o zərifliyin, incəliyin, ətirliyin, əsarəngsizliyin və ümumən gözəlliyin təcəssümü və poetikasıdır. Filosofun düşüncələri isə o çiçəklərin təbii yolla seçilib yetişmiş, barabəhərə çevrilmiş meyvələrinə bənzəyir, hansı ki, insanlar üçün uzun müddət faydalı və əhəmiyyətli olur.
44. Fəlsəfə - təfəkkürün nadir arxitekturasıdır, poeziya poetik gözəlliyin \və ya gözəlliyin poetik\ nadir arxitekturasıdır.
45. İncəsənət və poeziya bizim bəzən real həyatda lazımınca diqqət yetirmədiyimiz elə gözəllikləri duyaraq təsvir və tərənnüm edir ki, bəlkə də biz bunlarsız varlığın bu qədər gözəl olduğunu dərk edib, onun mahiyyətinə vaqif olub və bu qədər zənginliklə ruhi qida ala bilməzdik və nəhayət fəlsəfə anlayışına gəlib çıxa bilməzdik.





46. Poeziya da elm kimi intensiv axtarışların poetik bəhrəsidir, o da elm kimi özünəməxsus kəşfdir, hər ikisi təfəkkürün məqsədəyönlü fəaliyyətinin yekunudur, bir fərqlə ki, poeziya poetik olanı axtarır, hər şeydə gözəllik axtarır, incəlik və mənəvi impulslar arayır. Burada şair ruhunu səma elçisinə çevirir, ilhamını mələklərə döndərir, təxəyyülünü dünyanın yeddi qatına göndərir və öz sənət incisini yaradır. Elm isə idrakın dərin qatlarından – daşların kristallaşmış suxurlarından billur su kimi sızılıb – hasil olur, alimin tədqiqatlarının və mürəkkəb təhlillərinin nəticəsi kimi təzahür edir.
47. Şair sosial həyatın bədii ifadəçisidir, ondan yalnız nikbin şerilər tələb etmək, bədbinlikdə günahlandırmaq – təbiətdən ancaq günəşli günlər, havalar tələb etmək qədər mənasızdır.
48. Şair ictimai həyatın poetik təbiətidir, onun bədii xronologiyasıdır, onun duyğu və düşüncələrinin obrazlı tərənnümçüsüdür.
49. Filosoflar, şairlər və ümumiyyətlə yaradıcı şəxsiyyətlər təkcə özlərinə məxsus deyillər, onlar hətta nəinki təkcə bir dövlətin, bir cəmiyyətin, bir xalqındır, onların zəkasının nuru bəşəriyyətin hər yerində parlamalıdır.
50. Poeziya varlığın poetik və estetik olan tərəfinin inikasıdır, tərənnümüdür, mənəvi qida ilə insanları zənginləşdirmək və humanistləşdirmək vasitəsidir, fəlsəfə varlığın mahiyyətini açır və təfəkkür qanunlarına uyğun olaraq izah edir, müdrik olanı tədqiq və təsdiq edir.
51. Poeziya insan qəlbinin ,duyğularının sözlərlə, lakin pafosla ifadəsidir.
52. Poeziya düşüncəli və düşündürən olmalıdır.

53. Poeziya – sanki səhər danın poetikasıdır, o aydınlığı sevir, təbəssümü sevir, kövrəltməyi sevir, fəlsəfə isə hətta zülmət gecələrdə belə ulduzlarla həmsöhbət ola bilir, onun üçün qaranlıq yoxdur, o sirlər aləminin əbədi axtarışında olan səyyarədir.
54. Fəlsəfə – gözəl bir gəlindir, poeziya isə onu daha da cazibədar edən məxsusi bir libasdır.
55. Poeziya konkret varlığın təcəssümüdür, onun məna çalarlarının inikasıdır, tərənnüm olunan şeylərin bədii və estetik sinfoniyasıdır, fəlsəfə isə varlığın mahiyyət sinfoniyasıdır, konkret və qeyri konkret – mücərrəd olanların tədqiqi və təhlilini aparan təfəkkür tərzidir, onların məntiqi fazasına qədər nüfüz edən təfəkkür qanunları ilə idarəsidir.
56.Poeziya – görünən nizamlıqdır, və ya görünən nizamlıqların poetik əks-sədasıdır, fəlsəfə isə ilk baxışda nəzərlə görünməyən , yalnız təfəkkür qanunları ilə həmahəngliyin mürəkkəb proseslərin təbii və qeyri-təbii qanunauyğunluqlarının idraki – məntiqi interpretasiyasıdır.
57. Poeziya saflığın, billurluğun, duruluğun və şirinliyin poetik mahiyyətidir, fəlsəfə isə daima hərəkətdə olan həyatın axar və axmaz dərinliyini, sirli şeylər aləminin maddi durumunu maraqla təhlil edən, mahiyyətinə varan məntiqi nəticəsidir, təfəkkürün hərəkət və axtarış fazasının yekunudur.
58. Poeziya ideal, fəlsəfə isə mahiyyət axtarışındadır.
59. Poeziya poetik həyatın sinfoniyasıdır, estetik olanın harmoniyasıdır, fəlsəfə isə həyatın – cəmiyyətin geoloqudur, onun bütün təbəqələrinin vahid tədqiqatçısı və nəticələrin mahiyyətini hikmətlərlə ifadə edən elmdir.





60. Fəlsəfə – dövlətin, xalqın, millətin intellektual gerbidir, poeziya isə onların himnidir.
61. Poeziya bizim hislərimizin, duyğularımızın və düşüncələrimizin elə bir təbii seçilmiş hissələridir ki, o sağlam düşüncənin prizmasından keçərək emosionallıqla ürəkləri fəth edir.
62. Poeziya ritmik musiqinin sözlərlə ifadəsidir, fəlsəfə isə idrakın, təfəkkürün sözlərlə sinfoniyasıdır.
63. Poeziya hislərin, duyğuların, emosiyaların sözlərlə uverturasıdır.
64. Poeziya – qəlbin ritmə salınmış poetik fantaziiyasıdır.
65. Poeziya şair duyğularının bədii səlnaməsidir.
66. Fəlsəfə uca bir dağdır, poeziya isə onun gözəl təbiətidir.
67. Poeziya poetik faktın bədii tərənnümüdür.
68. Filosof sözü – praktik həyatın çox yaxşı nəzəri hissəsidir, o yeni reallıqların müjdəçisidir, poeziya ideal olanı görür və ya görmək istəyir və onu sənətin incə dilinə dilinə və xəzinəsinə çevirir.
69. Fəlsəfədə fikir, söz məbəd kimi ucalırsa, düşüncənin məntiqi monumentallığına çevrilirsə, poeziyada fikir, düşüncə daha incə emosionallıq, daha zərif və kövrək hislərin ifadəsi kimi həmən məbədin daxili bəzəyinə – rəmzinə, mənəviyyat cövhərinə və əvəzsiz xəzinəsinə çevrilir.
70. Fəlsəfə bir gülüstandır, poeziya onun ətirli gülləridir.
71. Fəlsəfədə poetiklik, bədii təfəkkür onun mənəvi siqlətinə, fikrin daha yaxşı qavranmasına xidmət edirsə, poeziyada fəlsəfəçilik müəyyən həddi keçməməlidir, hətta buna cəhd hiss olunmamalıdır, əks halda o incə

duyğuları, kövrəkliyi, emosionallığı və konkret poeziya nümunəsinə marağı azalda bilər.

72. Fəlsəfə sərt küləklər kimi hər şeyi – bütün itellektləri yerindən oynadırsa, mürgüdən oyandırırsa, poeziya incə və xəfif meh kimi hislərin həmahəngliyini nizamlayır, duyğuları maqnit kimi öz qütbünə çəkir.

73. Fəlsəfə və poeziya – bir maqnitin iki qütbüdür, onlar ilk baxışda əks tərəfə baxsalar da, əslində bir çevrənin ahəngindədirlər.

74. Poeziya və fəlsəfə intellektin əbədi qidasıdırlar, onun əbədi stimullarıdır.

75. Xalq qəmgin olduqda poeziya susur, çünki şair dərd üstünə dərd gətirməyi sevmir, xalq kədərində poetika yoxdur və o burada axtarıla bilməz. Qara buludlar, zülmət gecələr poeziyanın malı deyil, lakin qara buludları günəş saraldanda,ağardanda, zülmətin üzünə səhər danı güldükdə poeziya öz mahiyyətini görür, öz ruhi qidasını tapır, öz amalını, öz hikmətini və fəlsəfi anlamını müəyyənləşdirmiş olur.

76. Poeziya xalqın ruhudur, şair öz ilhamı ilə onu alovlandırır, onun işığını çıraqbana döndərir, onun ruhunu xalqın öz nəğməsinə çevirir, onun vüqarının əbədi nəqaratına dönür.

77. Poeziya xalq dastanlarının cövhəridir, onun damarlarının qanıdır, onun qollarıdır və burada o həm tarixə və həm də fəlsəfəyə çevrilir, onun sosial həyatını yüksək bədii dillə və sadə təfəkkürlə ifadə edir və bu dastanlarda xalqın düşüncələri, arzuları, niyyətləri, yaşadıqları real həyata münasibətləri həm poetik dillə, həm də fəlsəfi anlamla xalqın əbədiyaşar şifahi bədii sənətin incisinə dönür.





78. Poeziya konkret bir xalqın, bir millətin musiqisi ilə köklənir və əsil xalq poeziyası xalq musiqisinə tez yatmalıdır, onun səsinin və sədasının, ürək tellərinin inikasına çevrilməlidir, idrakının və təfəkkür tərzinin məntiqi nəticəsi olmalıdır.

79. Şair xalq carçısıdır, onun kövrək qəlbidir, yazan əlidir, danışan dilidir, duyğularının bədii səlnaməçidir. Nəğməli quşlarsız təbiət təsəvvür olunmadığı kimi, şairlərsiz də milləti, xalqı təsəvvür etmək olmaz və onlar qayğı ilə qorunub saxlanmalıdır.

80. Şair -cəmiyyətin ictimai-ekoloji və mədəni durumudur.

81. Poeziya və ümumiyyətlə incəsənət həmişəyaşıl ağaclar kimi daima insanların qəlbini oxşayır və onların mənəvi qida xəzinəsinə çevrilirlər.

82. Fəlsəfə təfəkkürün ləngərliyidir, coşqunluğudur, itiliyidir, məntiqi nəticəsidir, konkret düşüncələrin son qərarıdır, poeziya qəlbin coşqunluğudu, hislərin külək kimi qopmasıdır, axınıdır, kükrəyən kəhər kimi cilova yatmamasıdır, hər ikisi daxili-psixoji ani təkanın və ya təkanların törəməsidir, davamlı və dəyişən sonluğudur.

83. Cəmiyyət öz poetik rəngini poeziyada tapırsa, deməli, cəmiyyətdə müsbət tendensiyalar var, inkişaf və hərəkət var, mənəvi aləm var, onun təkamülü var, sənət var və nəhayət yaradıcı təfəkkür var, zəka işığı var.

84. Bütün sənət yaradıcıları içərisində şairlər şübhəsiz ki, liderdilər. Arılar təbiətdə olan bitki aləmini həssaslıqla gəzərək onlardakı ən dadlı şirələri damla-damla, qətrə-qətrə cəm edib, heç nə ilə əvəz edilə bilməyəcək ecazkar bal yaratdıqları kimi, əsil şairlər də təbiətdə və cəmiyyətdə olan ən incə, ən zərif poetik

4917

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

gözəllikləri xüsusi həssaslıq görərək və bu duyğuları yaşayaraq və şairanə mənalandıraraq əsil poeziya nümunəsi yaradırlar, hansı ki , uzun əsrlər boyu bəşəriyyətin mənəvi qida mənbəyinə və xəzinəsinə çevrilir.
85. Yaradıcılıq əbədi axtarışdır, - reallıqlarda poetikliyin axtarılmasıdır, şair təxəyyülünün və təsəvvürlərinin ədəbi-bədii fantaziyalara çevrilməsidir, təfəkkürdə bədii yükün cilalanıb, nizamlanıb ərsəyə gəlməsidir, \zühür etməsidir\.
86. Poeziya - tərənnüm sinfoniyasıdır, fəlsəfə hikmət, mahiyyət və dəyərlərin üverturasıdır.
87. Hər su içməli olmadığı kimi, hər arı bal verə bilmədiyi kimi, hər meyvə yeyiləsi olmadığı kimi, hər şeir də əsil poeziya nümunəsi, sənət əsəri sayıla bilməz. Lakin idmanla məşğul olmağın hər hansı səviyyəsi sağlamlığa fayda gətirdiyi kimi, əkinçiliklə hər hansı səviyyədə məşğul olmaq məhsul almağa zəmin yaratdığı kimi, musiqi ilə məşğul olmaq ən aşağısı mənəviyyatı zənginləşdirdiyi kimi, şeir yazmağın da bütün səviyyələri insanlara, xüsusən müəllifin özünə fayda gətirə bilir, ən azı ona görə ki, şeir yazmağa meyllilik poeziyaya, sənətə həvəs və məhəbbət yaradır, həmən insanlar mənəvi cəhətdən zənginləşirlər, mənəvi və estetik cəhətdən tərbiyələnirlər, onlar faktiki və təbii olaraq poeziyanın \öz qabiliyyətlərinə uyğun təbliğatçısı və təşviqatçısı olurlar, cəmiyyətin etik cəhətdən intellektual və mədəni insanlarına çevrilirlər, onları hər hansı şəkildə həvəsdən salma, güclərindən artıq ifrat tələbkarlıq əslində qeyri-səmimilikdir, cəmiyyətə qarşı çıxmaqdır, onun svil inkişafına zərbə vurmaqdır.





88. Şeir yazmaq - ilahi təbiətdən insanlara verilən fitri qabiliyyətdir, bu qabiliyyəti stimullaşdırmaq və qayğı ilə yönəltmək əvəzinə, onu məhdudlaşdırmaq, onun yaradıcılığına irad tutmaq, onu sındırmaq, böyük təfəkkürlərlə müqayisə edib gözdən salmaq ədəbi terrorizmdir, qabiliyyət azadlığını borğmağa olan səydir, heç bir tənqidə isə – istər professional, istərsə də qeyri professional – belə bir hüqüq və səlahiyyət verilməmişdir və təbii hüqüqi baxımdan da verilə bilməz.
89. Bütün istedadlar doğulan körpə kimidirlər, hətta nöqsanlı olsalar belə onlar cəmiyyətin üzvüdürlər və heç kəs onların təbii hüqüqunu əlindən almağa qadir deyil, bir şeir – yaxşı və ya pis bir qəlbin, bir ruhun səsidir, bu səsi boğmağa heç kimin səlahiyyəti ola bilməz.
90. İndiyə qədər bir çox istedadlar redaksiyalarda ədəbi məmurların ədəbi terrorizminə məruz qalmışlar, onlar soyuqqanlıqla rədd edilmişlər, ədəbi səfillərə çevrilmişlər, məmurların "qısqanclığı" onların öz qabiliyyətlərini inkişaf etdirməyə əngəl olmuşdur, ədəbi aləmin isə təbii seçimi minimuma enmiş və nəticədə az istedadsızların kreslolarda əyləşməsinə zəmin yaratmışdır.
91. Şeir – istedad ilə məhəbbətin ortaq mənəvi məhsuludur, bu məhsulun təbii qəbulu və seçimi cəmiyyətə məxsusdur.
92. İlk şeirlər – ilk bənövşələr kimidir, onları soyuq abihavadan – soyuq və laqeyd münasibətlərdən qoruyub ən səmimi və qədirbilən əllərə yetirmək lazımdır.
93. Təbiətdə əsasən iki növ ağaclar aləmi fərqləndirilir, - meşə ağacları və insanların daim qayğı və qulluq göstərib bəhər götürdükləri meyvə ağacları. Yaradıcı

insanlara da , o cümlədən şairlərə də belə qayğı - dövlət və vicdan normasına çevrilməli, onların istedadları layiqincə qiymətləndirilməlidir ki, cəmiyyətin mənəvi cəhətdən aparıcı qüvvələrinin potensialı daima qüvvətli və tükənməz olsun.

94. Yazıçı naturanın bədii obrazını,şair emosiyaların bədii obrazını yaradır, filosof reallıqların təfəkkürlə obrazlı mahiyyətini yaradır, hikmətini açır, onların hər üçü cəmiyyətdə – təbiətə can verən böyük axar çaylara bənzəyirlər..

95. Filosof düşündürür, yazıçı əyləndirir, şair emosiyaları vəcdə gətirir və hər üçü ruhları psixoloji müsbət enerji ilə zənginləşdirirlər.

96. Təbiət kövrələndə,buludlar dolanda torpağa yağış ərmağan edər, gülləri, çiçəkləri, yarpaqları rövnəqləndirər, - şair kövrələndə yrəyi dorlar, ruhu və ilhamı - mizrab dəymiş sarı simə dönər, dərdi, kədəri, qəmi - üstünə su səpilmiş süsüz torpaq kim canına çəkər, cövhərindəki nikbinliyini - təbib dərmanlarının qəbulunda istifadə olunan billur su kimi qəlbindəki poetik sətirləri poeziyanın bədii sənət dili ilə insanlara açar, onların qəlbini ovsunlayar, düşündürər, sevindirər...

97. Fəlsəfə idrakın və təfəkkürün poeziyasıdır.

98. Fəlsəfə düşüncənin, müdrikliyin poetikasıdır, poeziya isə poetik aləmin lirik təcəssümüdür.

99. Şair, yazıçı, filosof - işıq axtaran pərvanə odun başına dolanıb yandığı kimi, onlar da haqq, ədalət axtarışında olurlar, onun işığında görünməyə çalışırlar və hərdən bu işığa çatana qədər əriyib,axırlar.

100. Şair poetik varlıqdır, filosof təfəkkür, məntiq və mahiyyət elmi xəzinəsinə sahib olan varlıqdır.





101 Poeziya və fəlsəfə – mənəvi dünyanın günəşi və ayıdırlar, bütün intellektual dünya onların işığındadırlar.

102. Poeziya və fəlsəfə – düşüncə və işığın sintezində dünyaya açılan pəncərədir və bu pəncərədən biz dünyamızın – insanların intellektual səviyyəsini, onun təkamül yollarını görürük, onun zəngin musiqi sədalarını eşidirik.

# TƏBİƏT VƏ POEZİYA FƏLSƏFƏSİ

1. Mənim ruhum günəşin nurundandır, o sönsə mənim ruhum da sönə bilər.
2. Təbiət bütün ecazkar gözəlliklərin istesalçısıdır, yaradıcısıdır poeziya isə bu gözəlliklərin poetik duyumudur.təcəssümüdür.
3. Poeziya təbiətin insanlara bəxş etdiyi ilahi ruhun təntənəsidir, insan qəlbinin möcüzəsidir, musiqisidir təbiətin poetikasıdır, onu şairlər duyaraq tərənnüm və təcəssüm edirlər və könül süzgəcindən keçirərək poetik sətirlərə çevirirlər.
4. Poeziyasız qalmaq olar .lakin təbiətsiz yox. fəqət poeziyasız təbiət olmur.
5. Şairlər – təbiətin mənəvi bal arısıdırlar.
6. Poeziya – insanın təbiətdə gördüyü gözəllikdir mahiyyətdir.
7. Adətən ilanbalığı tutanlar yeddi-səkkiz tor atdıqda bir və ya iki balıq tuta bilirlər. Poeziyi yaradıcılığı da belədir, – şairlər də yazdıqları içərisində \müəyyən vaxt ərzində \ bir və ya iki uğurlu şeri ilə öyünə bilərlər.
8. Poeziya mənəviyyatın əbədi təcəssümüdür. Mənəviyyatı isə təbiətdən ayırmaq olmaz.
9. İnsan təbiətin ən mükəmməl möcüzəsidirsə, təbiət də insan üçün elə bir tükənməz maraqlı sirlər xəzinəsidir ki, İnsan onu fəth və tərənnüm etməkdən yorulmur. Bu fəthin və tərənnümün nəhayətsizliyi böyük və əzəmətli bir sviliza-siyanın təcəssümünə çevrilmişdir.
10.Tanrı mənə elə bir uğurlu bəxt qismət eləmişdir ki.mən hər səhər dənizdən doğan günəşin yüksəl-





məsinə. Gecələr ayın öz gümüş örpəyini dənizin xırçın sularının sət-hinə atmasının ecazkar səhnəsinə tamaşa edirəm və bu zaman bu ülvi gözəllik. bu poetik səhnələr mənim şair runumu mələklərin fövqünə qaldırır, mənim sönməz və coşqun ilhamımı poeziyanın kövrək not-larını səsləndirməyə çağırır.
11. Dəniz – səhər danının, qızıl üfüqlərin, günəşin üzünü ona söykəyən sevgili təbiətin, ayın, ulduzların ecazkar güzgüsüdür, mənim qəlbim yalnız bu inikasın poetik ifadəsidir, onu öz ruhuna, ilhamına və təfəkkürünə uyğun olaraq mənalandıran insanlara çatdırmaq üçün zamin edilmiş subyektdir.
12. Təbiət bütün gözəlliklərin əbədi və ecazkar yaradıcısıdır. arılar bu sonsuz və əsarəngsiz gözəlliklərdən qidalanaraq öz sehirli və əvəzsiz ballarını yaratdıqları kimi şairlər də bu gözəlliyin poetikasının əbədi axtarışında olurlar, onu duyurlar və poeziyanın emosinal və oynaq dili ilə bəşərin mənəvi qidasına çevirirlər, təfəkkürün mahiyyət axtarışının tənzimləyicisi prosesini təbii mənbə kimi məntiqi su-rətdə tamamlayırlar.
13. Poeziya təbiətin mənəvi simasıdır, onun mahiy-yətinin poetik ifadəsidir.
14. Təbiət çox mürəkkəb və zərif toxunuşlu gözəl xalıya bənzəyir, onun hər ilməsində bir sirr var, bir ma-hiyyət var.
15.Təbiət təkrarsız gözəlliyi ilə bizi ilhamlandırır,bizim ruhumuzu göylərə qaldırır, fantaziyamızı bulaq kimi qaynadır, sular kimi daşdırır, qəlbimizi şirin nəğmələrlə doldurur, sehirlənmiş sözləri ruhumuza yatırdır, özünün poetikliyi ilə təfəkkürümüzü cilalayır, sadə sözləri poeziyanın riqqətə gətirən sətirlərinə çevirir, sanki

könül pərdəsinin simlərinə toxunan duyğuları notlaşdırır, buna bax-mayaraq bizim təfəkkürümüzdə özünün mahiyyətini və mənasını özünün əks sədasına çevirən təbiətin yaratdığı real fantaziyaların yanında biz ruhumuzla və ilhamımızla və bədii təfəkkürümüzlə hələ də üstünlüyə nail ola bilməmişik.

16. Aşıq havaları sazda gözəl səsləndiyi kimi, kədər, sevinc və məhəbbət də poeziyada daha gözəl ifadəsini tapır.

17. Poeziya - metroitlər kimi uçub gələn, vülkan kimi püskürüb üzə çıxan yeraltı qaynar qurumlar kimi sönməz, həmişə odlu və təzə qalan günəşin bir parçasıdır.

18. Poeziya - təfəkkürdən qopub gələn düşüncələrin ürəkdə notlaşmış, cilalanmış, ürəyin odlu hərarətindən qızınıb, duyğuların hislərə parçalanmasıdır ki, ondan hərə öz payını, öz hissəsini, öz qəlbinə yatanını götürür, öz qəlbinin məlhəminə çevirir.

19. Poeziya - ocaqdan götürülmüş od kimidir, lakin o günəş şüaları kimi öz istisini öz işığını uzun zaman saxlayır, onu axtaranlara ulduz kimi parlayır, susuza su kimi, - kiçik oda həzin külək kimi - gümrahlıq, zənginlik və güc gətirir.

20. Poeziya - alov kimidir, o isidir, bəzən yandırır, ehtiras yaradır, ilhamlandırır, hərəkətə gətirir, insan ruhunu ucaldır, mənəvi qüvvə yaradır, fikri cilalayır, roetikləşdirir, musiqiləşdirir.

21. İnsan öz xarakteri ehtibarı ilə təbiətə çox yaxın və nəmahəngdir, biri digərini tamamlayır. Poeziya onlarda olan mənəvi hissəni və estetik olanı seçir və öz sətirlərində onu musiqiyə təhvil verir.





22. Poeziya təbiətin nəğmələridir,şair bəstəkar kimi onu duyur, mənalandırır, mahiyyətin əks sədasına çevirir.

23. Bütün sənətçilər və yaradıcı insanlar təbiətlə təmasda olur, hərə özünə lazım olanın axtarışındadır, şair də özünə məxsus estetik və poetik olanın axtarışındadır,bir sözlə hər bir yaradıcı bal arıları kimi özünün «təhnəsini» yaradır.

24. Şairin qəlbi duyğular dənizidir,onun düşüncələri fəal hərəkətdə olan okean gəmisinə bənzəyir,o bütün səmtlərə üzməyi bacarır, lakin o həmişə konkret bir sahilə yan almağa çalışır.

25. Güclü və istedadlı şair - güclü və dərin axan çaylara bənzəyir, ogüclü ilhamı ilə özünə məxsusluqdan daha çox bəşəridir, çünki o öz şeirləri ilə bəşəriyyətin nəğməsini oxuyur.

26.Təbiət insanın yaradıcısıdır, poeziya bu yaradıcının varlığına sitayişdir, onun məhdidir, yaradıcı insanlar ona nəğmələr qoşmaqdan yorulmurlar.

27.Təbiət insan zəkasının işığıdır, onun təfəkkürünün əsası, onun idrakının nizamlayıcısıdır. İnsan bu hikmətin mahiyyətini açmağa çalışır, onun həm fəlsəfəsini, həm də poeziyasını – əbədi nəğmələrini yaradır.

28. Uca səmalarda küləklər bulud alaylarını çaparaq, onları köhlən at kimi yorub, tər yağışları əmələ gətirib təbiətə ərmağan etdiyi kimi, mənim də duyğular selim təfəkkürümü və idrakımı qayğılandıraraq və ecazkar və əsarəngsiz təbiətdən qaynaqlanaraq ruhumda insanlar üçün poeziya buketləri, çələngləri yaradır.

29.Təbiətin əks-sədasına dönmüş duyğular qəlbimizdə müxtəlif musiqiçilərə bənzəyirlər,təfəkkürümüz dirijor

kimi bu duyğuları nizamlayaraq, müəyyən səmtə yönəldərək idarə edir və orkestrdən qopan gözəl musiqi sədası kimi – bizim qəlbimizdən axıb gələn sətirlər ağ vərəqlərdə poeziya «notların» çevrilirlər.

30. Axar sular öz məcrasında durulub axdıqca gözəl və daha çox faydalı olduğu kimi, duyğular da bizim ruhumuzda səlisləşib çıxdıqda o poeziya nümunəsi ola bilir.

31. Poeziya ürəkləri isidən və işıqlandıran od parçasıdır.

32. Biz ən gözəl əsərlərimizi təbiətə oxşatmağa çalışırıq, o isə öz mükəmməlliyi ilə həmişə bizi utandırır.

33.Mən dənizdə üzən gəmiyəm, çaylarda hərəkətdə olan qayığam, mənim düşüncələrim isə mənim mayaklarımdır.

34. Poeziya – hislərin, duyğuların, emosiyaların mahiyyətidir.

35. Şair zirvələrdən boylanan tərlana bənzəyir, lakin tərlan ovundan fərqli olaraq şair poetik gözəllik axtarışındadır, təbiətin yaratdığı qeyri adi yaranışların varlıqların, estetik möcüzələrin ovsunlayıcı panoramını seyr edərək hissiyatı duyğularının lirasını təfəkküründə canlandırır və idrakının gücüylə günəş şüaları kimi, - müəmmalı duman qatını - boz örpəyi qaldırır və bu poetik reallığı sözün qüdrətinə təhvil verir, duyğuların təcəssümüylə zənginləşdirərək poeziyanın məhsuluna çevirir.

36. Poetika təbiətin arxitekturasıdır, poeziya isə şairlərin arxitekturasıdır.

37. Rəsamlıq və poeziya yaradıcı şəxsiyyətin qoşa gözüdür, hər ikisi yüksək təfəkkürdə təşəkkül taparaq təbiətdə poetik olanın bədii obrazını canlandırmağa cəhd edirlər,onun fəlsəfi mahiyyətini açmağa çalışırlar





və bununla da mənəviyyatın zənginləşməsində və svilizasiyanın tarixi və əbədi inkişafında əvəzsiz rola malik olurlar.

38. Poeziya – təbiətin təbii təravətinin,ətrinin sözlərə çevrilməsidir.

39. Poeziya – təbiətin sözlərlə ahəngidir, təbiətin səsinin sözlərlə ifadəsidir.

40. Poeziya – şairin duyğularının, hislərinin təbiətlə həmahəngliyidir.

41. Poeziya – təbiətin əks-sədasıdır.

42. Poeziya – təbiətin sözlərlə, duyğularla emosional rəsmidir.

43. Şair drijor kimi öz poeziyası ilə təbiətin sinfoniyasını bütün reallığı və romantizmi ilə səsləndirməyə çalışır.

44. Şair öz duyğuları və ilhamı ilə təbiətin ağuşundadır, onun ayrılmaz hissəsidir, lakin o, onun gözəlliyini daha gözəl və daha kamil vəsv və tərənnüm etmək üçün daima onun zirvələrinə can atır.

45. Şair təbiətin təbii səyyahıdır, onun sanki ayrılmaz, əbədi cazibəsində olan səyyarəsidir..

46. Şair təbiətin kompasıdır, öz poeziyası ilə onun gözəllik qütbünün əbədi və təbii göstəricisidir.

47. Poeziya təbii olaraq təbiət gözəlliklərinin meyarıdır.

48. Poeziya təbiətin əbədi məhəbbət dastanıdır.

49. Poeziya təbiətin bəstəsi, onun lirik nəğmələridir.

50. Şair təbiətin danışan dilidir.

51. Şair təbiətdən duyğulanır, təbiətdən qaynaqlanır,onun bütün ritmini poeziyada sintezləşdirir, sənətləşdirir və nəhayət insanilәşdirir.

52. Təbiət hər səhər təzələşdikcə şairin də duyğuları, hissləri, emosiyaları təzələnir, təravətlənir və onun poeziyası təbiət gözəlliklərinin simvoluna çevrilir.
53. Şairlər cəmiyyətin təbiət üzərində mələkləridir.
54. Biz adətən bir neçə dəfə gördüyümüz şeylərə köhnə deyirik,lakin bütün ömrümüz boyu ay və günəş qaynayan bulaq kimi bizim üçün hər gün təzədir və poeziya bu bulaqdan daima su içir.
55. Torpaq ana kimi həmişə adamın vüqarını ucaldır, poeziya isə bu vüqarın himninə çevrilir.
56. Torpaq təbiətin özəyi, kainatın bəzəyi, insanın ürəyidir, poeziya isə onu duyğulandıran, rəmzləşdirən, ruh kimi ayrılmaz olan söz çələngidir.
57. Mart səhər erkən qapıdaduran gözətçi tək gözlərini ovuşdura-ovuşdura öz məhrəmanə addımlarıyla yaşıl təbiətin qapılarını insanların üzünə açır,onların təbəssümünə çevrilir, poeziya isə çoxdan gözlədiyi bu musiqi aləmini öz notlarına çevirir.
58. Göy otların göyərtisi gözlərimi sehirləyir,
Gözəlliyi, doğan günəş, yer üzünə möhürləyir.
59. Biz təbiətin yaratdığı məchulluqdan məlum həddə, qeyri-müəyyənlikdən müəyyənliyə, konkretliyə can atırıq, lakin başlanğıcı olanbu ümumi təkamülün –bu yaradıcılığın, bu poetik auranın sonu görünməzdir.
60. Təbiət bizi yaradır,bizə böyük mənəvivə poetik xəzinə bəxş edir və onun böyük təkamülünü vəd edir,biz isə təbiəti öz içərimizdə hissə-hissə əridirik,onu öz dar mənafeyimizin qurbanına çeviririk,təbiət isə nəhayət bundan hirslənə bilər.
61. Adama elə gəlir ki,Xəzər Günəşin ən böyük arzusudur, o əvvəlcə onun yanan və gümüş üzlü sularında yuyunur,sonra böyük təbəssümlə onu





nurlandırmağa və oxşamağa, dalğalarının ona can atan həyacanlı qanadlarına məhrəm olmağa göylərə yüksəlir və şairlərin hisslərini və duyğularını riqqətə gətirir.
62. Təbiət elə bil ki, günəşi insanlara, cəmiyyətə qısqanır, o gah səhər dumanıyla, gah da qara buludlarıyla günəşi insanlardan gizlətmək istəyir, günəş isə insanlara sevgisini gizlətməyərək, inadkarlıqla öz əsarəngsiz və təkrarsız gözəlliyi ilə insanların tamaşasına çıxmaq istəyir.
63. Dan yerində qızıl örpəyə bürünən buludlarla təbiət özünün varlığını gözəl gəlinə bənzədərək, sanki daha gözəl və cazibədar görünməyə çalışır və şairləri onu vəsv etməyə ruhlandırır.
64. Bircə gözəl beyt poeziyanın, bircə qönçə çiçək də böyük təbiətin nişanəsi və varlığıdır.
65.Hətta bir çiçəyin görnüşü də baharın gəlişindən və xoş təravətindən xəbər verir.
66. Təbiətin gözəlliyi onun baharında,cəmiyyətin gözəlliyi onun sülh və onun əmin-amanlığının harmoniyasında, poeziyanın gözəlliyi isə bu harmoniyanı doğru, dürüst və bədii şəkildə əks etdirməsindədir.
67. Təbiət gözlərini yumanda gecə, gözlərini açanda gündüz olur,günəş onun üzüdür, hərarəti, közüdür, poeziya isə onun tərənnümü, bədii güzgüsü və sözüdür.
68. İnsan mənəviyyatının ilkin tərbiyəçisi əsarəngsiz təbiətdir, poeziya isə onun təkamülü və zənginləşdirilməsidir.
69. Təbiət istedadın ilk obyektidir,çünki təbiətə vurğunluq istedadın ilk əlamətidir.
70. Həinki təbiətin, həm də bütün maddi nemətlərin əsası olan torpaq göz bəbəyi kimi qorunmalı, poeziya

və böyük sənət əsəri kimi nəsildən-nəsilə layiqli miras kimi təhvil verilməlidir.

71. Təbiət özü poetik fəlsəfədir, lakin bu fəlsəfəni sevərək öyrənmək lazımdır.

72. Yaxşı və qaydasında əsən küləklər həmişə mənim xoşuma gəlir, o ağacları silkələyir, xarab olmuş meyvələri qoparır atır, saralmış yarpaqları vurub salır, təzə qönçələr güllənir, çoxdan açılmış güllərin ləçəkləri küləklərin «qənimətinə» çevrilir, küçələr təbii olaraq zir-zibildən təmizlənir, havalar hər cür qoxudan azad olur,bütün təbiətə sanki yeninəfəs verilir. Bax mən də tənqidçi istəyirəm – qərəzsiz və səmimi olsun, yaradıcı şəkildə və səriştə ilə ədəbi və sosial aləmi duyaraq, onların sintezində bədiyyatı təhlil edib işıqlandırsın.

73. Dağların və torpağın qatlarından süzülüb gələn qaynar və isti bulaqlar axaraq təbiətin gözəllik və qida mənbəyinə çevrildiyi kimi, insanlar da cəmiyyətə qədəm basdığı zaman-dan öz intellektual qabiliyyətləri və təbii istedadları ilə maddi və mənəvi sərvətlərin yaradıcısı və təkamülçüsü olmuşlar.

74. Təbiətin azad və lətif qoynunda tapılan sakitlik, hislərimizi çox incəliklə və həzinliklə uyutması onun poetik görnüşündə ruhumuzun dinclik tapması, - hər hansı bir təbibin edə biləcəyi müalicədən daha faydalı və daha əhəmiyyətlidir.

75. Təbiət nəinki təkcə istehlak edilməli,həm də bağlar, bağçalar, meşəliklər, parklar, su fəvvarələri və hövzələri yaratmaqla onu istehsal və təkrar istehsal etmək lazımır, onun poetik hüsnünü, gəlintək təbii gözəlliyini qoruyub saxlamaq və ən qiymətli sərvət kimi gələcək nəsillərə miras qoymaq lazımdır.





76. Uçan quşlar müvəqqəti olaraq öz məkanlarını dəyişir, bir çox torpaqlardan və səmalardan keçərək o məkanların abi-havasını və təbiətini duyurlar, axar sular da bir çox dövlətlərin torpaqlarını yuyur, təbiətini zənginləşdirir və özləri də zənginləşirlər, eləcə də şairlərin xəyalları quşların qanadlarında pərvazlanır, sözlərinin ahəngi və düzümü suların billur saflığında poetikləşir və yenidən şairin ilhamının kövrək pərdələrini səsləndirirlər, bu sintezlərdən kamilləşmiş və dolmuş duyğular insanlara valehedici şirin nəğmələr ərmağan edirlər.

# ƏDƏBİ TƏNQİD FƏLSƏFƏSİ

1. Tənqidçilər - havanı qaraldan qara buludlar kimidir, közün üzünü tutan kül kimidir,toz qaldıran toğanağı andırır, gurlayan buludlar kimi leysan gətirər, sel yaradar, lakin bütün bunların xeyirdən çox ziyanını görərsən, lakin yaxşı, səmimi tənqidçi – normal və mülayim yağan yağış təbiəti rövnəqləndirib, gülləri, çiçəkləri parladıb havanı təmizlədiyi kimi, onun da kamil təfəkkürü ilə yazılmış obyektiv rəyində şairin, yazıçının və ümumən yaradıcının poetikası açılmalı və xüsusi vurğulanmalı, onun cilalanmasına və kamilləşməsinə xidmət edən qeydləri oxucular ilə yazarlar arasında ən əvəzsiz, ehtibarlı və mötəbər körpü olmalıdır.

2. Tənqidçi məsuliyyəti şair və yazıçı məsuliyyətindən daha yüksəkdə durmalıdır. Şair və yazıçı emosionaldır, hissiyatlıdır, axar sular kimi təbiidir, bal arıları kimi gözəlliyin cövhərini axtarandır, toplayandır, mənəviyyat xəzinəsi yaradandır və bu mənəvi şirinliyi ruh kimi - insanlara əvəzsiz bəxş edəndir. Tənqidçi isə hakimdir, soyuqqanlıdır, müəyən normalar müəyyən edib, istiqamətləndirəndir, subyektivdir, reallıqdan daha çox naturalistdir, səthi təhlilçidir, lakin heç bir halda təbiiliyin, özünəməxsusluğun qarşısında əngəl olmamalıdır, hər şeyi təbii axarında görməyi bacarmalı, öz mənəvi borcunu vicdanı qarşısında necə yerinə yetirməsi haqda özünə hesabat verməlidir. O, hər an bilməlidir ki, kobud vurulan mizrab simi qırdığı kimi, onun qeyri-obyektivliyi, formalizmi, məntiqsizliyi şairin, yazıçının yaradıcı ruhunu qıra bilər və beləliklə əvəzsiz itkiyə səbəb ola bilər.

3. Əsil tənqid – şəxsiyyətin şəxsiyyət haqqında analitik mülahizəsidir.

4. Yaxşı \səriştəli\ tənqid təhlildir, ədəbi süzgəcdir, ədəbi əxlaqla sənətə xidmətdir, ədəbi məhsuldur, səriştəsiz, qeyri səmimi və qayğısız tənqid çürük meyvə kimi qəbuledilməzdir.

5. Yalnız şəxsiyyətsizlər – qeyri-ciddi sənət adamları tənqidi təhqirə çevirə bilərlər.

6. Yaxşı tənqid – əslidə elmi araşdırmadır, mahiyyətə təfəkkürlə, məntiqlə yanaşmadır.

7. Bütün yaradıcı insanlar tənqidə və təqdirə layiqdirlər.

8. Heç bir tənqidçi nə hakim, nə də məşqçi rolunda ola bilməzlər, lakin onların ən vicdanlısını, ən səmimi olanını qismən bağbana bənzətmək olar, çünki hər bir yaradıcı, hər bir meyvə ağacı öz barını, öz məhsulunu verir, lakin hər ikisi eynilə diqqət və qayğı gördükdə daha məhsuldar və daha dəyərli ola bilirlər.

9. Tənqidçinin üstdən aşağı baxması şərt deyil, onun öz intellekti, təfəkkürü və məntiqi ilə səriştəlilik zirvəsində durması nəinki vacibdir, həm də həm də zəruridir.

10. Tənqidçi ədəbi drijor deyil, o solo oxuyan da deyil, lakin o, ədəbi proseslərdə mövqeləri müəyyənləşdirməkdə əhəmiyyətli rol oynaya bilər.

11. Tənqid ədəbi-bədii tarixdir.

12. Qərəzli tənqid – ədəbi terrordur, ondan vaxtında yaxa qurtarmaq lazımdır.

13. Tənqidçi o vaxt təqdirə layiqdir ki, o heç bir yaradıcının fərdiliyinə müdaxilə etmədən, ümumi gözlə onlara baxa bilir, məhəbbət və qayğı ilə əsəri təhlil və

təqdir edir, nöqsan hesab etdiklərini müdrikliklə, səriştə ilə özünəməxsus yaradıcılıqla təqdim edir.
14. Müdrik və ləyaqətli tənqidçi yaxşı həkimdən daha yüksəkdə durur, çünki həkimlər yalnız xəstələrlə məşğuldursa, tənqidçi yaxşıları bəyan edərək təqdir edir, nöqsanlardan,- «xəstəliklərdən» qaçmağın yolunu göstərməyə daha çox ciddi cəhd edir.
15. Hər bir yaradıcı insan zərif duyğuları, incə və kövrək hissləri ilə simli musiqi alətinə bənzəyir, səriştəsiz və diqqətsiz yanaşdıqda o simlər qırıla bildiyi kimi, tənqidçilər də ehtiyatsızlıq və qayğısızlıq göstərdikdə xeyirdən çox ziyan verə bilərlər.
16. Tənqidin və tənqidçinin vəzifəsi – günəş ilk şöləsiylə zirvələrdə qarı daha parlaq etdiyi kimi – yaxşını, istedadı daha da nəzərə çapdırmaqdır, ondakı mühüm yaradıcılıq qabiliyyətini qabartmaqdır, oxucuların diqqətini daha mühüm cəhətlərə yönəltməkdir, olan közərtini – işartını xəfif meh kimi oda -közə çevirməkdir, yoxsa qara bulud kimi selə dönüb söndürmək deyil, işartının üstünə bir az da kül töküb küllətmək deyil.
17. Tənqid yalnız svilizasiyanın fövqündə durduqda faydalı ola bilər.
18. Tənqid ədəbi-bədii əsərlərin ədəbi-bədii publisist səlnaməsinə dönməlidir.
19. Ədəbi tənqid – bədii əsərlərin geologiyasıdır.
20. Bədii əsərlər sosial həyatın fəlsəfəsidir, cəmiyyətin təfəkkür tərzinin bədii inikasıdır, insan fəaliyyətinin romantikasının realist tərənnümüdür, insanın intellektual mahiyyətinin sənətləşdirilməsidir, svilizasiyanın mahiyyətinin böyük insanda görüntüsüdür, tənqidin isə vəzifəsi bu auranın zamana və məkana





görə nə dərəcədə uğurlu olmasını publisistcəsinə açıqlamaqdır, yaxşı nə varsa təqdir etməkdir.
21.Yazıçı, yaradıcı bədii zirvə subyektləridir və heç bir zirvə etalon sayıla bilməz, məhz bu səbəbdən zirvələrin başlarının hökmən buludlara dəyməsini tələb etmək absurddur.
22. Tənqid – təhlil etdiyi bədii əsərin - dağ başında buludlar kimi – zirvəsində durmağı bacarmalıdır, ətəklərdə görünən duman zirvələri fəth edə bilməz.
23.Tənqid fəth deyil, o yalnız məlum fəthin ədəbi izahıdır.
24. Belinskinın tənqidi – tənqidi poeziyadır, realist romantikadır, tənqidi sənətə məhəbbətdir, Niqara şəlaləsi tək əzəmətli və səsi uzaqdan eşidiləndir, Ermitaj qədər zəngin və mənəvi xəzinədir, tənqidi meyardır, obrazlardır, tərənnümdür, təxəyyüldür, təfəkkürdür, məntiqdir, ədəbi-tənqidin ülkəridir, ədəbi-tənqid poeziyasıdır, tənqidin poeziyasıdır, o, bütün əsrlər və əsərlər üçün örnəkdir, ondan həmişə öyrənmək olar və öyrənilməlidir.
25. Tənqid –bəzən az istedadlı adamların çox istedadlı adamlapa paxıllıq hissləridir.
26. Tənqid həvəsinə düşən adamların bəziləri yazıçı və şairlə rə həsədlə baxan qeyri-səmimi, bəsit təfəkkürə malik həvəskarlardır.
27. O tənqidçilər öz işində ləyaqətli ola bilər ki, onlar mütəfəkkirlik qabiliyyətinə malikdirlər.
28. Tənqid ədəbi analitikadır.
29. Tənqid təhqirə keçdikdə səfehləşir.
30.Tənqidə elmi, bədii, fəlsəfi təfəkkür tərzi səviyyəsindən yanaşmadan yaradıcı insanla..n qarşı-

sına çıxmaq Don Kixotluqdur və usandırıcılıqdan başqa bir şey deyildir.
31.Əgər belə demək mümkünsə yaradıcı şəxsiyyətlər tanrının insanlar arasında mələkləridir,səviyyəsiz, qeyri -səmimi olmayan, yaradıcılıq dünyasına və dühasına mənsub olmayan tənqidçilər iblislər qədər zəhlətökəndirlər.
32.Yazıçılıq, yaradıcılıq – öz yatağını, öz axarını müəyyənləşdirmiş axar çaylar kimidir, hətta tənqid sel olub onu daşdırsa da, onu özündən çıxarsa belə, bu müvəqqətilik onu əbədi və əzəli məcrasını dəyişməyə sövq edə bilməz.
33. Çaylar öz axarı boyunca gözəl təbiət mənzərələri yaratdığı kimi yazıçılar, şairlər və bütün yaradıcı dühalar özlərinə məxsus mənəvi cənginliklər, təzə fikirlər, düşüncələr xəzinəsi qoyub gedirlər, tənqidçilər isə yalnız suyu bulandırmağa meyilli olurlar ki, özlərinin mövcudluqlarını biruzə verə bilsinlər.
34. Tənqidçi ədəbi məmurdur, ondan səmimiyyət gözləmək sadəlövlükdür.
35. Tənqidçi təbii olaraq ögey ana kimidir, ona doğma olmayana məhəbbət göstərməyə qadir deyil.
36. Ən böyük tənqidçi xalqdır,onun sevgisini qazanan yazıçı böyük döyüşdən qələbə ilə çıxan sərkərdə kimidir.
37. Yaradıcı insanlar xalqın təbii inciləridir, tanrının xəlq etdiyi təbii istedadlarıdırlar,onların qəlbində xalqına məhəbbət onların istedadlarına bərabər əbədi və sönməzdir.
38. Səriştəsiz və qeyri-səmimi tənqid varlığa öz mövcudluğu-nümayiş etdirən ünsürdür.





39. Tənqid ədəbi-bədii yaradıcılığın bir parçası olmalıdır, o tədqiqatçıdan yüksəkdə durmalı, yaradıcılıq pafosu ilə çıxış etməlidir.
40.Tənqid araşdırdığı əsərdə mütərəqqiliyi və ya mühafizəkarlığı axtarmaqdan daha çox bədiliyi və estetik təcəssümləri görməyi və duymağı bacarmalıdır və əslində tənqidin mahiyyətində bu ən başlıcası və zərurisidir.
41. Tənqidçidə həkim soyuqqanlığı vacibdir, səriştəlilik şərtdir, lakin güclü təfəkkür tərzi ilə səmimi ürək olduqca zəruridir.
42.Yazıçı, şair yüksək dağ zirvəsidirsə və eyni zamanda öz bəyaz qarı ilə maraqla diqqəti cəlb edirsə, tənqid onun döşlərində qərar tutan müvəqqəti duman qatıdır.
43. Gözəl bədii əsər – monumental bir abidəyə bənzəyir, tən-qidçi isə öz zövqünə uyğun daha ideal bir şey axtarır.
44. Yazıçının, şairin yaradıcılığı kükrəyən axan bir çaya bənzəyir, tənqidçi isə bəzən o çayın əhəmiyyətindən və mahiyyətindən daha çox onun üzərində axan kötüklərə və köpüklərə diqqət yetirir.
45. Tənqidçi – oxucu ilə yazıçı arasında dialoqur, ədəbi körpüdür.
46. Səriştəli və müdrik tənqidçi ədəbi-bədii ekspertdir.
47. Tənqidçi müfəttiş deyil, dayə də deyil, hakim də deyil, o daha çox ədəbi-bədii geoloqdur.
48. Əsil tənqidçi çətir tutmalıdır, çətir altına girməli deyil.
49. Hər hansı şair, yazıçı, rəssam və digər yaradıcılar hər hansı tənqidçidən fitri istedadına görə yüksəkdədir, lakin tənqidçi nəzəri cəhətdən tədqiqatçı alim kimi yüksəkdə durmağı bacarmalıdır, o, böyük qayğı ilə təhlil

edərək,müqayisə apararaq, faktiki materialları – əsərləri bədii və poetik məziyyətlərini hakim kimi görüb, duyub qiymətləndirməli, hər hansı bir əsərin mahiyyətlərini böyük təfəkkürlə bədiyyatla izah etməyə səy göstərməlidir.

50. İnsanlar üçün ağaclar içərisində ən faydalısı meyvə ağacları olduğu kimi, eynilə onlar üçün ən əhəmiyyətli əsər onların sosial həyatına yardımçı olan, mənəvi aləmini zənginləşdirən və ruhunu yüksəldə biləcək, tənqidin dəyərləndirə biləcəyi sənət nümunələridir.

51. İndini duymayan əsər kor ktmi azar və gələcəkdə kölgədə qala bilər.

52. Hər hansı bir tənqid inkişafın stimuludur.

53.Tənqidçi bəzən həkimə bənzəyir, necə həkim adətən xəstələrə yanaşdığı kimi, tənqidçilər də adətən nöqsanlı əsərlərə meylli olurlar, lakin həkimdən fərqli olaraq tənqidçilər yaxşıları, yaxşı cəhətləri, təzəlikləri daha tez görüb, onlardan vaxtında faydalanmağı kütləyə səriştə ilə, konkret sitatlarla sübut etməklə, əsil mahiyyəti açıqlamaqla nüfüz sahibi ola bilərlər.

54. Gözəl səriştəli, nəzəri cəhətdən yüksək təfəkkürlü tənqidçi – ifa zamanı müsiqiçilərin diqqət mərkəzində olan drijoru xatırlatmalıdır, yəni ədəbi prosesin gözü onda olmalıdır.

55.Yaxşı səriştəli tənqidçi ədəbi prosesin sarvanına bənzəməlidir.

56. Nüfuzlu tənqidçi müəyyən yaradıcılıq istedadına malik olmalıdır, çünki yaradıcının psixaksını, onun zəngin aləmini duymadan, yaşamadan, səmimi deyimə malik olmadan nə yaradıcını, nə də geniş oxucu aidotoriyasını inandırmaq, həmən əsəri mütaliyəyə meyilləndirmək olmaz.





57. Pis tənqidçi xırda istedadı məhv edə bilər, bu isə ən azı gözəl oxuculardan birinə zərbədir, ədəbi-bədii əsərləri təşviq edən bir ziyalının azalmasıdır, bu isə ən azı tənqidçi üçün böyük qəbahətdir.

58. İstedadsız və səriştəsiz tənqiddənsə oxucu qeydidaha faydalıdır.

59.Yaradıcı iş prosesində yalnız əsəri haqqında düşündüyü kimi, tənqidçi də tənqid etməyi qarşısına məqsəd qoymamalıdır, o əsəri tənlil etməyə, yazıçının öz məqsədinə nə dərəcədə nail olduğunu açıqlamağa səmimi dillə çatdırmağa çalışmalıdır.

60. Adətən zəif əsərlər tənqid olunur,yaxşı əsərlər təhlil və təqdir olunur, bu aksiomadan kənara çıxmaq lazımdır və hər bir yaradıcıya onun konkret olaraq nədə zəif və niyə zəif və nöqsanlı olmasına qayğı ilə səy edilməlidir və bu zaman tənqidçi öz missiyasını yerinə yetirmiş olar.

## AXAR SULAR FƏLSƏFƏSİ

Çağdaş dövrümüzün bədii fəlsəfi publisistikasına ən yaxşı nümunə hesab edilə biləcək «Qurumuş çayın yatağı» əsərinin müəllifi – böyük oxucu və yaradıcı ziyalılarının məşəlinə dönmüş, ədəbi tribunasına çevrilmiş, onların ruhi qidasına stimul yaratmış, onların yaradıcı təbiətinin münbit təbii şəraiti olmuş, «qurumuş çayın yatağı«nı qurumağa qoymayan, onun əbədi bulaqlarına çevrilərək onun ahəngdar axarını bərpa etməyə çalışan yazıçı-publisist, tənqidçi, «Kredo» qəzetinin baş redaktoru Əli Rza Xələfliyə məxsusi şərəf duyğusuyla

MÜƏLLİF

1. Kiçik sular yığılıb çay əmələ gətirdiyi kimi,kiçik fikirlərdən və arzulardan da faydalı işlər, gözəl və böyük əməllər yaranır.
2. Mənim düşüncələrim axar çaydır, o bəzən sakit, bəzən də sürətlə axır. Mən hərdən əyilib ondan bir ovuc içirəm və susuzluğumu söndürürəm, lakin o coşqun gələndə mən ondan götürüb güllər bitirirəm, ağaclar sulayıb, faydalı və bəhərli meyvə bağımı saxlayıram.
3. Təbii çaylar öz mənbəyini dağlardan – dağ sularından aldığı kimi, mənim də düşüncələrimin mənbəyi cəmiyyətdir, sosial həyatdır.





Cəmiyyət nə qədər sabit və kamildirsə, mənim də düşüncələrimin məhsulu saf və təmiz, aydın və səlis, ruh oxşayan və zövq verən olur.
4. Bir gilə sevinc yaşı sellənən qəm yaşlarından və sularından nə qədər qiymətlidir.
5. Quruyan çaylar kiçik bir bulaq suyunun axarına həsrətdirlər, nə yaxşı hərdən yağan şıdırğı yağışlar onun daşlarını yuyur, dodağının çatlarını yumuşaldır.
6. O qədər axar su axtarmışam ki, indi tapdığım bir içimlik suyu da məmnuniyuətlə qəbul edirəm.
7. Axar su hərəkətdir, əkinçiyə bərəkətdir, gülçüyə təravətdir, balıqçıya sərvətdir, sevgi dolu gülüstanlı təbiətdir.
8. Coşqun axan sular dağların daşlarını rəqsə dəvət edir, yorulanı coşqun dalğalar oyundan çıxarır,özü isə təbiətin yorulmaz nəğməkarı və daşlar üzərində mahir rəqqas kimi əbədi hərəkətdədir.
9. Axar sular əbədi bəstəkardır, mən isə öz səsimə uyğun nəğmələrimi seçməyə çalışıram.
10. Mən dağın yüksəkliyinə qalxdıqca o daha sürətlə axırdı, onun sürətindən mənim dəyirmanım daha sərrast və daha sabit işləyirdi.
11. Mənim idrakımın genişliyi və vüsəti - coşqun axar sulara öz məcrası dar gəldiyi kimi – öz axarlığına sığışmırdı, mən Fərhad kimi əlimdə külüng onun axarının qabağını genişləndirməyə çalışmışam, mən buna qismən nail olmuşam, indi isə bu axarı daha faydalı məcraya yönəltməyə daima zərurət duyuram, bu axarda batmaq təhlükəsi olsa da mən üzməyi də öyrənmişəm.

12. Mən onun axarının nəğməsi ilə yatıram,onun axarının nəğməsi ilə oyanıram, çünki mən onun qoynunda əbədi səyahət qayığıyam.
13. Mən ondan hərdən kənarlaşanda susuz qalmış balıq kimi məhv olmaq dərəcəsinə gəlirəm.
14. Bütün nəğmələrin ahəngini axar sularda tapmaq olar, sadəcə olaraq bunun üçün güclü musiqi duyumu zəruridir.
15. Sular təbiətin əbədi həmahəngidirlər, onlar təbiətin narahat- çılığına narahatçılıqla, çılğınlıqla cavab verirlər, onunla sevinir, onunla qəmlənirlər.
16. Sular təbiətin billur təravətidir.
17. Bulaqlar torpağın saflığı, şirinliyi və bərəkətli olması haqda öz gözəl nəğmələrini oxumaqdan yorulmurlar.
18.aylar – sevgili təbiətin – torpağı sevərək qucaqlayan şümşad qollarıdırlar.
19.Sakit axan sularda da burulğan olur.
20. Sən qəlbinlə – mənəvi zənginliyinlə - əsarəngsiz vadidə bir çox kiçik çayları özündə birləşdirən şirin sulu, gözəl təbiətli bir gölə bənzəyirsən, fəqət gölün qədirsizliyi və ekoloji baxımsızlığı məni məyus edir.
21. Təbii axar sular canlı təbiətin əzəli və əbədi yaradıcısı olduğu kimi, - hisslər, duyğular, təəssüratlar da insanın mənəvi zən- ginliklər aləminin yaradıcısı və memarıdırlar.
22. Axar sular təbiətin səyyahı kimi yorulub , dənizdə dincəlirlər.
23. Axar çayların suları təkrarsızdır.
24. Bulaqlar - qönçə kimi torpaq üstə açılan billur güllərdir.





25. Axar sular öz nəğmələrinin həm bəstəkarı, həm də ən mahir ifaçılarıdır.
26. Dənizdə billurlaşan axar çaylar təbiətin boynunda yenidən mirvariyə dönürlər.
27.Çaylardan qayıqla üzüb gedirəm, bütün ağaclar sanki mənə əl edir,yarpaqlarının dodağıyla mənə nəğmələrini pıçıldayırlar, mən də ürəyimdə öz nəğmə-mlə onlara qoşuluram.
28. Axar çaylar iz saxlamaz.
29. Axar sular sirr saxlamaz.
30. Sahildə dayanıb axar sularla düşüncələrimi bölüşürəm,fikirlərimi söyləyirəm, sular pıçıldayır ki, fikirlərini hərəkətdə söylə.
31. Axar sular mənim düşüncələrim kimi intəhasızdırlar.
32. Dağlar torpağın həyat rəmzidir, analar öz müqəddəs südü ilə balalarını qidalandırdığı kimi, dağlardan ayrılan sular da təbiəti qidalandırır, onun kövrəkliyini və məsumluğunu xüsüsi qayğı ilə qoru-yub saxlayırlar.
33. Mənim mütləq ruhum gözəllikdirsə, - təbii gözəlliyin, təbiətin mütləq rühü axar sulardır.
34. Axar sular! Siz mənim fikrimi alıb aparırsınız, mənim düşün-cələrim sizin üstünüzə sərilən zərif ipək kimi duman qatlarına bənzəyir,onlar sizin həzin, zərif, təkrarsız nəğmələrinizdən qida alırlar,zənginləşirlər və sizin kimi təkrarsız olurlar.
35. Dəyişməyən, axarla bağlı olmayan sular faydalı canlı orqanizm saxlaya bilmədiyi kimi, dəyişməyən, yeniləşməyən, daima inkişafda olmayan fikirlər də heç zaman zəruri faydanı gətirə bilməz.

36. Axar sular! İnsanların qəlbindən keçin,onların qəlbindəki kini, kudurəti,xəbisliyi, eqoizmi, təkəbbürlüyü yuyub aparın, onların qəlbindəki bu «çöküntüləri» öz selinizlə, iti hərəkətinizlə qoparın,onları öz sularınızda çalxalayın, qoy onlar da duralsın, saflaşsın və sizin kimi billurlaşsın, başqalaşsın.
37. Axar sular həyat rəmzidir.Əbəs yerə deyil ki, insanlar daima axar suların sahillərinə cəmləşmişlər, sulara pənah gətirmişlər, sular onların həyatında həyata dönmüşdür, - varlığı özlərinin sevinci, yoxluğu, azlığı qəlblərinin kədəri olmuşdur, insanlar od ilə su arasında – günəş ilə təbiət arasında öz mahiyyətini tapmışlar, mövcudluqdan əsil mənada varlığa çevrilmişlər. Axar sular bütün canlıların anasıdır, qoy heç kim anasız qalmasın!
38. Sakit, şəffaf və billur kimi axan sular səmimi, məsum pıçıltıyla danışan məhəbbəti xatırladır.
39. Ayna kimi aydın görünən, günəş şüalarından gümüş kimi parlayan sular - sakitcə daşlara toxunub keçdikcə sənin güllərə toxunan əllərin xəyalımda canlanır.
40. Bəzən leysan yağışlarından yaranıb gələn sel sularının gətirdiyi fəlakətlər və ruhi sarsıntılar – insanların sosial fəryadları ilə bir nöqtədə kəsişdikdə - səmada dolmuş qara buludların toqquşmasından yaranan şimşəklər kimi sanki bəşəriyyətə qarşı atılan, onların rifahına qarşı yönəlmiş ekoloji silah işlədilmişdir, lakin təbii ki bu üzüntülər bütün insanlar üçün sonsuz ola bilməz.
41. Mən hələ də inana bilmirəm ki,insanların qəlbində xəbislik, istedad və qabiliyyət qısqanclığı – çirkli, axmas sular kimi yığılıb qalır, üfunət verir, düşünürəm ki, onların qəlbindəki kor xisləti, məhdud təbiəti onları





mənəvi məhvə sürükləyir, öz xudpəsəndlikləri ilə varlığın əlavəsinə, cəmiyyətin tüfeyli ünsürlərinə çevrilirlər.
42. Aman allah! Bəşəriyyətdə canavar ehtirası, öz burulğanlarında boğmaq və məhv etmək ehtirası nə qədər güclüdür.
43. Gözəl və zəhmətkeş, mənəvi cəhətdən daima kamilləşməyə səy edən insanlar - axar sular kimi durula-durula hərəkət edir, zənginləşə-zənginləşə, idrakı və təfəkkürü yaradıcı təkamüldə ola-ola, bənzərsiz, bioloji varlıqlardan müqayisə olunmaz dərəcədə yüksəkdə duraraq, mükəmməl , svil və intellektual cəmiyyətin yaradıcısına, varlığına və həyatına çevrilmişlər.
44. Axar sular! Təbiətin əbədi nəğməsi, tükənməz nəfəsi, mənim düşüncələrimin billur qəfəsi!
45. Axar sular, günəşin doğması və ülvi məhəbbət! Bunlar həmişə, hər gün, hər an təzədir və təkrarsızdır!
46. Bütün qarşılanmaların və alqışların ruhunda bağışlanmalar durur, necə günəş təbiət və insanlar tərəfindən qarşılanır və alqışranır, o isə onlara həyat bəxş edir, sular təbii olaraq haralarda yolu gözlənilirsə, qarşılanırsa və alqışlanırsa orada sular gülüstanlar və təbii gözəlliklər yaradır, insanlara təmiz hava, güclü ruh, qüdrət, ilham və min bir nemət bəxş edir.
47. Bəzən sakit suların qəzəbi axan suların qəzəbindən dəhşətli olur.
48. Axar sular! Siz mənə həmişə həsəd apara bilərsiniz, çünki sizin əbədi sahiliniz var və adətən bu çərçivədən kənara çıxmırsınız, mənim isə düşüncələrimin heç zaman sahili olmur.

49. Mən öz düşüncələrimlə axar suların – həzin nəğməli çayların axarındayam və görürəm ki, bütün sahil boyu quşlar bu nəğməyə nəğməylə cavab verirlər, bu sular hər addımda canlı təbiət tərəfindən müşayət olunur, ağaclar və budaqlar sulara əyilməklə bu müqəddəsliyə təzim edirlər.
50. Sürətlə axıb gedən sular sanki yorulmuş kimi, nəhayət dənizdə dinclik və ikinci həyat tapırlar.





## YARADICILIĞIN FƏLSƏƏSİ

1. Yaradıcılıq məhsulları – fəaliyyətin intellektual qaymaqlarıdır.
2. Yaradıcılıq - intellektual fəaliyyətin nəticəsi və mahiyyətidir.
3. Mən yaradıram, mənim qiymətimi isə məni anlayanlar qiymətləndirəcəklər.
4. Yaradıcı insanlar üçün vaxt ərimәkdə olan büz parçasıdır, ondan vaxtında istifadə etmək lazımdır, o çevrilə bilməyən qum saatıdır, o axıb tökülənə qədər konkret və müəyyəniş jörülməlidir, onun itkisi əvəzolunmazdır, çünki vaxt təkrarolunmazdır, onun azacıq itkisi böyük təəsüf doğurur və bizi daima qayğılandırır.
5. Yaradıcı insanlar üçün vaxt borc alınmış kapitala bənzəyir, onlar zaman qarşısında, bəşəriyyət qarşısında hesabat verirlər, ona görə böyük fədakarlıqla yaratdıqlarının məmnunluğundan daha çox görə bilmədiklərindən, tam məqsədə çatmadıqlarından daha çox təəssüflənirlər.
6. Yaradıcı insanlar istəsə də, istəməsə də zamanın yüklə dolu sürət qatarının bir hissəsidir, lakin əsas məsələ və mahiyyət bundadır ki, bu yük nədən ibarətdir.
7. Külək əsdikcə təbiətdə çoxlu sayda müxtəlif səslər yaradır, eləcə də zaman ötdükcə öz keşməkeşi ilə insan duyğularını və emosiyalarını fəallaşdırır, bizim isə vəzifəmiz onları təfəkkürlə və məntiqlə musiqi əsəri kimi nota salmaqdır, sənədləşdirməkdir, istiqamətləndirməkdir, mahiyyətləşdirməkdir və svilizasiyanın bədii təfəkkür xəzinəsinə təhvil verməkdir.

8. Meyvə dəydikcə /yetişdikcə/ faydalı və qiymətli olduğu kimi, insan da, - xüsusən yaradıcı adamlar – kamilləşdikcə vaxtın nə qərəcədə qiymətli olduğunu daha çox anlayır və özünü – döyüşə hazırlaşan əsgər kimi – daha çox səfərbər edir.

9. Dənizdə əsən külək yelkənli gəmini əyərək sürətini necə azaldırsa, eləcə də yaradıcı insanların məişət problemləri onları əyir, daha gözəl əsərlər yaratmağa onlara süni buxov olur.

10. İtirilən vaxt – alınan və qazanılan vaxtdan daha qiymətlidir.

11. Zaman və vaxt bizə verilir ki, nəsə alınsın.

12. Zaman, vaxt külək kimidir, yığılan dəni küləkdən necə qoruyursansa, zamanın gərdişindən də gərək öz gərəkliyinə görə özünü qorüyub saxlayasan.

13.Yaradıcı və düşünən kəslər əkinçilər kimi olmalıdırlar, onlar gərək zamanın hər anından son dərəcədə səmərəli yararlansınlar.

14.Yaradıcı insanlar üçün zaman çox məhdud, adi insanlar üçün isə son dərəcədə intəhasızdır.

15. Zaman adi halda anlayışdır, mücərrəddir, lakin ondan məqsədəuyğun və fəal yararlandıqda o adi anlayışdan zəngin məzmuna keçir və konkretləşir.

16. İnsan qəlbində yaradıcılıq eşqi, yaradıcılıq odu yerdən çıxan təbii bulağa bənzəyir, əgər həmən sular məqsədəuyğun istiqamətləndirilsə, ondan bəhrələnərək gözəl meyvə bağları və gülşənlər salmaq olar, eləcə də ürəkdəki yaradıcılıq eşqini odunu düzgün səmtləşdirdikdə, zəhmətə qatlaşdıqda böyük yaradıcılıq uğurları qazanmaq və odu məşələ çevirmək olur.





17. Yaradıcılıq intellektual stresin üzə çıxardığı görüntülərdir.

18. Bizim əsərlərimizə baxırlar, qiymətləndirirlər, lakin açıqca min bir bəhanə ilə nəşr etməkdən boyun qaçırırlar, sanki bizim ölmümüzü gözləyirlər ki, əsərlərimizə» dahiyanə yazılmış əsərlər», özümüzə isə «dahi» desinlər.

19. Bizim qəsrimizi bəyənməyənlər özlərinin tikdikləri sədə tikintiləri məbəd kimi qələmə verirlər.

20. Uslub yaradılmır, yaranır, yaradıcılıqda təbii gəlməyən, yaranmayan uslub – kökü olmayan ağac kimidir, onu əksən də o bitməyəcəkdir.

21.Yemədən yaşamaq mümkün olmadığı kimi, yaradıcı insanlar üçün də mütaliəsiz – mənəvi qidasız ötüşə bilməzlər.

22. Boşalan qəlbimin və istehsal edən zəkamın məhsullarının etiketi – düşüncələrimdir.

23. Əgər mənim ürəyim mənim sözlərimə baxsaydı, mən heç nəyə diqqət yetirməzdim.

## MƏDƏNİYYƏTİN, İNCƏSƏNƏTİN VƏ ÜMUMİYYƏTLƏ SVİLİZASİYANIN FƏLSƏFƏSİ

1. Svilizasiya – bəşər övladının ən müsbət keyfiyyətlərinin, onun istedadının, elmi-texniki-bədii yaradıcılığının elə bir təcəssümüdür ki, bu növbəti və daha yüksək inkişafın dialektik bazasına çevrilərək, təkamül və bəzən hətta inqilabi yolla istedad və xüsusi qabiliyyətlərin daha sürətlə, bəzən həndəsi silsilə ilə açılmasıdır.

2. İnsan öz vicdanı qarşısında – sanki ruhu və müqəddəs hakim qarşısında duraraq – hesabat verməlidir ki, o, svilizasiyaya nə verə bilmişdir,və onun bu cəhdləri nə qədər səmimi olmuşdur.

3. Svilizasiya – dəyərlər məcmusu olmaqla,bəşər zəkasının ən yüksək nəticəsi, istedadın və dahiliyin zəngin və kamil inciləridir. Mənəvi cəhətdən zəngin olmadan, onun uğrunda böyük zəhmət və səmimiyyətlə çalışmadan ora heç bir nümunəvi sənət nailiyyəti bəxş etmək olmaz.

4. Biz svilizasiyanın yenidövrünü, yeni epoxasını yaşayırıq və bu dövr hələ özünün hətta qismən belə öz bədii əksini və fəlsəfi anlamını tapmamış, təfəkkürün yeni pilləsinin analitie təhlili və zəkanın atom sonsuzluğu paraleli verilməmişdir, çünki həyatın özü kimi svilizasiyanın da nəhayəti ola bilməz.

5. Mədəniyyət – mənəviyyatın yetirməsidir.

6. Hərbi qələbə qurbansız mümkün olmadığı kimi, tərəqqiyə dəm maddi qurbansız yetişmək olmaz.





7. Hər bir yaradıcı ziyalı xalqın və dövlətin qızıl ehtiyatı kimi kapitaldır, kapital isə həmişə qayğı və nəzarət tələb edir.

8. Hər bir hökmdarın adilliyi və xalqa məxsusluğu – elm və yaradıcı adamlara münasibətlərlə ölçülə bilər.

9. Yaradıcılara, yüksək ziyalılara qayğı – dövlətçilik atributudur, onlara qayğısızlıq - özbaşnalığın, məmur xəbisliyinin və düşmənçiliyinin əsil təzahürüdür, mədəniyyətə qarşı yönələn qara tüstülərdir, bu sahəyə nəzarət edən məmur işığının iblis parıltısıdır.

10. Azərbaycan xalqının mənəviyyatının zənginləşməsində, ədəbibədii təfəkkürünün inkişafında əvəzsiz rol oynamış , 1300 ildən artıq tarixə malik «Dədə Qorqud» dastanı – eposu ilə haqlı olaraq mənim xalqımın fəxr etməyə ona görə təbii haqqı və hüququ vardır ki, o mənim xalqımın, mənim millətimin həyatından qopub gəlmişdir, bu dastan Azərbaycan xalqının zəngin maddi –mədəni-mənəvi irsidir, onun qəhramanlıq və yaradıcılıq potensialının sintezi kimi tükənməz qüvvəyə, ecazkar poetik təfəkkürə malik olmasını aydın göstərən, heç zaman dəyərini itirməyən bəşəri, ədəbi-bədii mədəniyyət incisidir.

11. «Dədə Qorqud» dastanı Azərbaycan xalqının - həm də qüdrətli və qüvvətli böyük bir xalqın və mədəni svil bir millətin təşəkkül etmiş, dövlət kimi formalaşmış olmasını sübut və nümayiş etdirən tarix salnaməsidir.

12. Mədəniyyət – xalq ruhunun obrazlı ifadəsidir.

13. İnsanıvn həyata, yaradıcılığa, quruculuğa tənqidi baxışı olmasaydı svilizasiya çox sönük görünərdi.

14. Dünyagörüşü – mədəniyyətinin əsası olmaq ehtibarı ilə rnun konkret zaman ərzində əxz etdiyi biliklərin ümumi məcmusunun təəssüratlarıdır.

15. Mədəniyyətin müəyən bir qolu müəyyən bir dövr kəsiyində deqeredasiyaya uğraya bilər, necə dil mədəniyyətin köklü bir növü kimi sıxışdırıla bilər, hətta məhv edilə bilər və ya məhv olma səviyyəsində ola bilər, - məsələn, latın dili kimi.Buna siyasi və hərbi müdaxilələr də təsir edə bilər, necə ki fransızların bəzi Avropa ölkələrinə və Böyük Britaniyanın Hindistana təsiri kimi. Burada bəzən milli mədəniyyətlər toqquşur, təbii olaraq güclü tərəf qalib gəlirvə ya mübarizədə məğlub kimi jeri çəkilir və hətta biri-birinin təcrübəsindən, mədəni irsindən hərbi qənimət kimi faydalana bilirlər, bütünlüedə isə mədəniyyət məhv edilməzdir, hətta xalq məha edilə bilər, mədəniyyətin isə izləri və kökləri uzun əsrlərin və minilliklərin əbədi səlnaməsində öz tarixi hüququnu yaşayır və yaşadır.
16.Yaradıcı əmək – mədəniyyətin təkamül prosesidir.
17. Mədəniyyət – bəşər cəmiyyətinin intellektual səviyyəsinin zaman və məkan çərçivəsində irsi sintezindən doğan yaradıcılıq məhsullarıdır.
18. Fərdi azad düşüncə tərzi və yaradıcılıq şəraiti – böyük mədəniyyətlərin rüşeymləri və mənbələridir.
19.Svil cəmiyyətin mahiyyəti onun harmoniyasındadır, bu harmoniyanın mahiyyəti isə cəmiyyətdə yaranan əmin-amanlıqdır.
20. Hər cür ləyaqət fitri istedadın xassəsidir, svilizasiya isə bütün ləyaqətlərin məcmusudur.
21. Uşaq ailə tərbiyəsinin ilk nəticəsi və bəhrəsi olduğu kimi, azad vətəndaş cəmiyyəti də svilizasiyanın son nəticəsi və bəhrəsidir.
22. Mərhəmətlilik – mənəviyyatın və əxlaqi mədəniyyətin yüksəkliyidir.





23. Mərhəmət - əxlaqi və mənəvi mədəniyyətdir, mərhəmət olmayan yerdə mədəniyyətdən danışmaq – söyüddən bar haqda söhbət kimidir.
24. Mədəniyyəti yalnız xüsusi istedadlı adamlar yaradırlar, onları barlı-bəhərli meyvə ağaclarına bənzətmək olsaydı, onların çiçək lərini gözəl mədəniyyətə oxşatmaq olardı. Bu ağac nə qədər münbit şəraitdə qulluq görüb bar gətirirsə, xüsusi istedadlı adamlar da əlverişli şəraitdə və əlverişli məqamlarda daha yüksək mədəniyyət və incəsənət nümunəsi yaradırlar.
25. Musiqi istedadın təntənəsidir, hisslərin tərcümanıdır və bu istedad nə qədər güclü olursa, bu təntənə bir oqədər yüksəkliklə, özəlliklə könülləri riqqətə gətirir.
26. Böyük düşündürücü musiqi – böyük və güclü məhəbbətin ən parlaq ən təsirli sinfoniyasıdır.
27. Böyük musiqi – böyük istedadın qabiliyyət marşıdır.
28. Gözəl və əhatəli dünyagörüşü əsill fərdi mədəniyyətdir və o istedadın təzahürüdür, onu inkişaf etdirmək - kamilliyin yüksək zirvəsinə üğürla can atmaqdır.
29. Əgər svilizasiyanı qollu, budaqlı həmişəyaşıl böyük bir ağaca bənzətmək mümkün olsaydı, heç şübhəsiz Azərbaycan mədəniyyəti - öz ədəbi-bədii və mənəvi irsi ilə, incəsənəti ilə böyük cəsarətlə bu ağacın sanballı və davamlı budaqlarından biri ola bilər.
30. Milli mədəniyyətlərin yaranmasını, eynilə, böyük fiziki və intensiv əmək tələb edən yüksək dəyərə malik qızıl hasilatına bənzətmək olar, lakin, yüksək istedadla yanaşı intellektual və intensiv əmək tələb edən mədəniyyətin yaranması, təşəkkülü və formalaşması böyük analitik zəkanın geniş və qeyri-məhdud

qabiliyyətə malik idrakın məntiqi nəticəsidir, həyatın bədii, obrazlarla ifadəsidir.
31. Mədəniyyət idrakın - yüksək istedadla mənviyyatın sintezdə intibahıdır.
32. İnsan nə yaradırsa öz həyatı və rifahı naminə düşünüb əldə edir, və təbii ki, həmin yaratdıqları içərisindən ən yaxşıları, ən əhəmiyyətlisi - xalqın təbii seçim yolu ilə - mədəniyyət nümunəsi kimi, zəruri irs kimi nəsildən-nəsilə ötürülür və həmən təbii intellektual seçmələr dövrümüzə gəlib çatmış svilizasiyanın zəngin xəzinəsinin ayrılmaz hissəsini təşkil edir.
33. Mədəniyyət xalq zəkasının intellektuallığının, onun ruhunun və mənəviyyat zənginliyinin təzahürüdür.
34. Svilizasiyaya mənsub olan bütün mədəni xəzinələrdən texniki tərəqqini nəinki ayırmaq olmaz, hətta onun üstünlüklərini qeyd etmək daha zəruridir, çünki məhz onun inkişafı insanların əsil mahiyətini – onların zəkasının və idrakının kamillləşməyə doğru intensiv sürətini dəqiqləşdirdi və müəyyənləşdirdi, atomun kəşfi isə elmi-texniki tərəqqinin həm nəticəsi idi, həm də elmi-texniki inqilabın səbəbi oldu.
35. Mədəniyyət – svilizasiyanın möhür daşıdır, emblemidir, onun mahiyyətidir, mənəviyyatla yoğrulan svilizasiya xeyirxahlığa, haqqa-ədalətə açılan pəncərədir.
36. Mənəvi zənginliyə malik olmadan – svilizasiya aləmində kor kimi hərəkət etməkdir, qaranlıqda nabələd yolçu kimi getməkdir, sevgisiz ailə qurmaqdır.





## ƏDALƏT VƏ HÜQÜQ FƏLSƏFƏSİ

1. Haqsızlıq və hüquqsuzluq milli çərçivədən çıxxıb beynəlmiləşəndə xalqın qəzəbi seldən əmələ gələn daşqına bənzəyir,o qarşısına çıxan bütün yaxşı və pisinə varsa parçalayıb dağıdır.
2. 20 Yanvar hadisəsi \1990\ Azərbaycan ziyalılarının düşüncə tərzində əsil inqilab, idraki baxımdan uğurlu təkamül, siyasi və iqtisadi müstəqillik istiqamətində hüquni özünüdərkin ilk rüşeymi oldu.
3. 20 Yanvar faciəsi \1990\ Azərbaycan xalqına bizə müdrik müəllim, öz ömrünü başa vurmuş imperiya qanunlarının və hüquqlarının son süqutu oldu.
4. Xalqı təbii olaraq siyasətdən ayrı salmaq olmaz, çünki həm baş qanun – Konstitusiya- və bütün qanunların yerinə yetirilməsinə yeganə zəmanəiçi olan prezident məhz xalq tərəfindən seçilir və təsdiqlənir.Digər halda az məlumatlı xalqı qanunları, onun tələblərini yerinə yetirməyə sövq etmək tiranlıq kimi görünə bilər.
5. Bütün mübahisələrin çoxu ədalətsizliyə don geydirmək üçün edilən cəhdlərdir.
6. Ədalət – sübüta ehtiyacı olmayan aksiomadır.
7. Bizim bədbəxtliyimiz ondadır ki,biz öz həqiqətimizi özgənin qənaətində axtarırıq.
8. Qanunları hakimiyyətə uyğunlaşdırmaq - buz bağlamış çayın üstü ilə hərəkətə bərabərdir, çayın bu zu gec-tez əriməlidir, qanunlara söykənən hakimiyyət isə çayın axarı ilə üzən sərbəst və təhlükəsiz gəmiyə bənzəyir.

9. Ağaclar öz köklərinə görə davamlı olduqları kimi, hər hansı bir ölkədə də qayda-qanun yaranması və möhkəmlənməsi iqtisadi inkişafla müşayət olunur və ona tam müvafiq olur.
10. Adətən xalqa məxsus olan hüqüqlar çox ümumi və deklarativ şəkildə bəyan edilirsə,qanun yaradıcılarının və onların qrupuna məxsus olan hüquqlar toxunulmaz və qəti müəyyən olunur, bu isə qanun yaradıcılığında silkliyin və sinfiliyin yaranmasına səbəb olur,bu isə hüqüqda yol verilməzdir.
11. Qayda-qanun çox zaman qeyri-leqal sərvətləri imkansız zümrədən qorumaq məqsədi güdür.
12. Əsil azadlıq – qanunları müəyyən edir, qanunlar azadlığı müəyyən etmir.
13. Əsil demokratik qanunlar – azadlığın nəqəratıdırlar.
14. Qanun qanunsuzluqdan qorunmaq üçündür, qanunsuzluğun isə mənbəyi ehtiyac və səfalətdir.
15.Qanunların işləmədiyi bir məmləkətin vətəndaşlarının əsəbləri barıt çəlləyi kimidir, ən kiçik qığılcımdan partlaya bilər.
16. Diqqət yetirilməyən əkini alaq basdığı kimi, qanunlara məhəl qoyulmayan bir dövlətdə də cinayət və səfalət hər müsbət sosial qaydaları üstələyəcəkdir.
17. Qanunlar məhz sosial məsələləri ehtiva etdikdə əxlaqi normaya çevrilə bilər.
18. Gözəl əxlaq – gözəl, kamil və ədalətli qanunların yetirməsidir.
19 .Bol su olmadan bol bəhər götürmək mümkün olmadığı kimi, ədalətli, svilizasiyaya müvafiq olmayan işlək qanunlar olmadan sürətli iqtisadi inkişafa nail olmaq müşkül məsələdir.





20. Ailə gözəl və səmimi düşünülmüş tərbiyə ilə nizamlandığı kimi, iqtisadiyyat da, cəmiyyətin sosial həyatı da ədalətli və svil qanunlarla nizamlanmalıdır.
21. Vətənə vicdanla və ləyaqətlə xidmət etməyənlər,ədalətə və qanunlara söykənməyənlər, özgə hüqüqlarına qəsd edənlər vicdan oğrularıdır, onları ağacın çürük meyvələri kimi vaxtında və tez qoparıb atmaq lazımdır.
22. Vətəndaşlıq hissi yüksək ləyaqət və ədalət sahiblərinə mənsubdur.
23. Yaşadığın,çörəyini yediyin və suyunu içdiyin torpağı və xalqı sevməmək mənəvi tüfeylilikdir, mənəvi, fiziki və əxlaqi ədalətsizlikdir.
24. Yaşadığın torpağın məsuliyyətini daşımayanı, onu düşmənlərdən qorumayanı təbii ki,xalq və qanun bağışlamaz və sevməz.
25. İşdə birlik,sözdə birlik, amalda birlik – azəri türkünün şüarı və məqsəd yönəmi olmalıdır və yalnız bu halda biz kövrək müstəqilliyimizi polad kimi müstəqilliklə əvəz edə bilərik, bütövlüyümüzü müdhiş düşmənlərin dişlərindən və caynaqlarından qorumağa qadir ola bilərik,ədalətli cəmiyətimizi və danılmaz təbii hüquqlarımızı beynəlxalq hüququn atributlarına çevirə bilərik.
26. Hüquqi qanunlar cəmiyyətin real inkişafına müvafiq olmadıqda – fırtınaya düşmüş gəminin kapitanının səsi qədər az eşidilən və gösiərişlərinin yerinə yetirilməsi qədər müşkül məsələ ola bilər.
27. Mükəmməl olmayan qanunlar – qeyri-kamil drijora bənzəyir.

28. Hüquq ideologiya deyil,qanun ideologiyadır, lakin hər hansı hüquq hər hansı bir sinfin və ya rəsmi zümrənin marağı nəzərə alınaraq şəhr edil dikdə hüquq ideologiyaya aid ola bilir.
29. Qanunun inkişafı hüquqi azadlığa qatı duman qatı kimi kölgə salmamalı və ona buxov olmamalıdır.
30. Vətəndaşlar qanunların sözlərinin xoş avazına deyil, mahiyyətinə valeh olmalıdırlar.
31. İdeal olmayan cəmiyyətdə ideal qanunlar gülünc görünür.
32. Qanunlar cəmiyyət üzərində hakim aristokrat yox, onun xidmətində duran səriştəli bələdçi olmalıdırlar.
33. İnsanların təbii dərmanlara \xalq təbabətinə\ ehtiyacı olduğu kimi onların həyatı ilə həmahəng olan və yaşayış tərzini nizamlayan qanun və fərmanlara da ehtiyacı var .
34. Qanun – elə bir demokratik ictimai tərbiyəçi olmalıdır ki, ona ehtiraz etməyə əsas olmasın.
35. Meyvələr yetişib dərildikdə faydalı, qızıl xəlitələrdən təmizləndikdə qiymətli, ədalət isə sirli qapılar açaraq həqiqət işığında əhəmiyyətlidir.
36. Cəza – qanunların ictimai məhsuludur, tərbiyəvi çhçmiyyətə malikdir,lakin metodoloji baxımdan tərbiyənin ən aşağı nöqtəsidir.
37. Cəza ədaləti bərpa etmir, insanlara ədalət prinsipini aşılamaq nöqteyi-nəzərindən nadan və səriştəsiz tərbiyəçi metodudur.
38. Cəzanın sayı – ədalətin pozulma sayına bərabərdir və ədalətsiz cəzalar gələcəkdə ədalətin qətlinin fərmanına çevrilir.
39. Ən böyük ədalətsizlik özgələrin yurd-yuvasına, torpaqlarına təcavüz edilməsidir və Vətən və yurd-yuva





müqəddəs olduqlarına görə qəsd edənlər qatı cinayətkarlar kimi təbii olaraq hökmən cəzalarına çatmalıdırlar.
40. Həqiqət və ədalət dərk ediləndir, etikdir, estetikdir, qeyri-həqiqət və ədalət ocaqdan çıxan tüstü kimi göz göynədəndir.
41. İnsan təbiəti ehtibarı ilə həqiqətin yaradıcısıdır, real həqiqətin substansiyasıdır.
42. Həqiqət fərz edilmir, fərz edilən həqiqət ola bilər.
43. İnsanın duyğuları onun ədalətinə şahiddir.
44. Ədalətli və adil olmaq – idarə etmək qabiliyyətidir.
45. Zorakarlığa əsaslanan idarə usulu – azğın və kor sellər bənd-bərəni uçurduğu və viranələr yaratdığı kimi, -xalqın mənəvi əsaslarını zədələyir, onun yaradıcı ağlını və şüurunu buxova salır,ədalət və həqiqəti sanki diri-diri basdıran cinayətkara çevrilir.
46. İnsan nöqsanına görə tənqid oluna bilər, cinayətinə görə mühakimə oluna bilər, lakin svil cəmiyyətdə heç bir zaman və heç bir halda şəxsiyyəti təhqir oluna bilməz.
47. Ədalətsizlik – cinayətlərin «ilhamçısıdır».
48. Siyasətdə nəinki ədalət və hüquq, hətta şərəf əxlaq və ləyaqət də arxa plana keçir.
49. Eqoist niyyətlərdən irəli gələrək qeyri millət lərə nifrət etmək, -əslində öz millətinə nifrət qazandırmaqdır, beynəlxalq hüququn pozulması, ədalətin və təbii qanunların barbarcasına tapdanmasıdır.
50. İnsanda ən başlıca mahiyyət və mənəviyyat - ədalət və həqiqətə olan meyillikdir.
51. Həqiqətpərəstlik və ədalətlilik əsl insan mənliyinin və vüqarının başlıca atributlarıdır və belə insanlara qarşı

məkrli siyasətlərlə onları əyməyə can atılması - əsən acı küləklər kimi daima labüddür.
52. Ədalət və həqiqət – insan mahiyyətinin və mənəviyyatının məhək daşıdır.
53. Düzgünlük və səmimiyyət – mənəviyyatın, ədalət – qətiyyətli şəxsiyyətin, qanunlar – siyasətin atributlarıdır.
54. Müəyyən qayda ilə hərəkət etmək – avarla idarə edilən qayıqla çay axarı hərəkətə bənzəyir, qayda-qanundan kənara çıxmaq – çay yuxarı hərəkət etmək qədər qeyri-təbii və ziddiyyətlidir.
55. Ölkədə hökumətin hakimiyyəti deyil, qanunların hakimiyyəti bərqərar olmalıdır.
56. Qanun – fəaliyyətin nizam formasıdır.
57. Qanun - hadisələrin harmoniyasıdır.
58. Qanun – ictimai hadisələr aktıdır.
59. Mütləq qanun yoxdur.
60. Qanun – ictimai hadisələrin siyasi və hüquqi tarixidir, inikasıdır.
61. Qanun siyasi vasitədir, əslində o etik deyil, mahiyyət ehtibarı ilə insan azadlığının buxovu və cidarıdır.
62. Qanun – ictimai-iqtisadi formasiyaların təsərrüfat fəaliyyətinin siyasi səlnaməsidir.
63. İlk baxışda əyilməz və sınmaz görünən qanunlar son dərəcədə elastikdir.
64. Qanun – ictimai fəaliyyətin əsas şərtləridir.
65. Qanun baş verən, baş verə biləcək ictimai fəaliyyətlərin yekun deklarasiyasıdır.
66. Qanun – qaydaların,normaların hüquqi anlayışla ifadəsidir.
67. Müdrik olmayan hüquq ədalətsizliyə rəvac verir.





68. Həqiqət hüququ doğurur və tələb edir, hüquq həqiqəti doğurmur.
69. Hüquq – həqiqət cazibəsində olan peyklərdir.
70. Həqiqətdən kənarda hüquq olmur.
71. Qanunlar simli musiqi alətlərinə bənzəyirlər, onların yaxşı işləməsi üçün onlar daima nizamlanmalıdırlar.
72. Düzgün və ədalətli idarə etmək üçün, inkişafın ritmini pozmamaq üçün qanun proqnozlaşdırma qabiliyyətinə malik olmalıdır.
73. Svilizasiyanın indikidövründə nəinki təkcə cinayət əməllərini törədənlər, habelə fərdlərin və subyektlərin hüquqlarının pozulması üçün də mühakimələr olmalıdır.
74. Hüquq həqiqətin işığıdır, hər şey bu işıqda aydın görünməlidir, öz mahiyyətini bu işıqda təzahür etdirməlidir.
75. Bütün sahələrdə azadlıq – hüquq aktlarının mükəmməlliyinin meyarıdır.
76. Qanun – hüquq məhdudiyyətidir.
77. Hüquq – svilizasiyanın əsas göstəricilərindən biri kimi, azad və vətəndaş cəmiyyətini formalaşdıran zəruri atributlardan ən başlıcasıdır.
78. Qanun vətəndaş cəmiyyətinin hüquqlarını qoruyan normativ sənədlər aktı olmaqla bərabər, cəmiyyətin tarixi-sosial səlnaməsidir.
79. Sənətdə iki məqam var, - yaradıcılıq və bərpaçılıq, hüquqda da belədir, lakin o yaradıcılıqdan daha çox cəmiyyətin yaşayış tərzini, insanların ictimai fəaliyyətini daha svil yeniliklərlə hüquqi cəhətdən bərpa edir, müasirləşdirir.

80. Qanun cəmiyyət üzərində elə bir müəllimdir ki, o həm öyrədir, həm yol göstərir, həm də tələb edir, kim bu məqamlardan qaçırsa o hökmən onun acısını duyur.
81. Övlad ata, ana qayğısıyla başa çatıb, ziyalandığı kimi və gələcəkdə onların xidmətində durmağı arzuladığı kimi, qanunlar da cəmiyyətin yetirməsidir, sanki onun ziyalı balasıdır, onun hesabına dolğunlaşır, kamilləşir və onun əbədi xidmətində durur.
82. Qanunlar – hüquqların konkret hissələrinin hüquq müəyyənliyidir, hüququn fəaliyyət tərzi, onun mahiyyəti və atributudur.
83. Hüquq sosial fəlsəfədir, sosial məntiqdir, idrakın qəbul etdiyi, sosial hadisələrin formalaşdırdığı təfəkkür tərzinin qanunla açıqlanması, müəyyənləşdirilməsi və tarixləşdirilməsidir.
84. Cəmiyyət bir qayda olaraq hüquq və qanun qeyri-müəyyənliyindən əziyyət çəkir.
85. Sinifli və silkli cəmiyyətdə hüquqlar qeyri – myəyyən və qanunlar isə asılı vəziyyətdə olur.
86. Qəbul edilən hüquq – azadlığın rəsmi ifadəsidir.
87. Hüquq məhdudiyyət anlayışını qəbul etmir, məhdud qanun ola bilər.
88. Əldə edilmiş azadlıq – alınmış,itirilmiş və məhdudlaşdırılmış qanunun bərpasıdır.
89. Səmimi qəbul edilən hüquqlar mükəmməl qanunların yaranmasının əsas şərtidir.
90. Qanunsuz yaşamaq olar, hüquqsuz yox.
91. Əsil qanunlar hüquqların genişlənməsinə xidiət etməlidir.
92. Qanun azadlığı yox, anarxiyanı məhdudlaşdırmalıdır.





93. Hüquq – vətəndaş cəmiyyti ilə birgə təşəkkül tapmışdır və o azadlığın cəmiyyət tərəfindən qəbul edilmiş ifadəsidir.Hüquq müəyyən normadır, şəraitdir, qanun isə şərtdir, beləliklə hüquq qanuni ifadə alır, yəni şərait şərtləndirilir.
94. Ədalət – həqiqətin dərk edilməsidir.
95. Ədalətlilik – ləyaqətlilikdir.
96. Ədalətlilik – mənəvi zənginliyin tərcümanıdır, intellektin ləyaqət ifadəsidir.
97. Ədalətin bərqərar olduğu yerdə ehtiyac və səfalət kabusa dönməz, - su olan torpaqlarda çatların olmadığı kimi.
98. Ədalət məhkəməsinin mahiyyəti ondadır ki, o gücə əyilmədən həqiqəti qoruyub saxlaya bilir.
99.Yalnız ədalətli dövlətin ədalətli sosial siyasəti – ədalətli vətəndaş cəmiyyəti qura bilər.
100. Qanun siyasətdir, ədalət sosial məsələdir, bunların düzgün tənasübünü tapmaq böyük səriştə və ali məqsəd tələb edir.
101. Qanun ölkənin vətəndaş cəmiyyətinə uyğun elə yaradılmalıdır ki, insanlar ona söykənməyə təşəbbüs etsinlər, nəinki yan keçməyə cəhd göstərsinlər.
102. Yannız demokratik dövlətlərdə demokratik qanunlar mümkündür.
103. Bağa qayğı ilə fəal qulluq etmədən bəhər götürmək mümkün ollmadığı kimi, sosial ehtiyaclar nəzərə alınmadan, sosial məsələləri prespektivdə götürmədən, xalqın rifahını yüksəltməyə yönəlməyən qanunlar qəbul etmədən dövlət xalqın rəğbətini qazana bilməz.
104. Ədalət məhkəməsi öz mühakimələrində əsil mənada hüquqi düşüncə göstərmirsə, hadisələrin

sosial bazasına nüfuz etmirsə, onun çıxaprdığı qərarlar mahiyyətcə ədalətdən çox zorakarlığa bənzəyəcəkdir.

105. Qanunlar mahiyyətcə siyasi xarakterli aktlardır, ədalət məhkəməsi isə sosial xarakteri ilə səciyyələnir, yəni onlar formaca bir-birinə bənzəsələr də, hətta bir-birini tamamlasalar da, mahiyyətcə bir-birindən bir-birindən fərqlidir və bu da çox mühüm şərtdir.

106. Qanun azadlığın yox, özbaşnalığın sərhəddidir.

107. Sərhədsiz fikirlər ola bilər, lakin sərhədsiz və qanunsuz hərəkət ola bilməz.

108. Qanun siyasət kimi yaradılsa da, etik norma kimi qəbul edilməlidir.

109. Təbiətən torpağı, dibi bərk olan ağaclar ya bəhər vermir, ya da çox cüzi məçhsul verə bilirlər, qanunlar da nə qədər sərt olarsa iqtisadi və sosial inkişafa ancaq ziyan jətirər, lakin cəmiyyətin sosial vəziyyətini nəzərə alaraq onlaprın gözəl rifahı məqsəd olaraq götürülərsə, hazırlanan səriştəli və hümanist qanunlar əsil mənada inkişafın stimulu rolunu oynaya bilərlər.

110. Qeyri-kamil qanun – qeyr kamil tərbiyəçidir.

111. Təfəkkür - yaradıcılıqdır, düşüncə - nizamlamaqdır, qanun - idrak prosesinin və təfəkkür fəaliyyətinin nəticəsi olaraq ictimai, iqtisadi, siyasi və sasial proseslərin elə nizamlanmasıdır ki,səmiyyətin harmoniyada yaşamasına həm stimul yaratsın, həm də nəzarət etsin.

112. Qeyri kamil və sosial bazadan məhrum qanunlar cinayətin təşəbbüsçüsüdürlər.

113. Qanunların çoxluğu - zəncir halqalarına bənzəyir və şübhəsiz bu azadlıqların məhdudlaşdırılması kimi dərk oluna bilər, lakin müasir svilizasiyanın özü bu proseslərin sifarişçisidir.





114. Xalqın sosial rifahı nə qədər yüksəlirsə, qanun qarşısında avsıllığını bir o qədər az hiss edir.

115. Təklif həmişə tələbdən asılı olduğu kimi, qanunlar da iqtisadi və siyasi amillərdən asılıdır.

116. Qanunlar təsərrüfat fəaliyyətinin və sosia həyatın tələbi olsa da, siyasi hakimiyyətin törəməsidir, lakin o iqtidarın ərköyün balalarına çevrilməməlidir.

117. Qanunu üstələyən hakimiyətin özü zorakarlığın və cinayətin mənbəyidir.

118. Qanun idarə etmək üçün vasitə olmalıdır, hakimiyyət üçün yox.

119. Cəmiyyətdə siyasi baxışların yaranması cəmiyyətin nadir potensialıdır, əgər o qanunlarla məhdudlaşdırılırsa və təqiblərə məruz qoyulursa, bu hakimiyyətin gücsüzlüyünü, qeyri intellektuallığını, səviyyəsizliyinin, mühəfizəkarlığının və təqdim etdiyi qanunlarının qeyri-demokratikliyinin təzahürüdür.

120. Qanun əlifba dərsi deyən əli çubuqlu mollaya bənzəməli deyil, o qayğıkeş tərbiyəçi, öyrədən müəllim, yol göstərən dost olmalıdır.

121. Qanunlar nə qədər sərt və səriştəsiz işlənsə, real sosial həyatın tələblərini əks etdirməsə, təbii olaraq insanlar daha tədbirli və qəddar olacaqlar, beləliklə dövlətlə xalq arasında qarşıdurma labüdləşəcəkdir.

122. Ədalətlilik şəxsiyyətin mahiyyətidir.

123. Qanun reallıqdan doğan nəzəri əsasdır.

124. Qanun – sosial həyatın real tənasübüdür.

125. Qanun siyasidir, hakimiyyətin idarə vasitəsidir.

126. Qanun ictimai həyatın nəzəri əsası olmağına baxmayaraq daim dəyişkəndir, kəmiyyət və keyfiyyət dəyişmələrinə məruzdur.

127. Qanun - ictimai hərəkətlərin mahiyyətlərinin təqribi ifadəsidir.
128. Qanun siyasi olmaq ehtibarı ilə münasibətdir, ictimai faktor olmaq ehtibarı ilə münasibətlərin, hərəkətlərin tənzimləmə usulu və ifadəsidir.
129. Mənəviyyatlar qanunların svilizasiyalı olmasında son dərəcədə gərəkli rol oynayırlar.
130. Qanunlar ictimai həyatın tarixi və xronoloji səlnaməsidir.
131. K.Helvetsi qanunların çoxluğundan şikayətlənir, bu əslində svilizasiyanın inkişafından, cəmiyyətin getdikcə daha çox intellektual məna kəsb etməsindən şikayətlənmək qədər absurddur.
132. Qanun siyasətləşdikcə əsil məqsəddən uzaq düşür, sınmış cihaz kimi öz aktuallığını və mahiyyətini itirir.
133. Bağlı qanunlar yoxdur, bağlayan qanunlar var.
134. Qanunların ən çox öyrənilməsi - ədalətsizliyin ədalətsizliyin ən çox baş verdiyi yerlərdə olur.
135. Qanunların öyrənilməsi mənəvi ehtiyacdan deyil, ictimai zərurətdən əmələ gəlir.
136. Həyat möcüzəvari hadisələrsiz, qanunlar istinasız keçinə bilməz.
137. Qanunlar insanları cəzalandırmaq üçün tərtib edilməməlidir, o ümumiyaşayış normalarını bəyan etməklə maarifləndirmək məqsədi gülməlidir.
138. Cinayəti və zorakarlığı ədalətli cəza qarşılamalıdır.
139. Ən yüksək əxlaq və ədalətlilik - mənsub olduğun torpağı və xalqı sevərək qorumaqdır.
140. Ən yüksək və əbədi qanunlardan biri də cəmiyyət tərəfindən səmimiyyətlə dəyərləndirilən əxlaq normalarıdır.





141. Qanunlar yaxşı işlərə görə mukafat ver-məkdə nə qədər xəsisdirsə, cinayətlərə görə cəza verməkdə son dərəcədə «səxavətlidir».
142. Cəza ədaləti bərqərar etmir, ona yalnız təskinlik verir.
143. Tərbiyə ailənin güzgüsü olduğu kimi, haqq və ədalət də dövlətin və onun demokratik təsisatlarının güzgüsüdür.
144. İstedadlı insanlar tikilməkdə olan əzəmətli binalar kimi böyüyür, ucalır, lakin bəzək və zərif işlər binanı monumentallaşdırdığı və abidələşdirdiyi kimi, fikirləri və zəkaları da insanı qüdrətli şəxsiyyətə çevirirvə onu cəmiyyətdə dahi kimi ucaldır.
145. Allah – ədalət və həqiqət rəmzi olduğu üçün ən yüksəkdədir.
146. Həqiqət müəyyəndir, ədalət müəyyən edəndir, hüqüq müəyyən ediləndir, qanun qərar verəndir.
147. Günəş nurlu gündüzün başlanğıcı olduğu kimi, yalnız həqiqət və ədalət bütün əxlaqinormaların başlanğıcı ola bilər.
148. Həqiqət işıq kimidir, o hey vaxt əbədi qaranlıqda qala bilməz.
149. Həqiqət təbiətə bənzəyir, ona qayğı və diqqət göstərməklə ondan daha çox faydalanmaq olar.
150. Əntəhlükəli adam həqiqətdən və ədalətdən qaçandır.
151. Qanunlar – həqiqətin və ədalətin bərpa edilməsidir.
152. Qanunlar dövlətin müdafiə kompleksidir.
153. Qanunların aliliyi – demokratik prinsiplərin, dövlətin qanunlar üstündə aliliyi despotizmin təzahürləridir.

154. Xalqın iqtisadi və sosial rifahı nə qədər təminatlıdırsa, qanunların və ədalətin axtarılmasına da bir oqədər az ehtiyac hiss olunur.
155. Cəmiyyət nə qədər çox intellektuallaşırsa müvafiq olaraq qanunlarda cəza prinsiplərindən daha çox xəbərdaredici və hüquqi marifləndirici prinsiplərə xüsusi üstünlük vermək lazımdır.
156. Qanunların çoxluğunun səbəbi – cəmiyyəti sosial-ədalət müstəvisinə gətirməkdir.
157. Qanunlar – hüquq ağacının budaqlarıdır, onların bağbanı – icraçı hakimlər, meyvələri isə həqiqətin ədalətlə bərqərar olmasıdır.
158. Təcrübəyə əsaslanmayan qanunlar – korun yol getməsi kimidir.
159. Qanunlar o zaman müdrik və ali hesab oluna bilərlər ki, onlar sosial həyatın bütün incəliklərini öyrənərək insanların yaşayış tərzini təbii axar sular kimi tənzimləsinlər.
160. Qanunlar konkret bir cəmiyyətin və konkret bir xalqın elə bir intellektual səviyyəsidir ki, onlarla həmən xalqın müdrikliyini, mənliyini mədəniyyətini və özünün özünə hörmətinin təzahürünü görmək olar.
161. Adət-ənənələr qaydalara, qaydalar qanunlara çevrildikcə insanlar mədəniyyətə və svilizasiyaya qədəmini tarixləşdirmişlər.
162. Hüquq – azadlığın və ədalətin dərkidir.
163. Mütləq ədalət olmur.
164. Ədalət məhkəməsinin mahiyyəti ondadır ki, o qəsd edilmiş hüququn icraçısının qəsbkar olduğunu sübuta yetirilsin.





165. Həqiqət – təmiz və billur bulaq suyuna bənzəyir, ona aludə olan uzun zaman sağlamlığını və cəmiyyət içərisində nüfuzunu qoruyub saxlayacaqdır.
166. Həqiqət – əbədi ruhdur.
167. Ədalətsizlik daşan çay kimidir, o nə qədər uçurub dağıtsa da, gec-tez qarşısı alınacaqdır.
168 .Həqiqət göz ilə görünən, ağılla dək edilən və ilə ifadə olunandır.
169. Ədalət dərk edilən hüquqdur.
170. Qanunlar – hüquqların ifadə tərzidir.
171. Qanun mürgü döyəndə cinayət \cinayətkar\ ayıq və fəal olur.
172. Qanun qovmamalıdır, çağırmalıdır.
173. Cinayət – müdafiəsiz qalan hüquqa açıq və ya gizli qəsddir.
174. Cəza – qəsd olunmuş azadlığın və hüququn intiqamıdır.
175. Qanun əyiləndə, - cinayət sındırır.
176. Həqiqəti gözəllik kimi dama qorumaq lazımdır.
177. Qanun ictimai həyat hadisələrinin, fəaliyyətlərin elə məntiqi ifadəsi olmalıdır ki. fəhləkəndlidən tutmuş prezidentə qədər hamı dərk etməlidir ki, onlar müqəddəs tutmalı olduqları, sağlam düşüncənin və təfəkkürün məhsulu olan, hər kəsin məsuliyyət daşıdığı, ictimai, siyasi – hüquqi akt sayılan qanun qarşısında tam bərabərdirlər.
178. Qanunlar müdrik deyil, qanunlara müdrikcəsinə yanaşma var, qanunların müdrikcəsinə tətbiqi var, ictimai fəaliyyətin təcrübəsindən daha rasional istifadə tərzi var.
179. Dialektika – qanunların məhək daşıdır.

180.Qanunlar – dövlətin daima fəaliyyətdə olan damarlarıdır.
181. Ciddi qanun pozuntularına yol vermək – dövlətin nəbzini əngəlləməkdir.
182. Gücün adi tətbiqi zorakarlıqdır, lakin o qanun vasitəsinə çevrildikdə ədalətin bərpasına xidmət edir.
183. Bütün bitkilər təbii seçmə qaydası ilə toxumlardan və köklərdən, bütün canlılar rüşeymlərdən \yarandığı\ əmələ gəldiyi kimi, qanunların da ilkin mənbəyi xalqın və millətlərin yaşayış tərzi, adət və ənənələridir.
184. Qanunlar – dövlət və xalqın nəinki əsas atributlarından biri, həm də onun hüquq mədəniyyətinin, intellektual səviyyəsinin prinsipal göstəricisidir.
185. Qanunlar dövlətin nəinki «polad sipəri», müstəqilliyinin rəmzi, toxunulmazlığının rəsmi ifadəsi, idarə mexanizmi, həm də xalqın rifahının yardımçısı olmalıdır.
186 .Qanunçuluq öz kamil mahiyyətini o zaman tapmış olar ki, bəşər üçün ən böyük amil və prinsipal məsələ olan şəxsiyyət azadlığının ən svil formada təminatçısı olsun.
187. Qanunlarda nəinki məhəbbət, hətta rəğbət də yoxdur.
188. Yrəksiz qanunlar – işıqsız çıraq kimidir.
189. Qanunlar ədalət yolunda yanan şamlardır.
190. Qanunlar ictimai pərakəndəliyi və özbaşnalığı nizamlayan baş hakimdir.
191. Qanunlar – hüquqların bəyan edilməsi və təsdiqidir.
192. Qanunlar hüquqa açılan pəncərələrdir.
193. Bütün hüquqlar svilizasiyanın yetirməsidir.
194. Qanunlar – hüquqların interpretasiyasıdır.





195. Qanunlar hüquqlardan yaranan fəaliyyət aktlarıdır.
196. Hüquqlar – təbii bulaq suları kimidir, qanunlar bu təbii suların nizamlı istiqamətidir.
197. Hüquq şahdır, qanunlar sərkərdə, onun icraçıları isə nizamlı əsgərlərdir.
198. Elmin təzə sahələri yarandığı kimi, yeni qanunların yaranması da labüd və qanunauyğun ictimai prosesdir.
199. Qanunlar – dövlətlə xalq arasında, dövlətlərlə dövlətlər arasında diplomatik münasibətlər sistemidir, nizamnaməsidir, bu jesti pozan tərəf hökmən onun ağrısını çəkir.
200. Əməli və aktual həyatı əks etdirməyən qanunlar - \praktikaya\ təcrübəyə uyğun olmayan təlimat kimi yalnız sənəd olaraq qalacaqdır, çünki müvafiqlik olmadan realizasiya \həyata yararlılıq\ qeyri-mümkündür.
201. Qanunlarda tez-tez dəyişikliklər aparılması bir tərəfdən səriştəsizlikdən, digər tərəfdən onların qeyri-demokratik ruhda hazırlanmasından və qeyri-obyektivlikdən irəli gələn məsələlərdir.
202. Praktik həyat qanunların ruhu olmalıdır.
203. Sərt qanunlar vətəndaşları rəzilləşdirir, onların yaradıcılıq ruhunu öldürür, bu isə mənəviyyatsızlığa aparan yolun mənbəyidir, başlanğıcıdır.
204. Vətəndaşları mənəviyyatca zəngin olmayan dövlətdə qanunlar işlək olmaz, öz mahiyyətini tapmaz.
205. Mənəviyyat etik normaların atributudur, etik normalar isə qanunlara rəğbət hissidir.
206. Etika qanunların canıdırsa, mənəviyyat da onların qanıdır, deməli, qansız can olmadığı kimi, ruhunda mənəviyyat – mahiyyət \i\ olmayan qanunlar da kifayət qədər ürəklərə və beyinlərə hakim ola bilməz.

207. Sərt qanunlar – dövlətin iradəsizliyi, dözümsüzlüyü və kobud qışqırığıdır.
208. Qanunlar namuslu vətəndaşların təhlükəsizliyinin rəsmi qarantı olmalıdır.
209. Zəngin mənəviyyatın – ədalətliliyin qarantıdır.
210. Dövlət vətəndaşlarının mənəvi zənginliyinin qayğısına qalarsa, o cinayətlə mübarizənin ən svil formalarından istifadə etmiş olar.
211. Zəngin mənəviyyat qanunsuzluğa qarşı canlı və təbii sipərdir.
212. Yalana meyl etmək – oğurluğa meyl etmək kimidir, hər ikisi cinayətin astanasıdır.
213. Ədalət həqiqətin açarıdır.
214. Mütəfəkkirin həqiqəti, iqtidarın ədaləti – onların fəzilətidir.
215. Qanun həqiqətin özünü yox, istiqamətini göstərir.
216. İnsanların həyat fəaliyyəti, ictimai proseslərdə iştirakı – fasiləsiz, mütamadi axardır, qanunlar isə bu axarların bənd-bərələridir ki, bu axar öz məcrasından aşmasın.
217. Qanundan qaçmaq – düz yoldan çıxıb cəngəlliyə və bataqlığa girməkdir.
218. Qanunlar – ictimai fəaliyyətin kompaslarıdır.
219. Qanunlar – ağıl və zəkalarda – məşəl kimi elə parlamalıdır ki, hətta uzaqdan onun işığı görünsün.
220. Qanunlar konkret əməllərin mücərrəd ifadəsidirlər.
221. Qanunlar hüquqları üstələdikdə sanki günəşin qarşısını qara buludlar alır.
222. Hakimin haqsızlığı oyuqçuları hiddətləndirdiyi kimi, qanun icraçılarının da yersiz müdaxiləsi hiddət və qəzəb doğurmaya bilməz.





223. Cinayətlər cəmiyyətin aldığı yaralardır, onun isə yeganə düzgün dərmanı əməli qanunlardır.
224. Qanunçuluğu həkimə bənzətmək olsaydı, qanunları da onların yazdığı resseptə bənzətmək olardı və bu resseptlərdən nə qədər düzgün istifadə edilsə cəmiyyətdə sağlamlıq bir o qədər yüksək olar.
225. Qanunlar – qanunçuluq təcrübəsinin və təfəkkürünün elmi məntiqi rəticəsi və daima yeni ləşən bəhrəsidir.
226. Qanunların ruhu insanların rifahına xidmət etdikdə müqəddəs hesab edilə bilər.
227. Cinayətkarı actarmaqdan daha çox onu törədən və yaradan səbəbləri axtarıb, islah etmək lazımdır.
228. Qanunlar – cinayət təşəbbüskarlarına xəbərdarlıq aktlarıdır.
229. Müdriklik yalnız ən mühüm qanunların yaradılmasında deyil, həm də onların icrasında zəruridir.
230. Qanunlar – axar çayların bəndinə bənzəyir, ondan kənara çıxmalar hökmən dağıntı və fəlakətlər törədir.
231. Qanunlar – yağı düşmənlərlə üz-üzə dayanmış mübariz əsgərlərə bənzəyirlər, onlara nə qədər çox diqqət və qayğı göstərilərsə ölkədə əmin amanlığa bir o qədər çox zəmin yaradılmış olar.
232. Qanunvericilər bəzən bağbana bənzəyirlər, onların bacarıq və səriştəsindən qanunların və insanların taleyi asılı olur.
233. Cəmiyyətin iqtisadi durumundan yüksəkdə duran qanunlar milə düşmüş gəmiyə bənzəyirlər.
234. Qanunlar ağır yüklərə davamlı və nizamlı yollar kimi olmalıdır, əks halda fəlakətdən qaçmaq olmaz.

257. Qanunların ən başlıca fəlsəvi və praktik mahiyyəti – insanların həyat fəaliyyətini svil və sülh qaydasıyla nizamlamaqdır.
258. Həqiqət reallığın təcəssümüdür, ədalət həqiqətin təcəssümüdür, qanunlar isə onların cəminin təcəssümüdür.
259. Qanunlar ögey ana kimidir, qayğı var, məhəbbət yox.
260. Təbiətin nizamı pozulduqda təbii fəlakətlər yarandığı kimi, qanunlar pozulduqda da ictimai fəlakətlərdən yan keçmir.
261. Fəlsəfəyə meyl – təbii olaraq həqiqətə və ədalətə meyldir, onların gerçək mahiyyətini anlamağa meyldir, bu isə insan idrakının fəal təkamül dövrüdür, istedadının və kamilliyin intibah dövrüdür.
262. Həqiqət – özü özünün çırağıdır.
263. Ədalət – həqiqətin gül açmış ətridir.
264. Həqiqət – təzə gəlin kimidir, onu çox incə və ləyaqətlə üzə çıxarmağı bacarmaq lazımdır.
265. Bəzən həqiqət yalan ehtimalını doğurur, ən pisi isə yalanın həqiqət ehtimalı doğurmasıdır.
266. Yalan adətən həqiqətin yanında pərvəriş tapar, lakin bic zoğlar kimi onu vaxtıqda budamaq lazımdır.
267. Həqiqət barlı ağac kimidir, o nə qədər əyilsə də öz mahiyyətini itirməz.
268. Həqiqət – günəşin çıxması kimi aydın, suyun axması kimi həmişə təzədir.
269. Müdrik və ləyaqətli insanlar həqiqət axtarışında yalana uyurlar və ya uydurarlar, nadan, xəbis və ləyaqətsizlər isə həqiqəti batırmaq üçün yalana uyarlar və ya uydurarlar.





270. Həqiqət – məhz ictimai faydalılığı ehtibarı ilə mahiyyətə malikdir.
271. Həqiqət mənə xidmət etdikdə mən onun uğrunda mübarizə aparıram, mən isə fəal cəmiyyətin bir hissəsiyəm.
272. Məni təcrid edə bilərlər, parçalaya bilərlər, lakin hər bir halda mütləq varlıq kimi, təbii həqiqət kimi – mənim mahiyyətim öz əhəmiyyətini saxlayır.
273. Həqiqət varlıqdır, vahiddir, konkretdir, lakin mütləq deyil.
274. İnsanlar istinasız həqiqəti axtarırlar və çox zaman ona nail olurlar, lakin onun mütləqliyi sual olaraq onları daim düşündürür.
275. Harada ki haqq-ədalət tapdanır, deməli, din orada öz mahiyyətini və əhəmiyyətini itirmişdir.
276. Vaxtında deyilən kiçik bir həqiqət sonradan bəyan edilən böyük ədalətdən qat-qat qiymətlidir.
277. Həqiqəti bərpa edən ədalət – böyük ürəklərin səmimiyyətinin varlığına inamdır, demokratik prinsiplərin varlığının təzahürüdür.
278. Həqiqətin vaxtında və zamanında açıqlanmaması nəinki ləyaqətsizlikdir, həm də hər cür və hər zaman sərtmühakiməyə məhkum cinayət və şərəfsizlikdir.
279. Həqiqət sadə olduğu qədər yüksək və şərəflidir, onun daşıyıcıları isə ləyaqət və fəzilət sahibidirlər.
280. Ədalət – həqiqətin vəkilidir.
281. Yaxşı vəkil – yüksək səviyyəli əmtəəşünası xatırladır, hər ikisinin onlara təqdim olunan materialları və sənədləri dərindən bilməsi onların uğurunun ən vacib şərtidir.

307. Yalnız şirin sularla münbit torpaqlardan kifayət qədər məhsul götürmək mümkün olduğu kimi, yalnız cəmiyyət həyatının səmimi nizamlanmasına xidmət edən qanunlar ilə, ədalətin şəksiz hökm olduğu, həyat normasına çevrildiyi bir məmləkətdə cəmiyyətin məqsədəuyğun fəaliyyətini tənzimləmək və stimullaşdırmaq mümkündür.
308. Ədalətli və ləyaqətli adamlar üçün öz vicdanı önündə hesabat vermək ən böyük məsuliyyətdir.
309. Qara buludlar günəşin qarşısında qara kölgəyə çevrildiyi kimi, haqsızlıqlar və ədalətsizliklər də demokratiya üzərində bədnam ləkələrdir.
310. Ədalətsizlik cəmiyyət içərisində elə bir təhlükəli həşəratdır ki, o yaxşı və sağlam nə varsa korlayır və faydasız edir.
311. Ədalətli olmaq – nəyisə qurban verməkdir.
312. Ədalətlilik – insan mənəviyyatının cövhəridir.
313. Ədalətlilik – insan qəlbində əbədi ruhdur.
314. Ədalətsizlikdən əbədi yaxa qurtarmaq – meşədə yırtıcılardan – vəhşilərdən xilas olmaq qədər çətin məsələdir.
315. Qanun istiqamətdir, yoldur, lakin bu yolda hər hansı maneələrə rast gəlməyi qanun istisna etmir.
316. Ədalətlilik – daxili qüvvənin, «mən»in və kamilliyin sintezindən yaranmış kişi gözəlliyidir.
317. Çox zaman ədalətə cəhd edən insanların səyi – kiçik bulaqların suyu çaylara çatmamış təbiətdə itib, batdığı kimi, - məramına çatmamış üstünə su tökülən köz kimi söndürülür.
318. Bütün hüquqlardan hamı bərabər istifadə etsəydi, yəqin ki, «ədalət» anlayışı ortaya çıxmazdı.





319. Ədalət – xəstənin axtardığı dərman kimidir, o nə qədər tez tapılarsa, sağlam mühit bir o qədər tez bərpa olar.
320. Ədalət əsasən pozulmuş hüquqların atributudur.
321. Ədalətli və ədalətsiz hüquq yoxdur, hüquqların pozulmuş ədalətsizliyi var.
322. Vətəndaş azadlığı cəmiyyətində bütün hüquqlar bərabər olmalıdır, kimlər ki, son dərəcədə artıq hüquqlara malikdir, deməli onlar digər vətəndaşların hüquqlarını mənimsəmişlər.
323. Tox acdan danışmaz, pullu pulsuzdan danışmaz, hüquqlardan sui-istifadə edənlər ədaləisizlikdən danışmazlar.
324. Bir qayda olaraq bütün ədalətsizliklərin törədiciləri cəmiyyətin hesabına yaşamaq istəyən tüfeylilər, qabiliyyətsiz və miskin insanlardır ki, - əkində alaq otları kimi, - cəmiyyət onlara qarşı daim mübarizə aparır.
325. Xalq dövlətin gücünü öz üzərində nə qədər çox hiss edirsə, deməli ədalətsizlik və haqsızlıq o dərəcədə cəmiyyətdə – ölkədə tüğyan etmədədir.
326. Ədalətsizliyi dövlətin nəzərinə çatdıran xalq, - əslində dövlətin səriştəsizliyini onun nəzərinə çatdırmış olur.
327. Svil və demokratik dövlətin əsil mahiyyəti - xalqın hüquqlarının bütün silklər üzrə bərabər qorunmasındadır.
328. Ədalətdən qaçmaq olar, həqiqətdən yox.
329. Ədalət – həqiqətin əks-sədasıdır.
330. Günəş əyildikcə istiliyi azaldığı kimi, həqiqət də əyildikcə təsiri azalır.
331. Ədalətli cəza – elə bir vacib və zəruri cərrahiyyə əməliyyatıdır ki,o vaxtında və kifayət qədər etibarlı

aparılmasa, epidemiya kimi daha çox adamlara siyarət edəcəkdir.
332. Ədalətsizlik və səfalət cinayətdərin ən əsas mənbəyidirsə, ədalətlilik, hüquqlara hörmət və insanların rifahına qayğı cinayətlərin qənimidir.
333. Cinayətə görə ən ədalətli cəzalar – ədalətə o zamana qədər nüfuz gətirməyəcək ki, nə qədər cənayətlərin törədilməsinə səbəb olan köklər kəsilməyəcək, lazımınca tədqiq edilib müvafiq tədbirlər öz icrasını tapmayacaqdır.
334. Müasir dövrün ən xarakterik əlamətləri onunla müəyyən oluna bilər ki, ədalətsizliklər, vəzifələrdən və mövqelərdən suiistifadə halları, özgə hüquqlarına hörmətsizlik və qeyri-səmimiyyət baş verən cinayətlərin başlıca atributuna çevrilməkdədir.
335. Cinayətkarın haqq-ədalətdən qaçması təbiidir, ədalətin isə cinayətkardan geri çəkilməsinin özü cinayəidir, yeni cinayətə ümid yeridir.
336. Həkim xəstəni tədqiq edib, yoxlamadan müalicə edə bilmədiyi kimi, cinayətin anatomiyasının dədqiqi də haqq-ədalətin başlıca məsələsidir.
337. Cəza – cinayətin dərk edilməsinə və islah olunmasına yönəlməlidir.
338. Qanunlar – hüquqi cəmiyyətin fəaliyyət varlığının təfəkkür formasında inikasıdır.
339. Qanunlar – həm formalaşmış idrakın və təfəkkürün xassələri, təkamül prosesləri, həm dəintibahın və svilizasiyanın atributlarıdır.
340. Qanunlar dərk edilmiş zərurətdir.
341. Qanunvericilər dövlət siyasətinisosial həyatla elə uzlaşdırmalıdırlar ki, küləklər adətən yalnız xarab meyvələri tökdükləri kimi, vətəndaşlara təqdim olunan





qanunlar da ziyan vermədən onların sağlam ruhunu qoruyub saxlaya bilsinlər.
342. Qanunlar bəyan edilmiş aktdır, fakt deyil.
343. Qanunlar xəbərdaredici və siyasi profilaktik tədbirlər mahiyyətinə malikdirlər və onlar təbiblə-rin vurduğu peyvənd iynələri kimi insanları gələcək sosial bəlalardan maksimum qorumağa xidmət edir.
344. Yalnız haqqın-ədalətin bayrağını uca tutanlar alqışlanır və tarixi fakta çevrilə bilirlər.
345. Heç bir qanun gerçəkliyi tam əks etdirə bilməz.
346. Ədalət – qanunların cövhəridir.
347. Vətəndaşların təbii hüquqlarını pozan və bu hüquqları üstələyən heç bir qanun əsaslı sayıla bilməz.
348. Qanunlar mənə xidmə etdiyinə görə mən onlara diqqət yetirirəm.
349. Vətəndaşı müdafiə etməyən qanunlar bəyan edilməyinə baxmayaraq ya istefada olan sərkərdəyə bənzəyəcəkdir, ya da Servantesin Don Kixotuna.
350. Qanunlar həmişə mənim çağrışımı eşitməlidirlər.
351. Məndən kənarda qanun yoxdur.
352. Qanunlar – sosial hərəkətlərin,təsərrüfat fəaliyyətlərinin nizamlayıcısıdır.
353. Qanun – drijor çubuğu kimidir, yalnız ona diqqət yetirdikdə yanlışlıqlardan qaçmaq mümkündür.
354. Sular təbii olaraq birləşib qüdrətli çay əmələ gətirdiyi kimi, qanunlar da küll halında dövlətin qüdrətini müəyyənləşdirir, güc strukturlarını rəsmi formalaşdırır və habelə dövlətlə xalq arasında körpü rolunu oynayırlar.
355. Qanunlar dövlət ilə xalq arasında yazılı dialoq və rəsmi bağlanmış müddətsiz müqavilədir.
356. Qanundan qaçmaq – dialoqdan qşaçmaqdır.

357. Svilizasiyalar yeni qanunları stimullaşdırır.
358. Təbii inkişaf qanunların yedəyində gedə bilməz, lakin qanunlar inkişafa stimul yarada bilər, onu daima zənginləşdirə bilər.
359. Ədalət öz məqsədinə çatana qədər – döyüş meydanında döyüşə-döyüşə irəliləyən, səngərləri yara-yara ötüb keçən, artıq əldən düşmüş yaralı əsgərə bənzəyir.
360. Qanun məhdudluqdur, hüququn çərçivəyə salınmasıdır.
361. Təbii hüquq qanunla təsbit edildikdə ideologiya deyil, lakin qanun hüquq yaratdıqda, xüsusən hər hansı bir silkin eqoist maraqları naminə, - onda o ideloji vasitəyə çevrilir.
362. Bu gün mənim vətənimdə – müstəqil Azərbaycanımda, onun ayrılmaz bir parçası, gözəl bir guşəsi olan Qarabağ torpaqlarımda ədalətsizcəsinə vəhşicəsinə axan qanlara, Xocalı qırğınına, erməni neofaşizminə, tökülən qanlı göz yaşlarına dünya dövlətlərinin başqanları, onların kuryer siyasətçiləri göz yumursa, inkivizator xarakterli müdaxiləçiləri tənqid və məzəmmət yerinə havadarlıq edirlərsə, deməli onların nəinki təfəkkürü xəstədir, onlar bu qaniçənlərin kəbinli arvadlarından daha çox Roma quldarlarının qullarına daha çox bənzəyirlər.





# DOBRULUQ, DÜZLÜK Və HəQİQəT FəLSəFəSİ

1. Düz kəsişəndə nəyi isə ifadə etdiyi halda, əyrilər kəsişəndə heç nəyi ifadə etmir.
2. Düzlüyü unutmaq – ləyaqəti unutmaqdır.
3. Həqiqət boğulan yerdə insanın fəlakəti başlayır, necə günəşin qarşısını qara buludlar alanda külək və tufan qopur.
4. Sadə həqiqətə bəzəkli yalanların prizmasından baxmazlar.
5. Əsil həqiqət həkim resseptinə bənzəyir, onu söyləyən ondan mənəvi zövq alır və özünün vətəndaşlıq borcü bilir, onu dinləyən və qəbul edən isə onda nə isə bir acılıq hiss edir.
6. Xaos və hüquqsuzluq içərisində boğulan bir millət və xalq elə bir vəziyyətdə olur ki, sanki qoyun sürüsünə canavarlar basqın edib, onları parçalayır, talan və taran edirlər, onlar isə dinə bilmək iqtidarında olmurlar.
7. İstidbad təkcə zahiri əlamət olmayıb, o həm də bütün hüquqlara təcavüzdür, sviliza siyanın indiki mərhələsində çox incə usulla mənəviyyvtı və mənliyi parçalamaqla ədalətin və həqiqətin əbədi düşmənidirlər.
8.»Pambıqla baş kəsmək» həqiqəti arxadan vurmaq istidbadın əzəli və əbədi zülm usuludur.
9. Həqiqət sərt gözəllikdir, rəğbətə malik deyil.
10.Həqiqət qızıl gül kimi tikanlıdır, lakin həm də onun kimi tikanlı olduğu üçün hər adam üzmək iqtidarında deyil.

11. Hər işdə düz və dəqiq olmaq elə yüksək əxlaqi keyfiyyətdir ki, insanlar bir meyar kimi – kompasın əqrəbləri qütb istiqamətinə meylli olduğu kimi, - həmən şəxsə meylli olurlar.

12. Mütləq həqiqət deyilən bir şey əgər qəbul edilərsə, onu ancaq konkret varlığa, insana, təbiətə, toxunduğumuz və gördüyümüz şeylərə aid etmək olar.Lakin onlara aid edilən nə varsa, qeyri cisimlər mütləq deyil, ancaq nisbidir, yəni biz günəşi mütləq kimi dərk ediriksə, ona aid olan mühiti – idrakın dərk edə biləcəyi mütləqi görə bilmirik, çünki bizim idrakımız buna qabil deyil.Bizim dərkinə qabil olmadığımız şeyləri mütləq kimi qəbul etməyimiz özümüz özümüzü aldatmaq olardı, çünki bizim hisslərimiz və duyğularımız həmişə aldadıcı olur.Bu ona görə belədir ki, bizim hisslərimiz özü aldadılır, çünki biz heç nəyin reallığını görə bilmirik və beləliklə qeyri-real şeyləri mütləq həqiqət kimi qəbul edə bilmərik, necə ki, bəzən işıltısı bizə görünən ulduzların bəziləri artıq mövcud deyil, lakin biz onu mövcud kimiqəbul edirik.

13. Hər işdə düz və dəqiq olmaq, həqiqətin canlı simvoluna çevrilmək nəinki sağlam tərbiyənin və sağlam mühitin sağlam nəticəsidir, həm də kamil insanın mahiyyəti məsələsidir.

14. Günəş və kölgə.Səhər günəş doğanda saysız-hesabsız kölgələr əmələ gəlir.günəş zirvəyə qalxdıqca kölgələr azalır, gödəlir və bəzi yerlərdə yox olur.Elə ki günəş əyilməyə başlayır, kölgələr artır.
Həqiqət də belədir, harada həqiqət var, deməli orada yalan və riya labüddür.Harada ki, həqiqət günəş kimi daha çox sevilirsə, insanlar həqiqətə daha çox meyillidirlərsə orada yalan və riya oğru kimi fəaliyyət





göstərir, harada ki, həqiqət boğulur, oda qalanır, orada yalan və riya meydan sulayır.

15. Həqiqəti boğmaq üçün qəzəb ən yaxşı usul kimi seçilir.

16. Şirin həqiqət və şirin dərman yoxdur.

17. Həqiqət – dənizdə yanan mayaklara bənzəyir, yalnız ona istiqamətlənəndə o faydalı olur, mahiyyət kəsb edir.

18. Hər bir həqiqət atomun vahidliyi kimi nisbidir, o axtarıldıqda bölünən, yeniləşən və zənginləşəndir.

19. Meşədə faydalı bir ağac xüsusi seçim tələb etdiyi kimi, həqiqəti də bir çox yalanların, yanlışlıqların və şübhələrin içindən seçib, arayıb ərsəyə gətirmək lazımdır.

20. Həqiqət realdır, lakin konkret və mütləq deyil.

21. Həyat hadisələrində həqiqət bəzən külçədə olan qızıla bənzəyir, onu görüb, təmizləyib, saflaşdırmaq xüsusi zəhmət tələb edir.

22. Həqiqət gizlənmir, gizlədilir.

23. Həqiqət qızıl kimi qiymətlidir, lakin bəzən zəhər kimi acı olur.

24. Həqiqət gözəllik kimi daima özünə təhlükə yaradır.

25.Yalan həqiqətin kölgəsidir.

26. İnsanlar qeyri-real şeylərin varlıq kimi görünməsini özlərinə neçə msin illərdir ki, sübut etməyə cəhd edirlər və nə qədər çox «sübut» edirlərsə, bir o qədər həqiqətdən uzaqlaşırlar.

27. Dərman yalnız xəstə olduqda faydalı olduğu kimi, həqiqət də ancaq zamanında və məkanında qiymətlidir.

28. Həqiqətdən qaçmaq – yalanın ağuşuna atılmaqdır.

29. Həqiqət əyiləndə yalan meydan sulayır.

30. Həqiqətlə yaşamaq – mənəvi zənginliyin və məğrurluğun ifadəsidir.
31. Həqiqət həmişə nisbidir və o zamana, məkana, tarixi şəraitə görə də müəyyən edilə bilər.
32. Həqiqət – fəaliyyət faktıdır.
33. Həqiqət işıq kimi səmimi, yalan qaranlıq kimi hiyləgər olur.
34. Yalanın böyüklüyü – həqiqətin gücünü göstərir.
35. Həqiqət faktdır, fakt fəaliyyətin nəticəsidir, nəticə isə mahiyyyətdir.
36. Həqiqət şəxsiyyətlə ölçülmür, şəxsiyyət həqiqətlə, ona münasibətlə ölçülə bilər.
37. Həqiqət məcaralığı sevmir.
38. Həqiqət sanki ilahi gözəllikdir və bu gözəlliyə malik ola bilməyənlər paxıllıqdan ona qara yaxmağa və yamanlıqla gözdən salmağa çalışırlar.
39. Həqiqət qızıl kimi nə qədər məkrlə gizlədilsə də ədalətin mağnit seli onu hökmən aşkara çıxaracaqdır.
40. Həqiqət sərt gözəllikdir, lakin o rəğbətə malik deyil.
41. Düzgünlük həqiqətin ifadəsi, haqqın səsidir.
42. Həqiqət elə bir uca dağ zirvəsidir ki, hətta yalanlar, böhtanlar nə qədər böyük olsa belə buludlar kimi o zirvəni əbədi itirə bilməzlər.
43. Həqiqət almaz kimidir, o necə kəsilib doğransa ğelə, parıltısı görünəcəkdir.
44. Müdafiəsiz və hüquqsuz həqiqət tək ağaca bənzəyir, onu güclü təsirlər, - ictimai küləklər daim əyməyə cəhd edəcəklər.
45. Düzlük insan varlığının atributu və substansiyasıdır.
46. Həqiqət - ay kimi, günəş kimi, gecə-gündüz kimi daima cavan, daima təzədir.





47. Həqiqət hissin əsiri deyil.
48. Həqiqət bəzəyi, təmtərağı sevmir.
49. Həqiqət təsirlərə məruz qala bilər, lakin varlığını itirməz.
50. Həqiqət zəncirlənmiş Prometeydir, onu hərə bir cürə başa düşə bilməz.
51. Bütün meyvələr yetişmə məqamında, günəş dunyaya göz açanda, həyat günəşə və insana güləndə, insan kamilləşmə dövründə son dərəcə faydalı olur və bütün mahiyyət və həqiqət bundadır və bu mahiyyətdən məqsədəuyğun faydalanmaq sonuncuların işidir.
52. Sadə həqiqətə bəzəkli yalanların prizmasından baxılır.

## ƏXLAQ VƏ LƏYAQƏT FƏLSƏFƏSİ

1. Qeyrət mənliyin güzgüsüdür.
2. Cansız güzgü canlı kordan yaxşıdır.
3. Düzlük ləyaqətdir, əyrilik qəbahətdir.
4. Yalançılıq – ləyaqətini danmaqdır.
5. Qənaətçillik iqtisadi məzmunu ilə yanaşı, həm də etik faktordur.
6. Siyasi arenada siyasətçilər nəinki əxlaqietik normaları qoruyub saxlaya bilmirlər, hətta övladlarının tərbiyəsində buna nail ola bilmirlər, əlbəttə bir ağacda iki meyvə görmək müşküldür.
7. Kədər insan həyatının müfəttişi olmaq ehtibarı ilə etikdir.
8. Tənə əxlaqi normaya ziddir.
9. Gözəl əxlaq – insan varlığının təcəssümüdür,zəngin mənəviyyatın təzahürüdür, billur qab kimi zərif və estetikdir, insanın həyat fəaliyyətinin kamillik meyarıdır.
10. Əxlaq – ruhun mahiyyətidir.
11. Edilən yaxşılıq xeyrini görmək üçün deyil, xeyir vermək üçün olmalıdır.
12. Verdiyin bir şeyə, etdiyin bir yaxşılığa sonradan heyfslənəcəksənsə, onu etməsən daha məqbuldur.
13. Hər işdə düz və dəqiq olmaq – yüksək əxlaqi keyfiyyətdir.
14. Şəxsiyyətlər – ən əvvəl yüksək əxlaq və əməl sahibləridir.
15. Yalançı adam ləyaqət sahibi ola bilməz.
16. Naşı və səviyyəsiz adamlar hər şeyə üstdən aşağı, kamil və istedadlı adamlar altdan yuxarı baxırlar, çünki günəş də, ay da, ulduzlar da, hətta ilahi ruh da – təbiətin bütün cövhəri bizdən yuxarıdadır, yəni biz onların nurundayıq.





17. Cəmiyyət içərisində ləyaqətsiz insanlar əkin içərisində çıxan yabanı bitkilər kimidirlər və bu yabançı təzahürləri cəmiyyət öz uğurlu inkişafına müvafiq öz təbii seçimi ilə tənzimləməlidir.
18. Kamil insanlar gözəl məqsədləri və əməlləri naminə, hətta ölüm qarşısında belə əyilməyərək cəngavər iradəsiylə ləyaqətlə mübarizə apara bilirlər.
19. İnsanın ən gözəl güzgüsü onun ləyaqətidir.
20. Bar verən ağac torpağın münbitliyini, tərbiyə insanın mahiyyətini müəyyən edir.
21. Minnət noymaq – qarşıdakını alçatmaqdır, deməli o etik deyil və əxlaqi normaya daxil ola bilməz.
22. Mülayim tərbiyə – yumuşaq metal kimi tez əriyər, tərbiyə vüqar kimi əyilməz olmalıdır.
23. Gözəl tərbiyə olunan övlad – baxımlı bağ kimi xoş ovqat yaradır və cəmiyyətin sağlam ruhunun rəhnidir.
24. Sağlam əxlaq – sağlam düşüncənin əsa-sı, cəmsiyyətin svil inkişafının zəminidir.
25. Həyatda bütün etik meyarlar nisbidir.
26. Sahib olmaq qəsb etməkdir, etik deyil.
27. Ləyaqət – vicdan və mənəviyyatın təza-hürüdür, şəxsi keyfiyyətdir, mənəvi sərvətdir, cəmiyyət üçün isə zinətdir.
28. Cahildən ləyaqət gözləmək – barsız ağacdan meyvə gözləmək qədər faydasızdır.
29. Tərbiyə - əxlaqın mahiyyətidir, onun əbədi substansiyası və başlıca atributudur.
30. Əxlaq hər cür mənəvi dəyərlərin çıxış nöqtəsi və əsasıdır.
31. Əxlaqın cövhəri və binövrəsi tərbiyədir.

32. Əxlaq insana məxsus ən yüksək bəşəri dəyərdir, mənəvi mədəniyyətdir.
33. Zövq əxlaqi mahiyyətdir, estetik mədəniyyətdir, əxlaqdan kənarda kamil zövq ola bilməz.
34. İctimai nöqteyi-nəzərdən əxlaqlı və ləyaqətli adam yalnız o adam hesab oluna bilər ki, Vətən və xalq üçün son dərəcədə dözülməz yara olan, işğal altında inləyən və ata–babalarımızın ruhu uyuduğu torpaqlarımızın azad olunması istiqamətində öz fəaliyyətlərində xüsusi səy, fəallıq və məqsədəyönlülük nümayiş etdirmiş olsunlar.
35. Əsil əxlaq və ləyaqət - vətənin ictimai dərdi ilə yaşamaq və onun rifahı naminə, onun azad, müstəqil və qüdrətli olması uğrunda dönməz mübarizə aparmaqdır.
36. Sadəlik sadədillik deyil, mahiyyətin və ləyaqətin birbaşa təcəssümüdür.
37. İnsanın ən böyük məziyyəti və ləyaqəti onun xeyirxahlığında, səxavətində və ictimai faydalılığındadır.
38. İnsanın varlığı onun cəmiyyətə faydalılığı ilə ölçülür, bağdakı ağaclar da öz sayları ilə deyil, verdikləri meyvə və barları ilə yadda qalır.
39. Varlığını faydalılığı ilə zərurətə çevirməyən insanın təzahürü təsadüf kimi yadda qalır və onun yoxluğu da heç bir təəssüf doğurmaz.
40. Ümumi sərvətdən yalnız öz rifahına və öz eqoist maraqları naminə sui-istifadə etmək ağacın budağına düşmüş ziyanvericilər qədər təhlükəlidir, ləyaqət hissinin yoxluğu və ya korşallaşması, görən gözlərə tor gəlməsidir, ictimai faydalılığın ictimai təhlükəliliyə





çevrilməsidir, varlığın yoxluğa dönümüdür, əxlaq və etika baxımdan ictimai mahiyyətin itirilməsidir.
41. Vicdan Ləyaqətin Ruhudur .
42. Nəzakətlilik – əxlaqın məhək daşıdır, etik normaların zinətidir.
43. Evin böyüyü içmədiyi məclisdə içmək – kiçilməkdir.
44. Ləyaqət böyüyə ehtiramdan başlayır.

## ŞƏXSİYYƏTİN FƏLSƏFƏSİ

1. Şəxsiyyət - düşüncələr üzərində ucalan canlı abidədir.
2. Lider bəzən ona yelkən olmuş adamlardan xilas olmaq iqtidarında olmur və son anda liderlik kürsüsündə özünü açıq dənizdə hiss edən səriştəsi az olan gəmi kapitanı kimi özünü güclü əsən küləyə səmitləşdirə bilmir və nəticədə qəzaya uğramağa düçar olur.
3. Hər bir insan öz tarixini yazmağı bacarmalıdır, bu tarix onun əməllərində və niyyətlərindədir, tarixini yazmağı bacarmayan insan amalsız-dır, o, yalnız qurd kimi özünündür, tək özünün olmaq isə cılızlıqdır.insan hətta tək özünün ailəsinin qayğısıyla və rifahıyla məşğuldursa, bu bütün canlılara məxsus heyvani instiktdir.Amalı yüksək olmaq əsil insani keyfiyyətdir, bəşəri mahiyyətdir, bəşəri olmaq kamillikdir və ya təbii olaraq kamilliyə can atmaqdır.
4. Şəxsiyyət məhz ləyaqət və vicdanın işığında daha parlaq və daha bariz görünür.
5. İşğalçıları və təcəvüzkarları dəstəkləyən qeyri-dövlətlərin rəhbərləri miskin və ləyaqətsiz şəxsiyyətlər kimi nə öz xalqına, nə də özlərinə hörmət gətirə bilməzlər.
6. İşğalçı dövlətləri hətta dolayısı yolla dəstəkləyən dövlətlər və dövlət rəhbərləri – oğru və quldurlara dəstək olanlara bərabər cinayət subyektləridir.
7. Yalnız xalqının ruhu ilə yaşayanlar, özünü xalqdan ayırmayan şəxsiyyətlər əsrlərlə xalqın qəlbində və düşüncəsində yaşaya bilərlər, necə ki, kökü güclü və dərinliklərdə olan ağaclar çox yaşayırlar.





8. Şəxsiyyətlərin nəinki təkcə ictimai, siyasi və bədii yaradıcılığı önəmlidir, onların hətta həyatı da ibratəmiz və əhəmiyyətlidir.Şəxsiyyət-lər həyat drijoruna bənzəyirlər, onlar yaşamaq, yaratmaq və mübarizə hikmətini öz mənalı həyat tərzi ilə nümayiş etdirirlər.Ona görə hər bir konkret dövrlər üçün onların həyat ampulasını öyrənilməsi və tədqiq olunması olduqca faydalı və əhəmiyyətlidir.
9. Şəxsiyyətin ləyaqət hissi, - «mən»i onun üzərinə ciddi və ümumbəşəri məsuliyyət qoyur.
10. Düzgünlük – ağlın, cəsarətin, «şəxsiyyət mən»inin dərki və nişanəsidir.
11.Yaxşı yazılmış bioqrafiya – şəxsiyyətin ensiklopediyasıdır.
12. Dahi bir şəxsiyyətin bioqrafiyası ilə tanış olduqda, görürsən ki, o, özü öz üzərində ucalan möhtəşəm abidədir.
13. Böyük şəxsiyyətlərin bioqrafiyası – böyük tarixlər qədər ibratəmiz, əhəmiyyətli və maraqla oxunandır.
14. Böyük dühaların həyatı – digər insanlar üçün həyat dərsidir, ictimai, siyasi məktəbdir.
15. Şəxsiyyətin meydana gəlməsi özü tarixi hadisədir.
16.Tarix – əslində böyük şəxsiyyətlərin fəaliyyətlərinin səlnaməsidir.

## AĞLIN, ZƏKANIN, TƏFƏKKÜRÜN VƏ İDRAKIN MAHİYYƏT FƏLSƏFƏSİ

1. Heç nə hər şeydən sonradır.
2. Fikrin qüdrəti – ilahi bir qüvvədir və bütün yaranış və svilizasiya bu maddi qüvvənin dialektikasına söykənir.
3. Fikrin qüdrəti sanki işıqdır, öz işığıyla günəş təbiəti canlı və əsarəngsiz yaratdığı kimi, insan da bu işığın nuruyla, cazibəsiylə cəmiyyətdə böyük və cahanşümul işlər yaradır.
4. Mahiyyət – insan ağlı vasitəsi ilə müəyyənləşən gerçəkliyin təzahürüdür.
5. Bütün hər şey – yaradılan ağlın meyarı ilə ölçülür.
6. Ağıl üçün hədd və məhdudiyyət yoxdur.
7. Varlıq yoxluğun təsdiqidir, yoxluq isə var olmüş varlığın təsdiqidir.
8. Yoxluq varlığın kölgəsidir, zülmət – gündüzün və günəşin təsdiqidir.Yoxluq var olanın yoxluğudur, var olmadığı üçün yoxluqdur.
9. Günəşin sönməsi nisbi olduğu üçün varlığın yoxluğu da nisbidir.Nisbilik varlıq və yoxluq arasında olan əlaqə və bərabərsizlikdir.
10. Bərabərsizlik – varlıq və yoxluğun yaradıcısıdır, varlıq konkretdir, yoxluq abstraktdır, nisbidir, nisbi varlıq yoxdur.
11. Bütün əlamətlər nisbidir, az-çox nisbidir, gecə-gündüz nisbidir.
12. Bizim düşüncəmiz qalaktikaya yol almış peykə bənzəyir, ona daim nəzarət etmək və nəticələri təhlil etmək lazımdır.
13. Meyvə vaxtında yetişdiyi kimi, zərurət də konkret vaxtda və konkret məkanda yetişir.





14. Sadə mühakimələrlə mürəkkəb proseslərin mənimsənilməsi /anılması/ dialektik metodun səciyyəvi əlamətidir.
15. Fəlsəfə müdrikliyi və səmimiliyi sevir, siyasət hiyləgərliyi.
16. Ay buludsuzluqda daha aydın parladığı kimi, ağıl da sakitlikdə və təklikdə daha fəal, işıqlı və yaradıcıdır.
17. Təsəvvür təfəkkürün, istedad və xüsusi qabiliyyətin xassəsidir, onların təzahürüdür.
18. Təsəvvür gerçəkliyin abstrakt təzahürüdür.
19. Bizim çəkdiyimiz dərdlər hadisələrin mahiyyətinin açılmasını zəruri edir.
20. Dünyada əsas deyilən bir şey heç də səbəbin şərtləndiricisi deyil və nəticənin məqsədinə çevrilə bilmir, məsələn, yağışın yağmasına səbəb olan buludlar özü nəyinsə nəticəsidir və bu sonsuzluq istənilən qədər davam edə bilər.
21. Belə hesab edirəm ki, mütləq heç nə yoxdur.Bütün mütləqlər nisbidir. Mütləq mahiyyətli olmaq olar, lakin mütləq olmaq qeyri-mümkündür. /Əgər belə demək mümkünsə, dünyada allahdan başqa mütləq yoxdur./
22. İnsanınkamilliyini onun yaşı yox, idrakı və təfəkkürü müəyyənləşdirir.
23. İnsanlar həyatı dərk etdikcə, onun fəlsəfəsini, hikmətini anladıqca elə bil hər dəfə yuxudan oyanırlar.
24.Qəlbin genişliyi – zəkanın gücüdür.
25. Günəş dan yerini işıqlandırıb zülməti qovan kimi, zəka da işıqlandıqca – dərkə qabil olduqca – bütün qaranlıq mətləblər aydın görünməyə başlayır.
26. İnsan ya qoldan güclü olmalıdır, ya da zəkadan, bədbəxt hər ikisindən məhrum olandır.

27. İnsan yalnız zəkanın gücü ilə tamahdan xilas ola bilər.
28. Zəkalı insanın iradəsini qırmaq olmaz, yalnız düşməncəsinə məhv etmək olar.
29. Ağlın məmnunluğu – idrakın sonluğudur.
30. Bütün dərk nisbidir, mütləq dərk olunmazdır.
31. Bizim düşüncələrimiz obyektiv reallığın subyektiv dərkidir.
32. Zəkalı və mənəviyyatlı insan – dolu şüşə qabı kimidir, ən kiçik təsirlə – zərbə ilə onu sındırmaq olar, lakin məğlub etmək qeyri-mümkündür.
33. Dünyanın malik olduğu maddi incəsənət və bütün sənət abidələri insan mənəviyyatının real inikası və insan zəkasının gerçək təcəssümüdür.
34. Mahiyyət – təfəkkürün formalaşdırdığı, idrakın qəbul etdiyi sintetik dəyər formasıdır.
35. Dəyər mahiyyət kəsb edən xassədir, və ya mahiyyətləşən xassədir.
36. Mahiyyət təzahür edən reallıqdır, maddi varlığın məntiqi inikasıdır, təfəkkürün zəkaya keçididir, idrakın intellekt məcmusunu formalaşdırmasıdır.
37. Uzun sürən fəlakətlər insanları qətiyyətli, iradəli və zəkalı edir.
38. İdrak – materiyanın təkamüldə olan inikasıdır.
39. İşin əsil mahiyyəti pərdə arxasındadır, pərdə önündə isə zəif təsəvvürlərdir.
40. Dərk edilənlə hesablaşmalıdırlar.
41. Bizim təsəvvürlərimiz bizim biliklərimizin dalğalarıdır, bizim düşüncələrimiz bizim biliklərimizin məcmusudur, bizim düşüncələrimiz bizim idraki qabiliyyətimizin mahiyyətidir, mahiyyət bizim məntiqimizin substansiyasıdır.





42. Mahiyyət \həm də \ - hər hansı bir prosesdaxili harmoniyaların və müvafiqliklərin atributu və substansiyasıdır.
43. Suyun dərinliyini yoxlamaq üçün suya girmək lazım olduğu kimi, hər hansı bir işin də mahiyyətini anlamaq üçün ona bütünlüklə vaqif olmaq, onu anatomik şəkildə mənimsəmək lazımdır.
44. Böyük inamla demək olar ki, əqli bəşəriyyət təfəkkürünün ibtidası gözəlliyin dərkindən başlamışdır, təfəkkürün ilkin təkamülünün məhz gözəlliyin dərki ilə bağlı olması təbii tarixi prosesdir və gözəlliyin mahiyyətinini də bu təbii prosesdə görmək və axtarmaq lazımdır. Onun /gözəlliyin/ təsvirini verməyə can atmaq idrakın təkamül yolunda ən mühüm ilkin mərhələsidir.
45. Mahiyyət – konkret fəaliyyətin, məqsədli hərəkətin məğzidir, cövhəridir, substansiyasıdır.
46. Fakt olmayan şeydə mahiyyət ola bilməz.
47. Sıx duman qatı altında gözəl və real təbiət durduğu kimi, abstrakt fikirlərin də arxasında konkret və rasional düşüncələr durur.

## SİYASƏTİN FƏLSƏFƏSİ
### «O»

1. O, dağ kimi əzəmətlidir, ancaq dağ təbiətə, o, xalqa məxsusdur.
2. Sıldırım dağ fiziki cəhətdən, o, isə siyasi cəhətdən keçilməzdir.
3. O,əlahiddədir, sanki okeanda ada dövlətdir. Onun özünəməxsusluğu - ulu təbiətin sərt təlatümləri kimi elə bir istisnalıq təşkil edir ki, əgər onun heykəl kimi yonmaq tələb olunsaydı onu tam ifadə etmək üçün heç olmasa Lissipə uyğun heykəltaraş axtarmaq lazım gələrdi.
4. O, səhər danı kimi soyuq, üfüqlər kimi sakit , doğan günəş kimi ılıq və təbəssümlüdür.
5. O,Qalaktika kimi daima sirlidir və onun tədqiq olunmasının böyük elmi və ictimai əhəmiyyəti olması şübhəsizdir.
6. Onun Aysberq kimi həmişə görünməyən tərəfi var.
7. O, dinpərəst deyil, lakin özünü allaha yaxın sayır və özünü onun əbədi himayəçində təsəvvür edir.
8. O, yüksək hafizədə Marksa, diplomatik qabiliyyətdə Bis-marka bənzəsə də, intellektuallığında qeyri-adi bənzərsiz fenomendir.

10. O, hakimiyyətə gələndə ölkədə tüğyan edən ayrı-ayrı silahlı qruplaşmalar xanlıqlar kimi hərə öz məkanını müəyyən etməyə can atırdı, ixtiyar sahibi olmaq iddiasında bulunurdular. Bəzən qəbilə pisxologiyası özünü büruzə verirdi və heç cür idarəçiliyi və tabeçiliyi qəbul etmək istəmirdilər.Düşmənlər isə asanlıqla bu hərci-mərclikdən öz işğalçılıq siyasətləri üçün məharətlə və riyakarcasına istifadə edirdilər. Beləliklə, ilk tumurcuqlarını göstərən, cavan ağac kimi kövrək olan dövlət müstəqilliyimizin səmalarında qara kabuslar dolaşmaqda idilər. O, bu təkəbbürlü və iddialı qrupları - Makedoniyalı İskəndər atı ram edən təki çox ustalıqla və serişte ilə dövlətə və sərkərdə kimi öz iradəsinə tabe etdi və beləliklə o, hazır hakimiyyətə sahib çıxmayaraq, faktiki olarak onu rəqiblərinin və müdaxiləçi niyyyətli düşmənlərinin ağzından - qartal caynağından vurulub salınan bala quş kimi vurub saldı və özü ona sahib oldu, nəticə ehtibarı ilə onun mənəvi və hüquqi varisi və xilaskarı oldu.

11. O, həyatının ahıl yaşında hakimiyyət piramidasının ən yüksək zirvəsinə elə ustalıqla qalxdı ki, hakimiyyət hərisləri əyalət şahmatçıları kimi sanki beynəlxalq qrosmeyster yanında mat qaldılar.

12. O, hər halda ona edilən sonsuz təkid və xahişlər nəticəsində zamanına görə döyüşən hakimiyyət cəbhəsinə - gəldi və bu gəlişi ilə sanki tufan qarşısında lərzəyə gələn tale yüklü böyük bir gəmini kiçik itki verərək xilas etdi.

13. O, öz fenomen ağlı ilə ən çətin anlarda belə təbəssümünü itirmir, lakin bu təbəssüm çox vaxt görünmür.

14. O, müdrikdir və bu müdriklik bilavasitə onun siyasəti ilə sıx çuğlaşmış praktik əməlindədir.

15. O, heç vaxt bir mənalı qarşılanmır,ədəbiyyat və incəsənətdə yaranan ədəbi cəryanlar kimi o, da siyasətə standart olmayan yeni təfəkkür tərzi ilə yanaşır və həmən ədəbi cəryanlar kimi ilk anlarda çətin qavranılırdı.

16. Ana öz oğlunu sevdiyi kimi, xalq da onu sevir, məzəmmət – məhəbbətin ifadəsidir, - təzahürlərini , bu normal ailə əxlaqını o, həkim soyuqqanlığı ilə qarşılayır və təqdir edir.
17. O,əsrin tarixi proseslərinin fəal iştirakçısı, yaradıcısı və mürəkkəb siyasi düyünlərin mahir açıcı ustası idi.
18. O, XX və XX! əsrin kəsişdiyi bir dövrdə tam müstəqilliyə meyllənmiş Azərbaycan dövlətinin siyasi tarix səlnaməsində öz şərəfli yerini qəti müəyyənləşdirmiş mübariz öncüllərinin praktik lideridir.
19. O, siyasi tarix səhnəsinin həm müəlliflərindən, həm də rejisorlarından biridir.
20. O, siyasi tarix xronologiyasında öz parlaq və analitik zəkası ilə ən müdrik və ən mahir natiqlərdən biridir.
21. O, sanki döyüşən və mühasirəsi səngiməyən qalanın sınmaz sərkərdəsidir.
22. O, çox da böyük olmayan gəmi ilə açıq dənizə çıxmaq zərurətində qalan kapitana bənzəyir və o, dəmir iradəsiylə, kamil səriştəsiylə bu gəmini aramsız dalğaların amansız cəngindən və sərt ayalardan qoruyaraq müqəddəs və mütləq inamla sahilə aparır.
23. O, ötən quruluşa münasibətindən asılı olmayaraq Azərbaycan dövlətçiliyi tarixində və onun səlnaməsində konkret bir dövrün və epoxanın elə bir siyasi şəxsiyyəti olmuşdur ki, hətta sonralar baş verən siyasi qalmaqallar tufanı belə onun müvazinətini poza bilmədi, Azərbaycanın xan çinarı kimi öz vüqarını qoruyub saxlayaraq, o, oradan – ziddiyyətli diplomatiya müharibəsindən qalib çıxan görkəmli sərkərdə oldu.
24. Onun həyatı və siyasi fəaliyyəti «siyasi iradə nümayiş etdirmək» terminin ən gözəl izahı və praktikasıdır.





25. O, cəmiyyətdə yaranan ehtiraslı neqativ hallara ehtiraz etməsi, onun özünün o şəraitlərin məlum mənbələrinə etiraz etməsidir, lakin imkanından kənar olduğundan həllinə konkret vaxta qədər qadir olmadığını etiraf etməsi onun siyasi cəhətdən zəif gösiərərdi.
26. O, o qədər yuxarıda görünür ki, adama elə gəlir ki, onun fəth etdiyi zirvə digərləri üçün əlçatmazdır.
27. Onun okean gəmisinin kapitanı kimi diqqətli və səriştəli olması onun böyük uğurlarının zəminidir.
28.«Sizdən güc alır, sizi Uzaqdan seyr edənlər» Nitsşenin bu sözləri ona çox yaraşır.
29. Onun siyasi arenada təkrarsız liderliyi onun təfəkkürünün parlaqlığını və idrakının qüdrətini şərtləndirir.
30. Onun beynəlxalq nüfuzu bir çox siyasi keçidlərinin açarıdır.
31. O, ağır iqtisadi, siyasi, ictimai sınaqlardan çıxmış şəxsi əqidəsini qalib sərkərdə kimi bütün fikirlərdən daha üstün və məqbul tutmaqda haqlı olduğunu reallığın sərt üzü ilə dəfələrlə sübüt etmişdir.
32. O, ona qarşı hər hansı bir müqaviməti - zireh geymiş güclü döyüşçüyə atılan daş kimi - soyüqqanlıqla qarşılayır.
33. O, memar kimi yorulmazdır, iti axan çay kimi qırılmazdır, qartal kimi dönməzdir.
34. O, hazırkı vəziyyətdə cəng yolu ilə müharibədən daha çox sülh yolu ilə müharibəyə, - diplomatiyaya daha çox üstünlük verir və beləliklə də böyük düşmənlərin müharibəyə təhrik edən avantürist planlarını alt-üst edir.

35. Onun çoxillik zəngin dövlətçilik təcrübəsi və səriştəsi onun elmi və təfəkkürü ilə elə bir-birini tamamlamışdır ki, nəzəri cəhətdən qeyd edilən əbədi, təbii, rəsmi və ilahi qanunları praktiki cəhətdən demokratik müstəvidə bərqərar etmişdir.
35. O, memar kimi monumentallığı sevir və eyni zamanda o, siyasətin monumentallığının mahir yaradıcısı və praktiki cəhətdən onu reallaşdıran yeganə liderdir.
36. Onun siyasəti - güclü və iti axan çay kimi qarşısında zəif nə varsa sıyrıb aparır və elə bir dərinlik yaradır ki, özü-özünə sahil olur, daşmaq ehtimalını aradan qaldırır.
37. O, siyasət anatomiyasını hər hansı bir cərrah alimin insan anatomiyasını bilməkdən daha gözəl və daha mükəmməl bilir və öz siyasi kursunda da bu təbii qanunauyğunluğu qoruyub saxlamağa çalışır.
38. Onun ümumi siyasətin əsasını beynəlxalq reallıq prinsipi müəyyən etsə də, dövlətdaxili siyasətinin əsasını ədalət və ədalətlilik prinsipi müəyyən edir.
39. O, çoxillik siyasət təcrübəsindən bilir və ona əsaslanır ki, coşqun və qızğın təbiətli bir xalqın pozulmuş hüquqlarını bərpa etmək böyük qabiliyyət və səriştə tələb edir və bu ədalətsizliyi aradan götürmək üçün o, öz siyasi təfəkkürünün olimpik zirvəsinə qalxmışdır.
40. O, xalqın ümidini mübariz ruha çevirmək istəyir, onu canlı və coşqun görmək istəyir, çünki ümidini itirmiş bir adam və ya bir xalq mübariz ola bilməz, mübariz olmadan öz ədalətli hüquqlarını bərpa etmək olmaz.
41. Mübariz olmayan bir xalqın iqtidarı və onun lideri kürsüdə davam gətirə bilməz. Ona görə də o, xalqın





mübariz ruhunu qoruyub saxlamaqla eyni zamanda dünya xalqları və dövlətləri arasında həm müstəqil respublikanın, həm də – bir siyasi lider kimi özünün nüfuzunu qoruyub saxlamış oldu.
42. O, insanların bəsit düşüncələrinin tənqidinə ona görə «məruz» qalır ki, onların düşüncə tərzindən əsaslı olaraq fərqli, qeyri-standart fikirləşir və buna görə də nəinki sadə adamları, siyasətçiləri, siyasi rəqiblərini, hətta qeyri dövlətlərin rəhbərlərini də təəcübləndirə bilir.
43. Ay işığının gücü günəşdə olduğu kimi, onun da siyasətinin gücü xalqla sıx təmasda və onunla həmahəng olmağındadır.
44. Onun qəlbinin cövhəri siyasətdir, onun siyasi təfəkkürü filosof müdrikliyindən daha uzaqgörən və daha praktikdir.
45. Onun siyasi durumu və siyasi görümü mümkün təhlükəni hələ rüşeym halında aşkarlayır və qətiyyətlə neytrallaşdırır.
46. Onun təfəkkürünün fəallığı və çevikliyi siyasi gerçəkliyin mümkün sərtliyini və çalarlarını ardıcıl olaraq vaxtında və məqamında - hələ rüşeym halında təzahürünü görür və qanunauyğun surətdə onu balanslaşdırır.
47. O, hər hansı çevriliş və ya sui-qəsd cəhdlərini başlanğıcında görüb və qarşısını almaqla - sanki daşmaqda olan axar bir çayın vaxtında bənd-bərələri möhkəmlətməklə öz təbii axarında və məcrasında saxladığı kimi, onun fəlakətə çevrilməsinə imkan vermir.
48. O, atəşsiz əldə olunan, lakin uzun çəkən qələbəni, tezliklə, lakin ağır itki ilə əldə olunan qələbədən daha üstün və daha məqbul sayır, yəni rəhbər xalqın mübariz ruhunu saxlamaqla onu axan bir çay kimi

lazımi səmtə yönəltməklə öz hakimiyyətini - xalqın müqəddəs ehdimadının sinvolunu – təhlükəsiz qoruyub saxlamaqla və eyni zamanda dünya xalqları və dövlətləri arasında həm öz dövlətinin, həm də siyasi lider kimi özünün nüfuzunu qoruyub saxlamış olur.

49. Adama elə gəlir ki,o, hakimiyyət piramidasını demokratik əsaslar tam nəzərə alınmaqla və ilk formal baxışda həndəsi forma ehtibarı ilə Qədim Misir ehramları formasında qurmuşdur. Belə ki, yuxaprdan aşağı, aşağıdan isə yuxarı çox aydın görünür və biri-birini bu struktur obyektləri hətta sözsüz başa düşürlər. Ölkədaxili hakimiyyət elə bir klassik formada yaradılmışdır ki, onun ağırlıq mərkəzi üstqurumdan çox ağır və möhkəm olaraq, nəzəri və forma cəhətdən Moskvanın «Ostankino» qülləsini xatırladaraq, Roma Papasının minillik dövlət strukturu kimi yıxılması qeyri - mümkün hesab edilə bilər.Hakimiyyət idarə usulunu müəyyən etməyə gəldikdə isə Platonun «Dövlət» və Aristotelin «Siyasət» əsərlərində göstərilən klassik dövlət İdarəçiliyi olan aristokratik və demokratik dövlət idarə formalarının sintezində axtarmaq lazımdır.

50. O, özünü hər cür qəsdlərdən qorumağa qadir olduğuna görə ölkəni qorumağa qadirdir, çünki o, ölkənin və dövlətin canlı simvoludur.

51. O, siyasətin deyil, siyasə onun ruhu və əlində dönməz bir vasitədir.

52. O, dövlət müstəqilliyinin dönməzliyini qoruyub saxlamaq üçün qeyri – məqbul heç nəyi hesab etmir.

53. Onun geri çəkilməyi məğlubiyyət təzahürü deyil, yeni və qəti tədbirlər üçün ərəfə və zəmindir.

54. O, daim çevik sabit hərəkətdə görünür, sanki həyatın axarını qabaqlamaq istəyir.





55. Fəzada ulduzlar çox olsa da, bizim üçün Vnera \Zöhrə\ ulduzu hamısından parlaqdır və o həmişə günəş çıxana qədər parlayır. O da, xalqın gözündə Vnera ulduzu qədər parlaqdır, onun parıltısından sanki insanlar üçün ümid yağır və insanlar bundan çox məmnunluq duyurlar, onun tam müstəqilliyə doğru mübarizəsini, siyasi əzmini səbr və dözümlə seyr edirlər, daha xoş gününgələcəyinə – səadət günəşinin doğmasına mütləq inamla yaşayırlar.

56. O. dövlət rəhbəri və xalq lideri kimi anlayır və başa düşür ki, dövləti ağacın gövdəsinə, ailələri onun budaqlarına bənzətmək mümkündürsə, onların rifahı da dövlət siyasətinin real nəticəsi və bəhrəsidir.

57. Onun paytaxtına, - doğma Bakıya olan münasibətini Napoleonun gözəl Parisə sevgisi və sədaqəti ilə müqayisə etmək istərdim. Buz altından çıxmış təzə axan çay kimi, - illərin dəmir əsarətindən çıxmış müstəqil dövlətinə münasibətini isə \daha doğrusu məhəbbətini \Prometeyin insanlara xeyirxah sədaqəti və məhəbbəti ilə müqayisə etmək istərdim.

58. Onun xalqa verdiyi ümid sanki mahir bir sənətkarın əlində əməli surətdə gördüyü bir işin konkret nəticəsini qabaqcadan cörüb və ona əsaslanan intiutiv duyğuların reallığına inamın ifadəsidir.

59. O, siyasətin memarıdır, siyasi dövlət quruculuğunur memarıdır və bu sahədə gördüyü işlər reallığa uyğun olaraq mahiyyət ehtibarı ilə Aristoteldən bəri təsvir və təqdim edilən dövlət quruculuğu sahəsində nəzəriyyələrin yaradıcılıqla, müasir dövrün və konkret bir xalqın spesfikası nəzərə alınmaqla konkret bir

dövrdə və konkret bir dövlətdə praktikada ən ehtibarlı və ən uğurlu tətbiqidir.

60. O, bir dəfə belə dedi: - bir də görürsən bir stol yolun üstündədir və onun yanından ötüb keçənlər onu götürüb kənara qoymaq əvəzinə stolun yerində olmadığını xüsüsi əda ilə bildirirlər, və bir nəfər tapılır ki, o stolu kənara qoymaq istəyir və o, stolu götürərkən təbii olaraq səndələyir və həmin kənardan baxanlar tələsik öz iradlarını bildirirlər ki, görürsən , o , səndələyir, stolu düz götürməyib,yəni bir çoxları ümumi fayda üçün iş görməyə təşəbbüs göstərmirlər, təşəbbüs göstərib iş görənlərə də yerli-yersiz irad tuturlar və heç şübhəsiz bu sözlərlə o, öz siyasətinə münasibəti açıqlayırdı.

61. O, ölkədə dinc həyatı bərpa etməkdə ölkəni labüd parçalanmadan xilas etməkdə, maliyyə işlərini qaydaya salmaqda, ölkədaxili nizam-intizam yaratmaqda Roma imperatoru, stoizm fəlsəfəsinin görkəmli şəxsiyyətlərindən biri olan Mark Avrelidən heç də az əhəmiyyətli iş görməmişdir.

62. Onun sadə görünən taktikaları böyük strateji məqsədlərə xidmət edir, necə kiçik sular böyük çayları yaradır.

63. Onun təqdim etdiyindən xalq daha çox şey istəyir, - təbii olaraq arzu reallıqdan daha yüksək olur, - lakin onun bu gün gördüyü işlər təzə əkilən ağac tinginə bənzəyir və onun xalqın və dövlətin rifahı naminə eləmək və görmək istədikləri xalqın sadə istəklərindən qat-qat yüksəkdir və bu onun üçün sadə arzu deyil, qarşıya qoyduğu qlobal və siyasi cəhətdən məqbul məqsədlərdir.





64. Onun varlığı dövlətin varlığı ilə o qədər mökəm çulğalaşmışdır ki, gözəl və möhkəm bir ailənin başçısı ailədən ayrı təsəvvür olunmadığı kimi o, da xalq rəhbəri kimi xalqdan ayrı təsəvvür olunmazdır.

65. O, böyük iradə və səbirlə xalqı çox ağır və soyuq şaxtalı qışdan çıxarmağa çalışır, xalqın düçar olduğu maddi məhrumiyyətlərdən xilası yolunda əngəlliklər – daxili və xarici siyasi sərt avanturizmlər onu heç cürə yolundan sapdıra bilmir və o, qalib sərkərdə kimi yalnız irəliyə addımlayır.

66. O, siyasi hakimiyyətin qüdrətinə və sabitliyinə iqtisadi bazanın zəruri mütləqliyini bir mənalı qəbul edir, lakin həmin iqtisadiyyatı tam üfüqi inkişaf etdirmək üçün iqtisadi və siyasi şəraitə hələ ki, tam zəmin yaranmadığından o, iqtisadi inkişafın şaquli istiqamətinə müvəqqəti olaraq üstünlük verir, çünki hər hansı əzəmətli bir bina möhkəm özül tələb etdiyi kimi, cəmiyyətin də inkişafının qeyri-proporsional , lakin zəruri olan bu inkişafa üstünlük vermədən dövlətin strateji maraqlarına və məqsədlərinə nail olmaq və müstəqil dövlət quruculuğunun bünövrəsini möhkəmlətmək olmazdı.

67. O, sonsuz zaman intəhasızlığında konkret vaxtda və konkret məkanda maksimum qüvvə ilə iqtisadi, siyasi və bütün sosial sferalarda irəlləyişə nail olmağa fəal səy edir, lakin tufanlı dənizdə hətta okean gəmisinin irəliləməsi son dərəcədə çətin olduğu kimi, o, da hər dəqiqə, hər saat, hər gün ciddi və radikal müqavimətlərlə üzləşir, lakin sayıq və səriştəli gəmi kapitanı kimi gəminin idarəçiliyini bir an belə itirməyərək çox böyük inadkarlıqla, insan zəkasının malik ola biləcəyi maksimum qüvvə və bacarıqla

özünün könüllü olaraq götürdüyü milli yükü sonrakı nəsillərə zədəsiz və tam halında ərmağan etməyə çalışır.
68. Onun döyüş sərkərdəsi kimi - dostlarına yox, siyasi əqidə tərəfdarlarına daha çox önəm verir.
69. O, ancaq güclülərlə mübarizəni sevir, çünki cəngavərə sadə döyüşçü ilə döyüşmək gülünc görünür.
70. O, tək başına döyüşən siyasət cəngavəridir.
71. Onun dünya siyasətində ölkəsinin - müstəqil Azərbaycanın rolunu və mövqeyini qəti müəyyən edib bərkitmək istəyi cəngavərlərin xüsusi təhlükəli sınaq qurğularından keçərək cəngavərlik statusuna malik olmaq üçün apardığı ardıcıl, inadkar və dönməz mübarizəsinə bənzəyir.
72. O, hakimiyyət və siyasət institutlarının \təsisatlarının\ elə bir mahir ustasıdır ki, öz səriştəliliyi ilə müqayisədə indiki bir çox siyasətçilər onun yanında ən yaxşı halda insitutların diplomantlarına bənzəyirlər.
73. Onun dövlətində lemokratiya onun hakimiyyətinin yaşıdı olan uşaq kimidir və o, bu uşağın – məsum demokratiyanın inkişafına və qayğısına qalmaqla, eyni zamanda lokal xarakterli döyüşlər aparır, lakin təslim olanları bağışlayır.
74. O, Makedoniyalı İsgəndər kimi – lakin ondan fərqli olaraq siyasət döyüşündə – onun ordusunda fəal mübarizləri kifayət qədər görür və qiymətləndirir.
75. O, ona qarşı çevrilən sui-qəsdlərin «anatomik» mənbəyini asanlıqla sezir və qartal kimi «ilanları» parçalayır.





76. O, Makedoniyalı İsgəndər kimi rəqiblərinin yalnız hökmdar olmasını arzulayır və çətin qələbələrdən məmnunluqla fərəhlənir.
77. O, möhtəşəm iş görməyə can atır, lakin elə bil həmişə su altı burulğanlar kiçik qayığı sahilə yan almağa imkan vermədiyi kimi, eləcə də mütəmadi olaraq, təbii ki, çox hallarda siyasi və ictimai problemlər onu başladığı işi vaxtında sonuna yetirməyə mane olur.
78. O, öz gücü və qüdrətilə yenilməz bir qalaya və dövlətə bənzəyir,Aristotelin təbirincə desək «uzaqda olanda da» o, - Napoleon kimi – «qorxu yaradır».
79. O, qalib gəlməyi bacardığı üçün qarşısındakının acizliyini bilərək hücum etmir, yetişməmiş yaranı vaxtından əvvəl deşmir.
80. O, öz iradəsiylə bəxti kölgədə qoyur, əslində onun leksikonunda bəxt sözünə rast gəlmək mümkün deyil və ümumiyyətlə bəxtə güvənmək və həyatını taleyin ümidinə qoymaq zəif adamların işidir və o, bilir ki, qələbə sərt döyüşlərdə və coşqun mübarizələrdə qazanılır.
81. O, öz elmi, siyasi düşüncə tərzini mütəfəkkir kimi cilalaya-raq onu elə bir mütləq məntiqi nəticəyə çatdırmışdır ki, ay nuruyla qatı zülməti işıqlandırdığı kimi, onun aydın, analitik təfəkkürü və dərin zəkası da ən çətin siyasi burulğanlardan və dövlət əhəmiyyətli mürəkkəb diplomatik proseslərdən onu ən azı məğlubiyyətsiz çıxarır.
82. Onun siyasət strategiyasının konturları spektirial çoxcəhətliyə, milli koloritə, tarixi əhəmiyyətə və elmi mahiyyətə malikdir.
83. Adama elə gəlir ki, ondan o tərəf yoxdur.

84. Siyasət dili · adi danışıq dilindən və memarlıq əsərləri sayılan binalar adi tikintilərdən necə fərqlənirsə, o, da siyasi və dövlət qurucusu olan bir şəxsiyyət olmaq ehtibarı ilə nəinki adi vətəndaşlardan qat-qat fərqlənir, hətta siyasətçilər arasında siyasi tarixdə barmaqla sayıla bilən şəxsiyyətlər sırasının öncüllərindəndir.
85. O, dahi bir siyasətçi olmaq ehtibarı ilə özü haqda heç vaxt danışmasa da, o, əsrin ən görkəmli siyasətçiləri sırasında ən fəxri yerlərdən birini tutmağa ən ləyaqətlidir.
86. O, artıq bənzəyəndən çıxıb bənzədilənə keçib.
87. O, artıq siyasi şəxsiyyət olmaq ehtibarı ilə tarixləşmiş və abidə kimi tarixin müliyyətinə keçmişdir.
88. O, siyasi səriştəsi və diplomatik qabiliyyəti ilə dünya tərəfindən ehtiraf edilmiş, ümumi svilizasiyanın inkişafında öz xüsusi dəsti-xətti ilə seçilən və bu sahədə fəaliyyəti tarixi-elmi şəkildə təsdiq edilmiş möhtəşəm və qüdrətli şəxsiyyət kimi hətta sağlığında heykəlləşmiş və heykəltaraşların tarixi və monumental abidələrinə – əsərlərinə çevrilmişdir.
89. O, şöhrətin yox, şöhrət onun kölgəsidir.
90. O, canlı olaraq heykəlləşir və inamla demək olar ki, onun qılınc kimi kəsərli və mütləq idrakının son nəticəsi olan siyasəti onun monumentallığını qoruyub saxlayacaqdır.
91. Onun siyasəti nəticəsində ölkə \Azərbaycan\ dünya svilizasiyasının qovşağındadır, lakin bu çox mürəkkəb proses son dərəcədə ağır vəziyyətdə olan xəstə üzərində çətin cərrahiyyə əməliyyatına bənzəyir.
92. O, əlahiddə bir şəxsiyyət kimi, müqayisədə kiçik dövlətin böyük başqanı kimi hətta böyük dövlət başçıları arasında belə son dərəcədə popluyardır və onunla





görüşən bütün dövlət rəhbərləri və xadimləri əvəzsiz bir məmnunluq duyurlar.
93. O, memarlığı – incəsənəti, daşdan yonulmuş tarix yaddaşını sevir və dəstəkləyir və o, bunu praktikada dəfələrlə təsdiq etmişdir və özü də hər şeydən öncə mürəkkəb siyasət qurucusu kimi tarixin unudulmaz yaddaşına çevrilir.
94. O, başqa dövlət rəhbərləri ilə müqayisədə siyasi hərakat marafonunu uğurla başa çatdırmaq üçün mübarizədə əlində Olimpin odu ilə yanan məşəllə növbəti Olimpiya oyunlarının keçiriləcəyi meydanda oyunun startını vermək üçün siqnal olan məşəli yandırmağa tələsən fəxri çempiona bənzəyir.
95. Əzəmətli və möhkəm özüllü qalalar adi binalardan necə fərqlənirsə, o da, adi adamlardan öz xarakterinin və idrakının fenomenliyi ilə fərqlənir.
96. O, canlı ikən müqəddəsləşən və bu müqəddəslik əslində bir çox yaradıcılar kimi mahir bir heykəltaraşın da ruhunu əsir edən, ilhamlanmış təxəyyülünün ideal obrazına çevrilən və bu obrazı daşda mahir ustalıqla canlandıran, tarixləşən bədii əsərinin bənzərsiz təcəssümüdür.
97. O, bu günlə müqayisədə gələcək illərin qat-qat indikindən artıq yaranacaq əsərlərin canlı materialı kimi son dərəcədə diqqətlə, qayğı ilə öyrənilməli, siyasi tarixin əbədiyaşar, örnək ola biləcək, öyrədən, öyrənilməyə mənəvi haqqı olan təqdirəlayiq və diqqətçəkən canlı klassik materialıdır.
98. Onun tarixi şəxsiyyət kimi həyatı ibratəmiz və əhəmiyyətlidir.Şəxsiyyət – xalqın həyat drijoruna bənzəyir. O, özü yaşamaq, yaratmaq və mübarizə hikmətini öz yaşayışı ilə nümayiş etdirir.Ona görə

bütün dövrlər üçün onun həyat tərzinin öyrənilməsi olduqca faydalı və təqdirəlayiqdir.

99. O, bir nəhr kimi təbii olaraq özü özünün sahilidir.

100. O, öz xarakterinin sərtliyi və bütövlüyü, şəxsiyyətinin əzəmətli qüdrətinə görə sığallı cümlələrə sığan deyil. Məgər dağların əzəməti onun sıldırımlığında, keçilməzliyində, asan fəth olunmazlığında deyilsmi? Məgər sığallı monumental memarlıq əsərləri varmı? Məgər təbiətin gözəlliyi və bütövlüyü onun xarakterinin həm də çoxcəhətliliyində – sərtliyində, küləyində, qarında, şaxtasında, tufanında deyilmi? Məgər Kür çayının şöhrəti, axarlı-baxarlı olması, seyrangaha çevrilməsi onun kürlüyündə deyilmi? Məcrasından çıxmayan böyuk çaylar olurmu?

101. O, vaxtın sərt tələbinə müvafiq olaraq yalnız və yalnız öz səriştəsinə və təcrübəsinə, geniş fenomen zəkasına arxalanaraq tufanlı bir gündə okeana yola çıxmağa məcbur olan okean gəmisinə və onun cəsur kapitanına bənzəyir və son mənzilə çatacağına yəqinliklə və qətiyyətlə inanaraq, irəliləyir.

102. O, Olimpiya məşəli kimi xalqın, dövlətin və ümumi inkişafın canlı sinvoludur.

103. O, böyük bir epos kimi sözə sığmır.





## İQTİSADİYYATIN FƏLSƏFƏSİ

1. Siyasi müstəqillik iqtisadi müstəqilliyin,iqtisadi müstəqillik ictimai müstəqilliyin açarı və bütün mənəvi dəyərlərin inkişafının stimuludur. Müstəqillik dövründə təbii ki, ölkə iqtisadiyyatı yenidən doğulur və ictimai mühitlə birgə formalaşır.Lakin böyük imperiya caynağından azad edilmiş siyasi müstəqillik əsirlikdən azad olmuş insan kimi yaralı vəziyyətdə olur və buna baxmayaraq həmən dövrdə siyasət iqtisadiyyatı müəyyənləşdirən başlıca atribut olur.

2. Xarici investitsiya zəruri olduğundan çox iqtisadiyyata buraxıldıqda o harınlamış mikro-imperiya kimi bizim imkanlarımızı üstələyir və nəticə ehtibarı ilə ictimai fasadların törəməsinə bilavasitə səbəb olur və bu ictimai ehtirasları qızışdırır və haqlı olaraq ehtirazlara səbəb olur.

3. Hər bir ağacın inkşafı torpağın münbitliyindən, təbii-tarixi iqlim şəraitindən nə dərəcədə asılıdırsa, hər bir cəmiyyətin,- konkret olaraq hər hansı bir dövlətin inkişafı da onun iqtisadi bazisindən,təbii xammal ehtiyyatının səviyyəsindən,istehsal vasitələrinin elmi-texniki naliyuətlərdən nə səviyyədə yararlanma-sından, intellektual səviyyənin svilizasiyanın indiki mərhələsinə müvafiqliyindən başqa, həm də milli mənliyin nə dərəcədə qorunmaq instinktintinin güclü olmasındar asılıdır.

4. İstehlak istehsalın hüdüdüdur, - axan çayın sahili olduğu kimi.

5. Hətta ən yüksək mənəvi svilizasiya ən barbar, lakin güclü iqtisadi qüdrət qarşısında məsum körpə uşaq kimi gücsüzdür.

6. Dövlət əsil mənada güclü sənaye istehsalına malik olmayınca öz asılılığını və xalqın məzlumluğunu xilas etmək iqtidarında ola bilməz.
7. Məhsuldar qüvvələr dövlətin iqtisadi əsası olmaqla yanaşı oradan doğan ictimai münasibətlər dövlətin möhkəmliyinin və sabitliyinin mütləq şərti və atributudur.
8. İstehlak – istehsalın stimulu və tənzimləyicisidir.
9. İstehlak – istehsalın mahiyyət faktorudur.
10. İqtisadi inkişafı müəyyənləşdirən iki atributa diqqət yetirmək vacibdir, - birincisi fərdi təsərrüfatın biznes fəaliyyəti və ikincisi dövlətin strateji iqtisadi siyasətini reallaşdıran iqtisadiyyatın dövlət sektoru və ya bilavasitə onun nəzarətində olan istehsal sahələri ki, birincinin inkişafı özünün minimum ehtiyaclarının ödənməsi başa çatdıqda təbii olaraq eqoist niyyətlərin yaranmasına səbəb olursa,ikinginin inkişafı ümumi rifah məqsədi daşıyır və insanların cəmiyyət qarşısında öz əhəmiyyətini və mahiyyətini açmaqda son dərəcədə önəmli rol oynayır.
11. Nə qədər ki, iqtisadi fəaliyyətin nəticəsi vasitəyə yox, məqsədə xidmət edəcəkdir, insanlar bir o qədər itirəcəklər və iqtisadi sitimul mənəvi deqeradasiyanı şərtləndirmimş olacaqdır.
12. Zəka – iqtisadi amildir və bütün elmi-texniki inkişafın mütləq şərtidir.
13. İnsanın əmək fəaliyyətini maddi ehtiyacın məngənəsindən xilas etmək lazımdır, onun təfəkkürünə azadlıq və sərbəstlik vermək lazımdır, onun fəallığını və səylərini elmi potensiala çevirmək lazımdır ki, onun əməyi və yaradıcılığı daha çox fayda gətirsin.





14. Elmin ümümi nailiyyətini intensivləşdirmək üçün və onu cəmiyyətin ehtiyaclarını daha dolğun ödəməsi üçün elə etmək lazımdır ki, onunla məşğul olan insanların şəxsi ehtiyacları onların təfəkkürünü məşğul etməsin.
15. Cəmiyyətin ümumi tarixi inkişafı göstərir ki,insanlar iqtisadi asılıqdan nə səviyyədə azad olublarsa, svilizasiyanın və konkret bir xalqın və dövlətin ümumi inkişafında konkret yaradıcı faktlar bir o qədər müvafiq olaraq özünü göstərmişdir.
16. Elm iqtisadi faktordur və eyni zamanda siyasəti müəyyənləşdirən vacib atributlardan mühümüdür və dövlət onu nə səviyyədə stimullaşdırırsa, o səviyyədə də onun iqtisadi qüdrəti və beynəlxalq nüfüzu olacaqdır.
17. Dövlətin iqtisadi strateji maraqları ayrı-ayrı intellektual fərdlərin zəkasının məcmusundan bilavasitə asılıdır və ondan səmərəli istifadə etmək – faydalı iş əmsalının maksimuma yüksəldilməsidir.
18. Xalqın bütün təbəqələri dövlətin iqtisadi siyasətinin bəhrəsindən faydalanmalıdır,əks halda deməli bu siyasətin kamilləşməsinə böyük zərurət var.
19. Xalqın iqtisadi marağı dövlətin iqtisadi marağının əsasını təşkil etməlidir və bu strateji siyasətdən geri çəkilmək xalqdan və onun müdafiəsindən məhrum olmaqdır.
20. Yalnız elmi biliklərdən doğan ideyalar,yeni fikirlər – münbit torpaqlarda becərilən ağaclar kimi öz iqtisadi səmərəsini verə bilər.
21. İqtisadiyyatı siyasi buxovlardan azad etmədən o cəmiyyətin rifahına fəal xidmət edə bilməz.

22. İqtisadiyyat hamının və hər kəsindir,ona malik olmaqda hamı bərabərdir,hamı eyni şərtlərlə və bərabər şəraitdə işləməlivə əməklərinin nəticəsinə sahib olmalıdırlar.
23. İqtisadi şəffaflıq – siyasi sabitliyin zəminidir.
24. İqtisadiyyatın ədalətli idarəçiliyi cəmiyyətin sosial durumunun və inkişafının ilkin şərtidir.
25. Maddi rifah – iqtisadiyyatın şəffaflığının aynasıdır.





## ELMİN, BİLİYİN, TƏCRÜBƏNİN VƏ NƏZƏRİYYƏNİN FƏLSƏFƏSİNDƏN FRAQMENTLƏR

1. Elm – bütün nailiyytlərdən istifadə etməsinə baxmayaraq memarlığa əsaslanmayan hər hansı inşaat işi çox cılız görünə bilər.
2. Estetikasız elmi nailiyyət və istehsal - ibtidai insan alətlərini xatırladardı.
3. Ağıl və düşüncə bütün elmlərin açarıdır.
4. Elm – ağlın,düşüncənin və idrakın əks-sədasıdır.
5. Elm–reallığın və gerçəkliyin insan ağlı, zəkası,və idrakı vasitəsi ilə məntiqi qavranılmasıdır.
6. Elmin hamar yolunda heç bir tapıntıya nail olmaq olmaz, lakin hamr yoldan ayrılan hər bir elm fədaisi öz cığırı və izi ilə konkret və müəyyən uğurlara gedib çıxa bilər.
7. Alim və filosoflar arılar bal tutmaq üçün müxtəlif növ çiçəklərdən, təbiət nemətlərindən şirələr çəkdikləri kimi, - onlar da bütün faydalı ömürləri ilə böyük həvəs və ehtirasla ən mühüm bilikləri nəinki əxz edirlər,habelə onları tədqiq və təhlil edərək, yeni kəşflərlə və elmi qənaətlərlə zənginləşdirərək elmin xəzinəsinə əvəzsiz töhfələr verirlər, bütün bunların əvəzində isə onların maddi faydasını – arıçının yığılmış şanını kəsib götürdükdən sonra arıların və beçələrin ölməməsi üçün saxlanılan payla müqayisə etmək olar.
8. Çay mənbəyinə görə axar, insan biliyinə görə baxar.
9. Dünyagörüşü – fərdin konkret dövr ərzində konkret elm sahələrindən əxz etdiyi intellektik spekterial biliklər məcmusunun xüsusi qabiliyyət və istedadla elə birgə

sintezidir ki, sanki uzun illərin fədakar zəhməti müqabilində yaradılmış möhtəşəm abidə cəmiyyətə son mütləq qənaət kimi təqdim edilir.
10. Elmin ilk əsası təcrübədir, yalnız təcrübələrə əsaəlanmaqla elm daha yüksək nailiyyətlərə və daha mükəmməl nəzəriyyələrə malik ola bilər.
11. Bilik və elm reallıqlardan əxz olunan, qavranılan mahiyyətdir.
12. Elm – biliklərin təcrübə formasına əsaslanan, biliklərin özlərini əsaslandıran və sintezləşdirən, ona nəzəri forma verən tədqiqatların nəticəsidir.
13. Elm də həyatın özü kimi təkamül və inqilabi proseslərin çıxış nöqtəsi, epiloqudur.
14. Həyat – elmin qaynağıdır.
15. Elm – idraki proseslərin törəməsidir.
16. Elm məntiqin uverturasıdır.
17. Məntiq - elmi analitikadır, idrakın qlobal fəaliyyətinin arxitekturasıdır.
18. Elm – əslində yeni yaratmaq və yeni yaradılan mahiyyət deməkdir.
19. Elm – görünənin mahiyyətinin, görünməyənin sirrinin açılmasıdır.
20. Elm – görünməyəni, lakin fərz ediləni axtarmaqdır.
21. Təfəkkürün intensiv fəaliyyət qabiliyyəti elmi nəticə əldə etmək üçün başlıca şərtdir.
22. Biliklə qazanılan zənginliyin mənəvi ucalığı - adi tikilmiş binalardan memarlıq uslubu ilə tikilən binaların fərqi qədər cəzbedici və dəyərlidir.
23. Bilik və elm – haqqı heç zaman tam ödənilməyən əbədi kapitaldır.
24. Son yarıməsrdə elmi-texniki inqilab elə bir ədədi silsilə ilə inkişaf edir ki, insan \bəşər\ elə bil yüzilliklərin





və minilliklərin mürgüsündən indi ayılmışdır, bəşər ictimai həyatda inqilabları unutmuş, bütünlüklə öz ağlını, zəkasını elmi-texniki inqilablara yönəltmiş, nəinki eramızın ikimin illik tarixinin sonuncu yüz ili tərəziyə qoyulsaydı, hətta ötən tarixi əsrlər belə tərəzinin o biri gözünə qoyusaydı, yenə də çox yüngül görünərdi.
25. Elmi təfəkkür elə bir elmi potensial yaratmışdır ki, dünən torpaq üstə zəif məxluq kimi görünən insan bu gün dünyanı ayaqları altında hiss etməyə bahlamışdır.
26. Bədbəxt o insan deyil ki, maddi sərvəti yoxdur, bədbəxt o şəxsdir ki, biliyi və mənəvi sərvəti yoxdur və o mahiyyət ehtibarı ilə svilizasiyanın indiki mərhələsində - mövcudluq halındadır.
27. Elm və bilik düyünlərin açarıdır.
28. Təcrübə elmin məhək daşıdır.
29. Həzəriyyə o vaxt həyata vəsiqə ala bilər ki, o təcrübənin nöqsansız süzgəcindən uğurla keçmiş olsun.
30. Təcrübəsiz təhsil – cənnət haqqında molla moizəsidir.
31. Zaman axar çaydır, elm həmən çayda olan zənginliklərdir, ondan nə istifadə edə bildin, səninkidi.
32. Elm özü kainat kimi hüdudsuzdur, zəngindir, o daima axtarılır, tapılır və həmən zənginliklərə biz vaqif olduqca kainata müvafiqləşirik, idrakımızın gücü ilə ona nisbi olaraq yaxınlaşırıq.
33. Biz kainatın sirlərinin labirintindəyik, biz bu sirləri elmlə aydın laşdırdıqca özümüzü məcaralar və möcüzələr dünyasında hiss edirik.
34. Elm – reallığın təfsiridir
35. Elm - insanı mövcudluqdan ciddi vəson dərəcədə əhəmiyyətli varlığa çevirir.

36. İnsanın özünün elmi cəhətdən öyrənməsi onun intəhasız kainata startının zəminidir.
37. Elmin gücü – təfəkkürün məntiqidir.
38. Bilik toplamaq, biliklərin elmin inkişafında və onun yeni sahələrinin yaradılması – arıların şirə toplayıb bal yaratmasından da qat-qat çətin və mürəkkəb məsələdir, daha çox şaxəlidir, lakin bal kimi faydalıdır, uzunömürlüdür və bütün bəşəriyyət üçün xəzinədir.
39. Bilik qazandıqca dağ tək ucaldım, kim ilə döyüşdüm, ondan bac aldım.
40. İnsan məhz ağlı, təfəkkürü və biliyinə görə bütün canlılardan əhəmiyyətli dərəcədə yüksəkdə durur, onun ictimai həyatı dəyişmək və yeniləşdirmək qabiliyyəti – onun biliyindən, elmi təcrübə ilə zənginləşmiş zəkasından qidalanmışdır.
41. Gözəl, geniş və hərtərəfli elmi biliyə sahib olmaq, - insanın təkcə özü üçün deyil, \bü sanki cəmiyyətin ortaq malıdır\, bu cəmiyyə-tin rifahı üçün tikilmiş monumental abidəyə bənzəyir, -o illərlə, əsrlərlə insanlara fayda verəcək,zövq mənbəyi olacaq,onları pillə-pillə yüksəldəcək və böyük minnətdarlıqla xatırlanacaqdır.
42. Elm adamlarının əldə etdiyi mənbələr, məlumatlar – sonradan onların yaradıcılıqla verə biləcəkləri elmi biliklərin zəruri şərtidir.
43. Bilik – yaradıcılıq potensialıdır.
44. Biliyə intensiv meyl – istedadın təzahürüdür, yaradıcılıq ruhudur.
45. Elmi biliklərə can atmaq – kamilliyin mütləqə yönəmidir.
46. Suxurlardan sızılıb gələn xırda sular axaraq böyük və möhtəşəm çaylar əmələ gətirdiyi kimi, illərlə əldə olunan məlumatlar, təbii, şüuri və qeyri-şüuri təhlillər





təfəkkürün süzgəcindən keçərək, çoxlu sayda qənaətlər mütləq biliklərin formalaşmasını şərtləndirən amillərdir ki, nəticədə böyük elmi əsərlərin, kəşflərin, insanların bilavasitə ehtiyaclarını ödəyən texnologiyaların və habelə, siyasi, iqtisadi, ictimai proseslərin yaranmasını zəruri edir.
47. Ümumiyyətlə təhlili və qənaətlərlə şərtlənən biliklər – maddi, mənəvi və intellektual sərvətlərin yaranmasının əsasıdır.
48. Elmi və poetik axtarışlarda müəyyən təbii müvafiqlik var, belə ki, təbiətdə və cəmiyyətdə – ilk baxışda – hamının gördükləri və seyr etdikləri içərisində şair nə isə poetik olanı duyur, assosiativ reaksiya verir və təfəkkürü ilə cilalayıb, bədii material kimi cəmiyyətə təqdim edərək svilizasiyanın mənəvi xəzinəsinə öz töhfələrini vermiş olurlar, elmdə də bütün biliklər içərisindən elm adamı, alimlər elmi səciyyə daşıya biləcək və konkret ehtiyacları ödəyəcək, məntiqə və təfəkkürə uyğun gələ bilən təhlili proseslərə üstünlük verməklə öz təlqiqat obyektlərinə yiyələnib, məqsədlərinə çatmış olurlar və nəticə ehtibarı ilə cəmiyyətin svilizasiyasında öz qlobal aparıcı rollarını qoruyub saxlamaqla elmin xalqa və cəmiyyətə xidmət etmə mahiyyətinə nail olurlar.

# MÜNDƏRİCAT

Müslüm Mahir Hikmətin «Sosial həyatın ensiklopediyası» adlı kitabı haqqında bir neçə söz---3
Fəlsəfə və poeziya---5
Təbiət və poeziya fəlsəfəsi---22
Ədəbi tənqid fəlsəfəsi---32
Axar sular fəlsəfəsi---40
Yaradıcılığın fəlsəəsi---47
Mədəniyyətin, incəsənətin və ümumiyyətlə svilizasiyanın fəlsəfəsi---50
Ədalət və hüqüq fəlsəfəsi---55
Dobruluq, düzlük və həqiqət fəlsəfəsi---85
Əxlaq və ləyaqət fəlsəfəsi---90
Şəxsiyyətin fəlsəfəsi---94
Ağlın, zəkanın, təfəkkürün və idrakın mahiyyət fəlsəfəsi---96
Siyasətin fəlsəfəsi «o»---100
İqtisadiyyatın fəlsəfəsi---115
Elmin, biliyin, təcrübənin və nəzəriyyənin fəlsəfəsindən fraqmentlər---119



**MÜSLÜM MAHİR HİKMƏT**

**SOSİAL HƏYATIN ENSİKLOPEDİYASI**

Dizayner və tərtibat:
**Rabil Şahbazlı**

Yığılmağa verilmişdir: 10.08.2008
Çapa imzalanmışdır: 15.10.2008

"Elvin" MMC –nin mətbəəsində hazır diapozitivlərdən
istifadə olunmaqla ofset üsulu ilə çap edilmişdir